RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 75 (10095) 1 may 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Bütün Avropa ölkələrinə qalib gəldik



## Prezident İlham Əliyev Avropa çempionatında komanda hesabında çempion olan güləşçiləri qəbul edib

Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniyanın paytaxtı Tiranada keçirilmiş Avropa çempionatında komanda hesabında Avropa çempionu olan yunan-Roma güləşi və sərbəst güləş, həmçinin qadın güləşi üzrə medal qazanmış idmançıları və onların məşqçilərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.

2

*Azərbaycanın özü qədər əbədi*

## Heydər Əliyev siyasətinin təntənəsi

Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs edərkən onun fəaliyyətinin Naxçıvan dövrünə də nəzər salmaq lazımdır. Çünki həmin dövrün prosesləri və reallıqları Azərbaycanın siyasi tarixinin mühüm səhifələrindən birini təşkil edir. Bəllidir ki, 1990-cı ildə Azərbaycan mürəkkəb situasiya qarşısında olduğu zaman muxtar respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun acınacaqlı hal alması, mərkəzi hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. 1991-ci ilin sentyabr ayında Ulu Öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Məclisinin sədri seçilməsindən sonra muxtar respublikada sabitlik təmin edildi, sosial və iqtisadi durum yaxşılaşdırıldı. Muxtar respublikanın ərazisinin düşmənin işğalı altına düşməsinin qarşısı alındı. Bundan başqa, milli dövlətçilik ənənələrinin bərpası istiqamətində ardıcıl və məqsədyönlü işlər görüldü. Muxtar respublikada dövlət rəmzləri bərpa edildi, milliləşdirmə siyasəti davam etdirildi. 17 noyabr 1990-cı ildə Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "sovet" və "sosialist" sözləri çıxarıldı, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və sovet ordusu Naxçıvan MR ərazisindən çıxarıldı. "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə qərarlar qəbul edildi. Ulu Öndər Naxçıvanda çalışarkən o zaman hakimiyyətdə olan AXC-Müsavat cütlüyü Heydər Əliyevi devirməyə cəhd etsə də, insanların ona olan sevgisi və inamı belə cəhdlərin qarşısını qətiyyətlə aldı.

1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu durumun daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Yeni Azərbaycan Partiyasının yaradılması və milli inkişafa xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfəsini verməsi Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindəndir. Yeni Azərbaycan Partiyası təşkilatlanaraq öz fəaliyyətini davam etdirdi və qısa zaman kəsiyində xalqın etimadını qazandı. 1993-cü ildə xalqın dəstəyi ilə Ulu Öndər hakimiyyətə gəldi. YAP hakim partiyaya cevrildi.

Bu proseslər kontekstində daha bir məqama nəzər salmaq vacibdir. Belə ki, 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu.

6

## Azərbaycanın sülh strategiyasının alternativi yoxdur

### Prezident İlham Əliyevin iradəsi və prinsipiallığı sayəsində Ermənistan birbaşa dialoqa cəlb olundu



Hazırkı prosesin bu nöqtəyə gəlib çıxması, Ermənistanın destruktiv ritorikadan uzaqlaşaraq konstruktiv masa arxasına əyləşməsi birbaşa Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi strateji kursun və qətiyyətli siyasi iradənin nəticəsidir. Dövlətimizin başçısının ən böyük uğurlarından biri hərbi zəfərimizi diplomatik müstəvidə qəbul və davam etdirməsidir. Azərbaycan lideri postmünaqişə dövründə yeni reallıqları, sadəcə, bəyan etmədi, həm də beynəlxalq birliyin və Ermənistanın bu reallıqlarla hesablaşmasını təmin edən bir yol xəritəsi cızdı. Prezident İlham Əliyev hər zaman sülhün kənar paytaxtlarda deyil, bilavasitə tərəflər arasında əldə olunmalı olduğunu vurğulayırdı. Məhz bu qətiyyətli və prinsipial mövqe nəticəsində İrəvan üçüncü tərəflərin vasitəçiliyindən imtina edərək Bakının cızdığı sülh yolu ilə getmək məcburiyyətində qaldı.

İrəvanın prosesə sövq edilməsi Azərbaycanın məqsədyönlü təzyiq və konstruktiv təklif balansını mükəmməl şəkildə idarə etməsinin məntiqi yekunudur. Diplomatiyamızın ən böyük qələbələrindən biri budur. Bakının diplomatik zəfəri hərbi qələbənin siyasi və iqtisadi müstəvidəki məntiqi davamı kimi regionda yeni, sabit və təhlükəsiz bir dövrün rəsmən başladığını təsdiq edir.

7

## Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolu güclənir

Baltik ölkələri ilə münasibətlərin dərinləşməsi diqqətəlayiq tendensiyadır. Litva və Latviyanın Azərbaycanla əməkdaşlığa artan marağı göstərir ki, ölkəmiz yalnız enerji sahəsində deyil, həm də digər istiqamətlər üzrə - müdafiə, təhsil, texnologiya və humanitar əməkdaşlıq sahələrində etibarlı tərəfdaş kimi qəbul olunur. Bu isə münasibətlərin kompleks xarakter aldığını göstərir. Çexiyanın Baş nazirinin bu günlərdə ölkəmizə reallaşan səfərində də ikitərəfli münasibətlərin inkişafına dair faydalı müzakirələr aparılıb. Çexiya Azərbaycanla strateji tərəfdaş ölkədir. Səfər çərçivəsində aparılan müzakirələr, eləcə də Azərbaycan-Çexiya biznes-forumunun keçirilməsi ölkələrimiz arasında əlaqələrin inkişafına əhəmiyyətli təsir göstərəcək. "Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunu şərtləndirən əsas amillərdən biri də onun dialoq platforması kimi çıxış etməsidir. Ölkəmiz sabitlik, etibarlılıq və praqmatik əməkdaşlıq prinsiplərinə əsaslanan siyasət həyata keçirərək beynəlxalq tərəfdaşlar üçün cəlbedici mühit formalaşdırır. Qlobal qeyri-sabitlik şəraitində belə yanaşma xüsusi aktuallıq kəsb edir. Beləliklə, Latviya və Ukrayna prezidentlərinin səfərləri, Litva, Çexiya ilə fəal dialoq və digər Avropa dövlətlərinin artan marağı Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeni rolunun formalaşdığını göstərir.

4

## İKT cəmiyyətə nə verir

### İqtisadi inkişaf, yoxsa sosial gərginlik



Azərbaycanda da oxşar tendensiyalar mövcuddur, baxmayaraq ki, rəqəmsal transformasiya bizdə hələ inkişaf mərhələsindədir. 2023-cü ilin rəsmi statistikasına görə, sənaye və xidmət sahələrində işçi sayı təxminən 5-8 faiz azalıb. Azalma sadə əməliyyatlarla məşğul olan işçilər arasında daha çox olub. Rəqəmsal texnologiyalara yönəlmiş peşələr isə iş bazarında artmaqda davam edir. Texnoloji peşələr, yəni data analitik, proqramçı, kibertəhlükəsizlik mütəxəssisi əhəmiyyətli dərəcədə artıb. Beləliklə, həm beynəlxalq, həm də yerli təcrübə göstərir ki, İKT-nin tətbiqi əmək bazarında struktur dəyişikliklərinə səbəb olur.

Əslində, bu ziqzaq görüntünün qarşısı tamamilə alınmasa da, onun təsirini yüngülləşdirmək mümkündür. Bunun üçün işçilərin təhsili və peşə bacarıqlarının artırılması, lifelong learning (ömür boyu təhsil) proqramlarının tətbiqi, işsiz qalan, yaxud da ixtisasını dəyişdirənlərə sosial dəstək verilməsi və texnologiyanın insan resurslarını nəzərə alaraq planlı tətbiqi vacibdir. Belə tədbirlər həm iş bazarının adaptasiyasını təmin edir, həm də texnologiyanın gətirdiyi mənfi təsirləri minimuma endirir.

9

## Təbiətin sınağı, dövlətin qayğısı



Vətəndaş üçün hökumət anlayışı yalnız idarəetmə mexanizmi deyil, həm də güvən, dayaq və arxalanacaq bir qüvvədir. İnsan o zaman dövlətini və hökumətini doğma və özününkü hesab edir ki, təkcə uğurlu, xoşbəxt günlərdə deyil, çətin məqamlarda da onu yanında görür. Məhz belə anlarda dövlətin göstərdiyi diqqət və qayğı cəmiyyətin mənəvi sütunlarını möhkəmləndirir, xalq-dövlət birliyini sarsılmaz edir, vətəndaş məqamı gələndə vətəni və dövləti üçün əlindən gələni əsirgəmir. Azərbaycan reallığında bu bağlılıq konkret faktlarla öz təsdiqini tapır. Sel və daşqınların yaratdığı çətinliklər zamanı dövlət qurumlarının operativ müdaxiləsi, zərərçəkmiş vətəndaşlara göstərilən maddi və mənəvi dəstək bir daha sübut edir ki, ölkəmizdə insan amili dövlət siyasətinin mərkəzində dayanır. Bu baxımdan, Prezident İlham Əliyevin imzaladığı məlum sərəncam yalnız texniki və inzibati qərar deyil, eyni zamanda vətəndaşa ünvanlanmış növbəti mesajdır: "Dövlət hər zaman sizin yanınızdadır".

9

# Bütün Avropa ölkələrinə qalib gəldik

## Prezident İlham Əliyev Avropa çempionatında komanda hesabında çempion olan güləşçiləri qəbul edib







### Prezident İlham Əliyevin çıxışı

- Salaməleyküm, əyləşin.

İlk növbədə milli komandamızı Tiranada keçirilmiş Avropa çempionatında qazandığı böyük qələbə münasibətilə təbrik edirəm. Bu qələbə bizim hamımızı sevindirdi. Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər. Avropa çempionatında komanda hesabında birinci olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Xüsusilə nəzərə alsaq ki, bu gün həm dünyada, həm Avropada güləş üzrə mübarizə daha gərgin keçir, bir çox ölkələrdən olan tanınmış güləşçilər böyük nəticələr göstərirlər və mübarizə də çox gərgin idi. Bəzi yarışları mən də izləmişəm və görmüşəm ki, bizim idmançılarımız öz peşəkarlığını göstərərək rəqibləri ədalətli mübarizədə məğlub etmişlər. Bu, əlbəttə, bütün xalqımızı sevindirir və bir daha göstərir ki, güləşimiz uğurla inkişaf edir. Güləşimizin böyük ənənələri var və biz bu ənənələri yaşadırıq. Şadam ki, tanınmış güləşçilərlə bərabər gənc güləşçilərimiz də böyük nəticələr əldə edirlər. Bu onu göstərir ki, məşq prosesi, seleksiya prosesi düzgün qurulubdur. Bu münasibətlə federasiyanı təbrik edirəm, məşqçiləri təbrik edirəm və əlbəttə ki, ilk növbədə idmançıları.

Hər dəfə beynəlxalq yarışlarda bizim bayrağımız qaldırılanda bütün Azərbaycan xalqı qürur hissi keçirir, sevinir. Bu qələbə sevincini idmançılarımız xalqımıza bəxş edir və bu da öz növbəsində gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün çox önəmli amildir. İdman, ümumiyyətlə, cəmiyyətimizin ayrılmaz hissəsidir və xüsusilə son illər ərzində idmanda gedən müsbət proseslər, əlbəttə ki, hamımızı sevindirir.

Federasiyaya gəldikdə onu da qeyd etməliyəm ki, bizim tanınmış idmançılarımız, Olimpiya çempionları federasiya rəhbərliyində təmsil olunurlar. Məşqçilər arasında da tanınmış idmançılar təmsil olunur. Bu gün məşqçi kimi fəaliyyət göstərən idmançıların yarışlarını vaxtilə mən özüm izləmişəm, həm Bakıda, həm Olimpiya Oyunlarında onlara azarkeşlik etmişəm. İndi isə onların yetirmələri bizi sevindirir. Bax belə, nəsillər dəyişdikcə güləş və bütövlükdə idman Azərbaycanda nəinki yaşayır, hətta inkişaf edir və yeni zirvələrə çatır. Nəsillər dəyişir, amma bir şey dəyişmir, o da Azərbaycan idmanının uğurları.

Əlbəttə, indi federasiya, xüsusilə bölgələrdə olan gənc idmançıları məşq, təlim toplanışlarına cəlb etmək üçün işini bundan sonra da təkmilləşdirəcək. Çünki bu gün hər bir bölgədə həm Olimpiya İdman kompleksləri var, eyni zamanda güləş zalları. Ona görə bu seleksiya işi, əlbəttə ki, gələcək uğurlarımızın əsasını təşkil edəcək.

Azərbaycan idmanının ümumi inkişafına gəldikdə hər şey göz qabağındadır. Həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında bizim idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edirlər. Əlbəttə ki, uğurlarla bərabər məğlubiyyətlər də olur. Amma idmanda hər şey mümkündür. Əsas odur ki, idmançılarımızda qələbə əzmi çox güclüdür və bir daha ölkəmizin ümumi inkişafını əks etdirir. Bu gün qalib dövlət və qalib xalq kimi yaşayan dövlətimiz, xalqımız, o cümlədən idman uğurları ilə fəxr edir.

Mən sizi bu münasibətlə bir daha təbrik edirəm. Mənim idmançılarla görüşlərim müntəzəm xarakter daşıyır. 30 ilə yaxın müddət ərzində Azərbaycan Olimpiya Komitəsinə rəhbərlik edirəm. Bu 30 ilə yaxın müddət ərzində, əlbəttə ki, bir çox müsbət məqamlar olub. Əsas odur ki, idmanın dayanıqlı inkişafı, uğurlarımızın ardıcıl şəkildə davam etməsi və gənc nəslin yetişməsi - hər şey mənim gözümün önündə keçib. Görün, neçə nəsil dəyişib, amma bu gün biz yenə də uğurlarla fəxr edirik. Əsas budur və əminəm, həm Güləş Federasiyası, həm bizim digər federasiyalarımız gələcəkdə öz işlərini elə quracaqlar ki, Azərbaycan xalqı idman yarışlarına baxanda daim sevinc hissləri keçirsin.

Əlbəttə, ölkəmizdə keçirilən idman yarışları idman növlərini populyarlaşdırır. Bizim təcrübəmiz də böyükdür, çox böyük beynəlxalq yarışlar keçirmişik, həm Avropa Oyunlarını, həm İslam Həmrəyliyi Oyunlarını. Bunlar demək olar ki, Yay Olimpiya Oyunlarının səviyyəsinə çox yaxındır. Keçən il MDB Oyunlarını özü də paytaxtda yox, bölgələrdə keçirmişik. Yəni bu onu göstərir ki, çox güclü potensial var və idmana, idmançılara qayğı dövlət siyasətidir. Əminəm ki, idmançılar da bunu görür və hiss edirlər. Bir daha sizi təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

❖ ❖ ❖

Sonra idmançılar çıxış etdilər.

Sərbəst güləşçi **Turan Bayramov** dedi: Cənab Prezident, ilk növbədə dəyərli vaxtınızı ayırıb bizi qəbul etdiyiniz üçün sərbəst güləş milli komandası adından Sizə təşəkkürlərimizi bildiririk. Ölkəmizi Avropa çempionatında layiqincə təmsil etdik. Komandamız ardıcıl surətdə ikinci dəfədir Avropa çempionu olur. Sizin bizi qəbul etməyiniz məsuliyyətimizi daha da artırır, bizə böyük bir stimul verir. Mən də inanıram və əlimdən gələni edəcəyəm ki, gələcəkdə qarşınıza qızıl medalla çıxım.

Yunan-Roma güləşçisi **Həsrət Cəfərov** dedi: Cənab Prezident, ilk növbədə Sizi salamlayıram. Bizi qəbul etdiyiniz üçün çox sağ olun. Bildiyiniz kimi, Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatında qızıl medal qazandım. Bu, mənim ümumilikdə dördüncü qızılımdır və yarış, həqiqətən də, çox çətin keçdi. Dördqat Avropa çempionu kimi Azərbaycan yunan-Roma güləşi tarixində bir rekorda imza atdım. Bizi belə dəstəklədiyiniz, bizə göstərdiyiniz diqqət və qayğı üçün Sizə öz təşəkkürümüzü bildiririk. Sizin diqqət və qayğınız bizim üçün ən böyük məsuliyyətdir. Çox sağ olun.

Qadın güləşçi **Jalə Əliyeva** dedi: Cənab Prezident, bu gün burada çıxış etmək mənim üçün böyük şərəfdir. Mən dörd il bundan qabaq da Sizinlə görüşdə iştirak etmişdim. 23 yaşadək güləşçilər arasında Avropa çempionu olmuşdum. Bu dəfə isə böyüklərdən ibarət yarışda Avropa mükafatçısı oldum. Biz Sizin diqqət və qayğınızı hər zaman hiss edirik. Bizi dəvət etdiyiniz üçün təşəkkür edirəm. Çox sağ olun.

❖ ❖ ❖

**Prezident İlham Əliyev** dedi: Çox sağ olun. Komandamız çoxmillətlidir, hələ hamı Azərbaycan dilini kifayət qədər bilmir, ona görə də rus dilində bir neçə söz demək istərdim. Hamını bir daha təbrik etmək və Azərbaycanı beynəlxalq arenada belə layiqincə təmsil etdiyinizə görə təşəkkürümü bildirmək istərdim. Əlbəttə, Avropa çempionatında belə bir mühüm, deyərdim ki, tarixi qələbədən danışarkən xüsusi qeyd etmək istərdim, həm yunan-Roma güləş növündə, həm də sərbəst növdə güləşçilər birinci yeri qazanıblar. Yəni bu, çox əhəmiyyətlidir.

Qızlara gəldikdə onların da medalçılar arasında olmalarına çox şadam. Bu, qızlar arasında da gənc nəslin güləşə böyük maraq göstərdiyindən xəbər verir. Əminəm ki, gələcəkdə də qızlar qızıl medal qazanacaqlar, mən buna şübhə etmirəm. Qızlar arasında medalçılar daha çox ola bilərdi, amma kiminsə bəxti gətirmədi. Ola bilər ki, hər hansı səhvlər də oldu, lakin bu mühümdür, çünki həm sərbəst, həm yunan-Roma, həm də qadın güləşi üzrə bütün istiqamətlər Azərbaycanda inkişaf edir.

Milli komandada belə yaxşı ab-havanın, ruh yüksəkliyinin olmasına çox şadam, hamı vahid ailə kimi bir-birinin qələbəsinə sevinir və bu, çox qiymətlidir.

Əlbəttə, qeyd etməli olduğum daha bir vacib məqam ondan ibarətdir ki, tanınmış idmançılar daim cəmiyyətin diqqət mərkəzindədirlər. İdmançılarımızın həm cəmiyyətdə, həm də məişətdə özlərini layiqincə aparmaları məni medallardan da çox sevindirir. Məşhur idmançıların, çempionların adi həyatda məhz bu səviyyəni saxlaya bilmədiklərinə dair tarixdə çoxlu nümunələr var və bir müddət sonra onlara idmançı kimi münasibət həmin səhvlər və ya yanlış hərəkətlər ucbatından pis istiqamətdə dəyişir. Bizdə isə artıq dediyim kimi, ən azı mənim təqribən 30 ildir Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyim dövrdə xatırladığıma görə, belə hallar olmayıb. Bu, çox vacibdir. Medallardan heç də az əhəmiyyətli olmayan odur ki, çempionlar və mükafatçılar, həmçinin cəmiyyətdə və çalışdıqları kollektivlərdə yüksək mənəvi keyfiyyətlər nümayiş etdirsinlər. Bu belə də olmalıdır. Əlbəttə ki, burada çempionlarımızın - Olimpiya çempionlarının, Avropa çempionlarının və dünya çempionlarının nümunəsi var. Dediyim kimi, vaxtilə federasiyaya rəhbərlik edənlərə və məşqçilərə azarkeşlik etmişəm, bu gün isə onlar öz tələbələrinə azarkeşlik edirlər. Bu, bizim regionumuzda ənənələrin davamlılığıdır. Tarixdə ənənələr həmişə mühüm rol oynayıb və bu, Azərbaycan cəmiyyətində və bütövlükdə Qafqaz regionunda davam edir. Bu, bizi daha da yaxınlaşdırır.

Buna görə də idmançılarımızın həm mübarizə meydanında, həm də ondan kənarda özlərini necə ləyaqətli apardıqlarını xüsusi vurğulamaq istərdim. Hakim səhvləri və ya ədalətsizliklər baş verdikdə belə, ləyaqətli davranışı qorumaq həmişə vacibdir. Çünki bəzən qərəzlilik olur - biz bunu Azərbaycan idmançılarına qarşı təkcə güləşdə deyil, xüsusən də Avropa yarışlarında dəfələrlə görmüşük. Maraqlıdır, bir qayda olaraq Avropa yarışlarında Azərbaycan idmançılarına qarşı ədalətsizlik dünya çempionatlarına nisbətən daha çox olur. Yəqin ki, Avropada heç də hamı Azərbaycanın Avropa çempionatlarında iştirak etməsinə və təkcə iştirakına deyil, həm də bütün Avropa ölkələrinə qalib gəlməsinə sevinmir.

Məhz bu səbəbdən bir daha məmnunluqla qeyd etmək və arzulamaq istərdim ki, harada olmağınızdan asılı olmayaraq, - xalça üzərində və xalçadan kənarda, - layiqli davranış prinsiplərinə daim sadiq qalmağa davam edəcəksiniz. Bu, ölkəmizi təmsil edən bütün idmançılara aiddir.

Beləliklə, bir daha təbrik edirəm və yeni qələbələr arzulayıram. Sağ olun.

# Y.P.Kamayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə və vəzifə borcunu yüksək peşəkarlıqla yerinə yetirdiyinə görə Yuriy Petroviç Kamayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2026-cı il*

# Lətif Kərimovun 120 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2026-cı ilin noyabr ayında Azərbaycan təsviri sənətinin böyük ustası, görkəmli xalçaşünas, pedaqoq və sənətşünas alim, SSRİ Dövlət mükafatı laureatı, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimovun 120 illiyi tamam olur.

Dünya mədəni irs xəzinəsində şərəfli mövqeyə malik Azərbaycan xalça mədəniyyətinin hazırkı inkişaf səviyyəsinə yüksəlməsində Lətif Kərimovun təqdirəlayiq xidmətləri vardır. Onun eskizləri əsasında toxunmuş xeyli sayda süjetli, portret xalçalar və monumental xalılar milli xalçaçılığın parlaq ənənələrini özündə yaşadan misilsiz sənət nümunələridir. Fitri istedadla yaradılan və naxışlarının ifadəliliyi, bitkin üslubu ilə seçilən dərin koloritli əsərləri sənətkara dövrün məşhur xalça ustalarından biri olaraq xüsusi şöhrət qazandırmışdır. Lətif Kərimov Azərbaycan xalçalarının ornamental, kompozisiya xüsusiyyətlərini müəyyənləşdirmiş və mükəmməl sistemli təsnifatını işləyib hazırlamışdır. Xalça sənətinin beynəlxalq miqyasda mahir bilicisi kimi tanınmış alimin bu istiqamətdə apardığı fundamental tədqiqatlar indi də ən çox istinad olunan mötəbər mənbələrdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalq tətbiqi sənətinin inkişafı, tədqiqi və təbliği işinə dəyərli töhfələr vermiş görkəmli xalça rəssamı Lətif Kərimovun 120 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Xalq rəssamı Lətif Kərimovun 120 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2026-cı il*

# "Dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2026-cı il*

# "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 avqust tarixli 300 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 124** **Bakı şəhəri, 30 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 20-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 avqust tarixli 300 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1438 (Cild I) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollegiya üzvlərinin sayı 15 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının maliyyə naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavinləri
Naxçıvan Muxtar Respublikasının maliyyə naziri
Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının rəhbəri
Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının rəhbərinin müavinləri
Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi
Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin direktoru
Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin direktoru
Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinin direktoru".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının iclası keçirilib

Aprelin 30-da İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilib.



Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Nazirlər Kabinetindən məlumat verilib.

Baş nazirin müavini, Dövlət Komissiyasının sədri Samir Şərifov komissiyanın iclasını açaraq bildirib ki, Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına qoşulmaqla qlobal iqlim çağırışlarına qarşı birgə mübarizədə fəal iştirak etməyə başlayıb. Ölkə sonrakı dövrdə Paris Sazişi çərçivəsində götürdüyü öhdəliklərə sadiq qalaraq, istixana qazı emissiyalarının azaldılması istiqamətində daha iddialı məqsədlər müəyyənləşdirib və üçüncü Milli Müəyyən Edilmiş Töhfə (NDC) sənədində 1990-cı il ilə müqayisədə 2035-ci ilədək emissiyaların 40 faiz azaldılmasını əsas prioritet kimi təsbit edib. Bu yanaşma Azərbaycanın aşağı karbonlu inkişaf modelinə keçid və iqlim dəyişmələrinin təsirlərinin minimuma endirilməsi istiqamətində ardıcıl siyasət apardığını nümayiş etdirir.

Qeyd olunub ki, 2024-cü il noyabrın 11-22-də Bakıda böyük uğurla keçirilmiş COP29 konfransı həllini gözləyən bir çox məsələ üzrə mühüm və tarixi qərarlarla yadda qalıb. Qlobal iqlim dəyişmələrinin fəsadlarına qarşı dünya ölkələrinin böyük əksəriyyətinin nümayiş etdirdiyi birgə səylərə Azərbaycan öz töhfəsini verib. Məhz Bakıda inkişaf etməkdə olan ölkələrin əsas gözləntisi - "Yeni Kollektiv Kəmiyyət Hədəfi" üzrə konsensusun əldə olunmasına nail olunub. Bakıda qəbul edilən qərara əsasən, 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən inkişaf etməkdə olan ölkələrə yönəldilən iqlim maliyyəsinin illik hədəfi 1,3 trilyon ABŞ dolları səviyyəsində müəyyən edilib. Komissiyanın iclasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "İqlim haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi, habelə "Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası"nın layihəsi barədə, İqtisadiyyat Nazirliyi tərəfindən isə Avropa İttifaqının Karbon Sərhəd Tənzimləmə Mexanizmi (CBAM) və onun mümkün iqtisadi təsirləri barədə təqdimatlar edilib və həmin təqdimatların ətrafında müzakirələr aparılıb.

Dövlət Komissiyasının iclasında çıxış edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev bildirib ki, ölkənin Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası layihəsinin (LTS) yekunlaşdırılması və qısa müddətdə təsdiqə təqdim olunması vacibdir. O, öz çıxışında vurğulayıb ki, Avropa İttifaqının Sərhəddə Karbon Tənzimlənməsi Mexanizmi idxal olunan məhsullar üzrə karbon intensivliyinin nəzərə alınması ilə rəqabət şəraitinin bərabərləşdirilməsi nəzərdə tutulur. Bu baxımdan milli iqlim siyasətinin gücləndirilməsi ölkənin ixrac potensialının qorunması və sənayenin modernizasiyası üçün mühüm əhəmiyyət daşıyır.

Bununla yanaşı, Xarici İşlər Nazirliyi tərəfindən komissiya üzvləri 2025-ci ilin noyabrında Braziliyanın Belem şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyasının (COP30) nəticələri və ölkəmiz tərəfindən iqlim dəyişmələri ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə məlumatlandırılıb. Eyni zamanda 2026-cı il noyabrın 9-20-də Türkiyənin Antalya şəhərində keçiriləcək COP31 sessiyasına hazırlıq işlərinin aidiyyəti qurumlar tərəfindən vaxtında başlanmasının zəruriliyi vurğulanıb.

İclasın yekununda Dövlət Komissiyasının sədri Samir Şərifov tərəfindən qarşıdan gələn BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasına hazırlıqla bağlı tədbirlər planının hazırlanaraq qısa müddətdə komissiyaya təqdim olunması, eləcə də Avropa İttifaqının Sərhəddə Karbon Tənzimlənməsi Mexanizmi, "İqlim haqqında" Azərbaycan Respublikasının Qanunu və "Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası" layihələrinin təkmilləşdirilməsi məqsədilə Qurumlararası İşçi Qrupunun yaradılması barədə qərarlar qəbul edilib.

# "Dayanıqlı inkişaf: Ailə, qadın və uşaq siyasəti": Bakıda mühüm konfrans

Aprelin 30-da Bakıda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Dayanıqlı inkişaf: Ailə, qadın və uşaq siyasəti" mövzusunda konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, konfransın açılışı mərasimində Azərbaycan Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyev və Vətən müharibəsində həlak olmuş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Daha sonra iştirakçılara "Ailə, qadın və uşaq məsələləri sahəsində dövlət siyasəti" mövzusunda videoçarx təqdim olunub. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova açılış nitqi ilə çıxış edərək bildirib ki, son 30 il ərzində müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi və inkişafı prosesində insan kapitalına yönəlik siyasətin mərhələli şəkildə formalaşdığı və bu gün artıq sistemli bir xarakter aldığı aydın görünür. Bu inkişafın ilk 8 ili mürəkkəb, məsuliyyətli və taleyüklü bir mərhələ olub.

Dövlət komitəsinin sədri qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji kurs bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla və müasir çağırışlara uyğun şəkildə davam etdirilir. Bu kursun mərkəzində insan amili dayanır və bu yanaşma dövlət siyasətinin bütün istiqamətlərində öz əksini tapır.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva qeyd edib ki, bu il "Uşaq hüquqları haqqında" qanunun və digər əlaqəli normativ aktların qəbulu uşaq hüquqlarının daha etibarlı təmini baxımından xüsusi önəm daşıyır.

"Məlumat üçün bildirmək istərdim ki, ombudsman mövzu ilə əlaqədar təqdim olunan normativ-hüquqi akt layihələrinə təkliflərini verib və həmin təkliflər aidiyyəti qurumlar tərəfindən nəzərə alınıb", - deyə S.Əliyeva bildirib.

O vurğulayıb ki, cari il ombudsmanın müstəqil monitorinq mexanizmi fəaliyyəti çərçivəsində uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinə dair, uşaqlar tərəfindən energetik içkilərin, habelə kiçik elektrik nəqliyyat vasitələrinin istifadəsi ilə bağlı araşdırmalar aparılıb, bu sahədə zəruri tədbirlərin görülməsi istiqamətində təkliflər hazırlanaraq aidiyyəti qurumlara göndərilib. Elm və təhsil naziri Emin Əmrullayev təhsilin mərkəzi, ən vacib iştirakçısının uşaqlar olduğuna diqqət çəkib: "Yəni təhsil uşaqlar üçündür və onlar haqqındadır. Ən vacibi isə uşaqların öyrənməsi ilə bağlıdır. Digər maraqlı tərəflər uşaqların həyatını, təhsilini daha yaxşı etmək üçün əllərindən gələni etməlidirlər".

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev isə vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində 2018-ci ildən etibarən 4 milyon insanı əhatə edən 5 sosial islahat paketi reallaşdırılıb. Bu islahatların əsas məqsədi məhz cəmiyyətin həssas qruplarının, o cümlədən aztəminatlı ailələrin, qadınların və uşaqların sosial müdafiəsinin gücləndirilməsidir.

Nazir qeyd edib ki, hazırda qanunvericilikdə nəzərdə tutulan aylıq və birdəfəlik ödənişlər çərçivəsində uşaqlarla bağlı sosial dəstək tədbirləri 500 mindən çox şəxsi əhatə edir. Həmçinin ünvanlı dövlət sosial yardımı alan 350 min aztəminatlı şəxsin 170 mindən çoxunu uşaqlar təşkil edir.

Daha sonra "Ailə, qadın və uşaq məsələləri üzrə tematik istiqamətlərdə müzakirələr" mövzulu paneldə ailə, qadın və uşaq məsələləri müxtəlif aspektlərdən kompleks şəkildə təhlil olunub. Çıxışlarda ailə institutunun qloballaşma, sosial dəyişikliklər və rəqəmsallaşma fonunda üzləşdiyi çağırışlar vurğulanıb, ənənəvi dəyərlərin qorunması ilə müasir tələblər arasında balansın vacibliyi qeyd edilib. Eyni zamanda hüquqlar sahəsində yanaşmanın bərabərlikdən daha geniş - inklüzivlik prinsipinə doğru inkişaf etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Konfrans bədii hissə ilə yekunlaşıb.

# Ankarada qardaşlıq dialoqu

Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva Türkiyənin Ankara şəhərinə səfər edib.



AZƏRTAC xəbər verir ki, Günay Əfəndiyeva səfər çərçivəsində Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasını ziyarət edərək akademiyanın rəhbəri İsmayıl Hakkı Musa ilə görüşüb.

Görüş zamanı Azərbaycan ilə Türkiyənin hərtərəfli əməkdaşlığının günügündən daha da möhkəmləndirilməsi, parlament diplomatiyası, eləcə də ortaq mədəni irsin təbliği məsələləri müzakirə olunub.

Daha sonra Günay Əfəndiyevanın akademiyada təhsil alan gənc diplomatlarla görüşü keçirilib.

Qarşılıqlı dialoq və fikir mübadiləsi şəraitində gerçəkləşən görüşdə o, tələbələr qarşısında çıxış edərək diplomatiyanın mahiyyəti, Azərbaycan-Türkiyə münasibətlərinin strateji dərinliyi və türk dünyasının gələcək inkişaf perspektivləri barədə geniş fikirlərini bölüşüb.

Günay Əfəndiyeva diplomatiyanı dövlətlər arasında maraqların uzlaşdırılmasına xidmət edən vasitə kimi dəyərləndirərək vurğulayıb: "Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər klassik diplomatik çərçivələri aşaraq ortaq tarix, dil və mədəniyyətin üzərində yüksələn güclü qardaşlıq nümunəsidir. İki dövlətin tərəfdaşlığı beynəlxalq münasibətlərin ən səmimi və güclü təzahürlərindən biri kimi çıxış edir".

Günay Əfəndiyeva Ümummilli Lider Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsini xatırladaraq qeyd edib ki, bu yanaşma Azərbaycan və Türkiyənin xarici siyasətdə bir-birini tamamlayan strateji xəttini əks etdirir.

Deputat xüsusilə 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Azərbaycana verdiyi qətiyyətli mənəvi dəstəyin iki ölkənin qardaşlığını bütün dünyaya nümayiş etdirdiyini bildirib. Bu həmrəyliyin məntiqi davamı kimi imzalanmış Şuşa Bəyannaməsi ilə münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyi qeyd olunub.

Deputat vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən səsləndirilən "Türk dünyası bizim ailəmizdir" ifadəsi artıq Azərbaycan-Türkiyə qardaşlığını daha geniş coğrafiyada - bütün türk dünyasını əhatə edən diplomatik həmrəylik modelinə çevirir.

Çıxışda türk dünyasının son onilliklərdə keçdiyi inkişaf yoluna da toxunulub. Günay Əfəndiyeva bildirib ki, sovet dövründə türk xalqları arasında parçalanmış əlaqələr bu gün müstəqil türk dövlətlərinin iradəsi ilə yenidən bərpa olunub və artıq türk əməkdaşlıq təşkilatları vasitəsilə sistemli əməkdaşlıq daha da möhkəmlənir: "Hər il türk dövlətlərinin rəhbərləri Türk Dövlətləri Təşkilatı çərçivəsində keçirilən Zirvə toplantılarında bir araya gəlirlər. Bu görüşlərdə ortaq gündəm və gələcək perspektivlər müzakirə olunur, tranzit, logistika, enerji, ticarət, investisiya, rəqəmsallaşma və mədəniyyət kimi müxtəlif sahələrdə əməkdaşlığa dair mühüm sənədlər imzalanır".

Görüşdə ortaq dil, əlifba, tarix kimi məsələlər ümumi müzakirə olunub, eyni zamanda Günay Əfəndiyeva gənc diplomatların suallarını cavablandırıb.

# Azərbaycan ərazisi vasitəsilə Rusiyadan Ermənistana növbəti tranzit yük yola salınıb

Azərbaycan ərazisindən tranzit keçməklə Rusiyadan Ermənistana növbəti yük tədarükü həyata keçirilib.



AZƏRTAC xəbər verir ki, 4 vaqondan ibarət, ümumi çəkisi 279 ton olan taxıl və 3 vaqondan ibarət, çəkisi 203 ton təşkil edən gübrə bu gün Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə yola salınıb. Yüklərin dəmir yolu vasitəsilə daşınması müəyyən olunmuş qrafikə uyğun şəkildə həyata keçirilib və tranzit prosesində bütün zəruri logistika və təhlükəsizlik tədbirləri təmin edilib.

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 25 min tondan çox taxıl, 1600 tondan çox gübrə və 68 ton qarabaşaq göndərilib. Xatırladaq ki, tranzitlə yanaşı, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da davam edir. İndiyədək Azərbaycandan Ermənistana 8500 tondan çox dizel, 979 ton Aİ-92 benzini və 2955 ton Aİ-95 benzini ixrac olunub.

# Azərbaycan və Birləşmiş Krallıq arasında münasibətlər bütün sahələrdə inkişaf edir



Milli Məclisin Sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auld ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə dost və tərəfdaş ölkələr olan Azərbaycan və Birləşmiş Krallıq arasında münasibətlərin qarşılıqlı etimad və dəstəyə əsaslanaraq, siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Yüksəksəviyyəli səfərlərin və görüşlərin ölkələrimiz arasında əməkdaşlıq gündəliyinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti önə çəkilərək, Prezident İlham Əliyevin Birləşmiş Krallığa səfərləri, Birləşmiş Krallığın Baş naziri Kir Starmerin COP29-da iştirak üçün ölkəmizə səfəri, həmçinin qarşı tərəfdən reallaşdırılan bir sıra digər yüksəksəviyyəli səfərlər qeyd olunub.

Söhbət zamanı bildirilib ki, iqtisadi əlaqələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsas tərkib hissələrindən biridir. Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Birləşmiş Krallıq iqtisadiyyatımıza ən çox investisiya yatıran ölkədir. Milli Məclisin Sədri bu kontekstdə enerji sahəsində əməkdaşlıq əlaqələrini xüsusi vurğulayıb.

Milli Məclisin Sədri özünün Birləşmiş Krallığa səfərlərini, həmçinin Birləşmiş Krallığın ölkəmizdə səfərdə olan yüksəksəviyyəli təmsilçiləri ilə keçirdiyi çoxsaylı görüşləri məmnunluqla xatırlayaraq, bu səfərlər və görüşlər zamanı aparılan müzakirələrin parlamentlərarası münasibətlərin inkişafı baxımından əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu ən böyük qruplardan biridir. Spiker Sahibə Qafarova qanunvericilik orqanları arasında əlaqələrin daha da genişləndirilməsində qarşılıqlı səfərlərin və sıx dialoqun əhəmiyyətindən danışıb.

Səfir Fergus Auld ölkələrimiz arasında mövcud olan sıx əməkdaşlıq və tərəfdaşlıqdan məmnunluğunu ifadə edərək, iki ölkə arasında əməkdaşlığın uğurla davam etdiyini və energetika, alternativ enerji, təhsil, yüksək texnologiyalar və bir sıra digər istiqamətlərdə geniş perspektivlərin olduğunu bildirib.

Görüşdə tərəflər humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunaraq vurğulayıblar ki, ölkələrimizin təhsil sahəsində yüksəksəviyyəli əməkdaşlığı xalqlarımız arasında əlaqələrin daha da gücləndirilməsinə xidmət edir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstanın ölkəmizdəki səfiri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinu ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən spiker Sahibə Qafarova ona işində uğurlar arzulayıb.

Görüşdə ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlıq etdiyi diqqətə çatdırılaraq, siyasi dialoq və yüksəksəviyyəli səfərlərin və görüşlərin münasibətlərin inkişafında müstəsna rolu vurğulanıb.

Söhbət zamanı parlamentlərarası münasibətlər də nəzərdən keçirilib. Bu sahənin ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın mühüm istiqamətlərindən biri olduğu qeyd edilib. Qanunvericilik orqanları arasında təmasların genişləndirilməsinin, o cümlədən dostluq qruplarının fəaliyyətinin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda parlamentlərarası təşkilatlar çərçivəsində əməkdaşlığın önəmi diqqətə çatdırılaraq, Parlamentlərarası İttifaq, ATƏT Parlament Assambleyası, NATO Parlament Assambleyası və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının bu baxımdan yaxşı imkanlar yaratdığı bildirilib.

Görüşdə Maria K.Papakonstantinu ölkəmizə səfir təyin olunmasından şərəf hissi keçirdiyini bildirərək, fəaliyyəti dövründə dövlətlərimiz arasında münasibətlərin daha da dərinləşdirilməsinə töhfə verməyə çalışacağını söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Beynəlxalq gənclər forumunun bir qrup iştirakçısı Milli Məclisdə olub




Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Postkolonial dövrdə gənclərin rolunun gücləndirilməsi" mövzusunda paytaxtımızda keçirilən beynəlxalq gənclər forumunun bir qrup iştirakçısı aprelin 30-da Milli Məclisdə olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə plenar iclas zalı ilə tanış olan qonaqlara parlamentin tarixi, fəaliyyəti, burada işin təşkili və onun strukturları haqqında ümumi məlumat verilib.

Sonra qonaqlar Milli Məclisin inzibati binasını gəziblər. Müstəqil Azərbaycanın memarı, Ümummilli Liderin adını daşıyan Heydər Əliyev xatirə zalı ilə tanışlıq zamanı qonaqlar Ulu Öndər Heydər Əliyevin həyat yolunu, siyasi və dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Ziyarətçilər Azərbaycanın xalq rəssamı Toğrul Nərimanbəyovun Milli Məclisin foyesində yaratdığı "Çiçəklən, doğma Azərbaycan" adlı divar rəsmi ilə də tanış olaraq, əsərin tarixi barədə məlumat əldə ediblər.

Sonra qonaqlar Milli Məclisin foyesində spiker Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış və Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş Zəfər guşəsi ilə tanış olublar, inzibati binanın 15-ci mərtəbəsindəki "Xəzər salonu"ndan Bakının mənzərəsini seyr ediblər.

Söhbət zamanı ziyarətçiləri maraqlandıran suallar cavablandırılıb.

Qonaqları Milli Məclisin deputatları Kamal Cəfərov, Pərvanə Vəliyeva, Səbinə Xasayeva və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolu güclənir

Son zamanlar Azərbaycanın xarici siyasət xətti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Rəsmi Bakı ardıcıl şəkildə Avropa ölkələrinin ali səviyyəli rəhbərlərini qəbul edir.



Latviya və Ukrayna prezidentlərinin, Litva və Çexiyanın baş nazirlərinin, eləcə də digər dövlətlərin nümayəndələrinin Azərbaycana səfərləri artıq təsadüfi diplomatik fəallıq kimi deyil, ölkəmizin beynəlxalq münasibətlər sistemində rolunun artmasının göstəricisi kimi qiymətləndirilir.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında deyib ki, qısa zaman kəsiyində bir neçə Avropa liderinin Azərbaycana səfər etməsi, xüsusilə Latviya və Ukrayna prezidentlərinin Bakıda aparılan danışıqları ölkəmizin strateji tərəfdaş kimi qəbul edildiyini açıq şəkildə nümayiş etdirir: "Bu səfərlər göstərir ki, Azərbaycan Avropa paytaxtlarında sabit, etibarlı və nəticəyönümlü əməkdaşlıq təklif edən tərəfdaş kimi dəyərləndirilir. Aparılan danışıqların məzmunu göstərir ki, gündəlik daha çox praktik məsələlər üzərində qurulub. Regional təhlükəsizlik və Cənubi Qafqazda sülh prosesinin irəliləyişi əsas müzakirə mövzularından biridir. Münaqişədən sonrakı mərhələdə Azərbaycan artıq yalnız müzakirə olunan tərəf deyil, regionda yeni əməkdaşlıq modelinin formalaşmasında fəal iştirak edən aktordur. Avropa dövlətlərinin bu prosesə marağı da məhz bununla bağlıdır, çünki regionda davamlı sülh daha geniş coğrafiyada sabitliyə xidmət edir".

Deputatın fikrincə, enerji təhlükəsizliyi məsələləri də danışıqların mühüm hissəsini təşkil edir. Qlobal enerji bazarlarında qeyri-müəyyənliyin davam etdiyi bir şəraitdə Azərbaycan Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirib. Baltik ölkələrinin, o cümlədən Litva və Latviyanın bu istiqamətdə əməkdaşlığa xüsusi önəm verməsi Azərbaycanın uzunmüddətli tərəfdaş kimi qəbul edildiyini təsdiqləyir. Nəqliyyat və logistika sahəsində əməkdaşlıq da diqqət mərkəzindədir. Yeni geoiqtisadi reallıqlar fonunda Orta dəhlizin əhəmiyyəti artmaqdadır və Azərbaycan bu marşrutun əsas halqalarından biri kimi çıxış edir. Avropa liderlərinin səfərləri çərçivəsində bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi, infrastruktur layihələrinin inkişafı və tranzit imkanlarının artırılması məsələləri müzakirə olunur.

İqtisadi əməkdaşlıq məsələlərinin siyasi dialoqun mühüm davamı kimi çıxış etdiyini deyən S.Fətəliyeva bildirib ki, səfərlər çərçivəsində keçirilən biznes-forumları, investisiya imkanlarının müzakirəsi və ticarət əlaqələrinin genişləndirilməsi siyasi münasibətlərin real iqtisadi nəticələrə çevrildiyini göstərir: "Ukrayna Prezidentinin Azərbaycana səfəri xüsusi diqqət çəkir. Bu səfər yalnız ikitərəfli münasibətlər kontekstində deyil, daha geniş geosiyasi çərçivədə əhəmiyyət daşıyır. Müasir şəraitdə Ukrayna üçün etibarlı tərəfdaşlarla əməkdaşlıq xüsusi önəm kəsb edir və Azərbaycan bu baxımdan mühüm mövqeyə malikdir. Eyni zamanda bu dialoq Azərbaycanın müxtəlif siyasi mərkəzlərlə balanslaşdırılmış münasibətlər qurmaq qabiliyyətini bir daha nümayiş etdirir və ölkənin müstəqil xarici siyasət kursunun effektivliyini təsdiqləyir".

Deputat qeyd edib ki, Baltik ölkələri ilə münasibətlərin dərinləşməsi diqqətəlayiq tendensiyadır. Litva və Latviyanın Azərbaycanla əməkdaşlığa artan marağı göstərir ki, ölkəmiz yalnız enerji sahəsində deyil, həm də digər istiqamətlər üzrə - müdafiə, təhsil, texnologiya və humanitar əməkdaşlıq sahələrində etibarlı tərəfdaş kimi qəbul olunur. Bu isə münasibətlərin kompleks xarakter aldığını göstərir. Çexiyanın Baş nazirinin bu günlərdə ölkəmizə reallaşan səfərində də ikitərəfli münasibətlərin inkişafına dair faydalı müzakirələr aparılıb. Çexiya Azərbaycanla strateji tərəfdaş ölkədir. Səfər çərçivəsində aparılan müzakirələr, eləcə də Azərbaycan-Çexiya biznes-forumunun keçirilməsi ölkələrimiz arasında əlaqələrin inkişafına əhəmiyyətli təsir göstərəcək. "Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunu şərtləndirən əsas amillərdən biri də onun dialoq platforması kimi çıxış etməsidir. Ölkəmiz sabitlik, etibarlılıq və praqmatik əməkdaşlıq prinsiplərinə əsaslanan siyasət həyata keçirərək beynəlxalq tərəfdaşlar üçün cəlbedici mühit formalaşdırır. Qlobal qeyri-sabitlik şəraitində belə yanaşma xüsusi aktuallıq kəsb edir. Beləliklə, Latviya və Ukrayna prezidentlərinin səfərləri, Litva, Çexiya ilə fəal dialoq və digər Avropa dövlətlərinin artan marağı Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeni rolunun formalaşdığını göstərir", - deyə Sevinc Fətəliyeva əlavə edib.

Deputat sonda vurğulayıb ki, Azərbaycan artıq yalnız regional aktor deyil, daha geniş geosiyasi və geoiqtisadi proseslərdə fəal iştirak edən və onları formalaşdıran ölkə kimi çıxış edir. Bu isə ölkəmizin həm Avropa, həm də daha geniş Avrasiya məkanında strateji əhəmiyyətinin davamlı şəkildə artdığını təsdiqləyir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Türk ekspert:* "Cənubi Qafqaz və Orta dəhliz yeni strateji mərkəzə çevrilir"

Yaxın Şərqdə dərinləşən gərginlik, Rusiya-Ukrayna müharibəsinin uzanması və qlobal təchizat zəncirlərində yaranan qırılmalar Avropanı həm enerji təhlükəsizliyini, həm də logistika siyasətini yenidən nəzərdən keçirməyə vadar edir. Bu mürəkkəb fon Cənubi Qafqaz regionunu və Orta dəhlizi qitənin strateji prioritetləri sırasına çıxarıb.

Bu barədə AZƏRTAC-a açıqlamasında türkiyəli iqtisadçı ekspert Canip Nuray bildirib. Onun sözlərinə görə, Avropa artıq ənənəvi tərəfdaşlıqlara əsaslanan modeldən daha çevik, çoxşaxəli və riskləri bölüşdürən yanaşmaya keçir: "Xüsusilə son illərdə baş verən hadisələr Avropaya göstərdi ki, enerji və ticarət marşrutlarında alternativlərin olmaması ciddi geosiyasi və iqtisadi risklər yaradır. Rusiya-Ukrayna müharibəsi Avropanın enerji arxitekturasını faktiki olaraq yenidən formalaşdırmağa başlayıb. Bu müharibə Avropaya təkcə enerji asılılığının deyil, həm də geosiyasi risklərin nə qədər real və təsirli olduğunu göstərdi. Nəticədə Avropa yeni enerji mənbələri və təhlükəsiz nəqliyyat marşrutları axtarışını sürətləndirdi". O əlavə edib ki, Yaxın Şərqdə davam edən qeyri-sabitlik isə bu prosesi daha da aktuallaşdıraraq risklərin şaxələndirilməsini qaçılmaz edib.

Canip Nurayın sözlərinə görə, məhz belə bir şəraitdə Orta dəhliz layihəsi qlobal ticarət sistemində alternativdən daha çox zəruri marşruta çevrilir. Bu dəhliz Çin, Mərkəzi Asiya, Xəzər hövzəsi və Cənubi Qafqaz üzərindən keçərək Avropaya uzanan ən optimal və sabit yollar sırasında yer alır. Ekspert vurğulayıb ki, Orta dəhliz həm vaxt baxımından daha səmərəli, həm də geosiyasi risklər baxımından daha etibarlı platformadır.

"Bu gün Orta dəhliz, sadəcə, yükdaşımaların həyata keçirildiyi bir xətt deyil, geniş iqtisadi inteqrasiya platformasıdır. Burada iştirak edən ölkələr arasında ticarət dövriyyəsi artır, logistika infrastrukturu inkişaf edir və yeni iqtisadi əlaqələr formalaşır. Bu isə regionun qlobal iqtisadi sistemdə rolunu əhəmiyyətli dərəcədə gücləndirir", - deyə o bildirib.

Ekspert Azərbaycanın bu prosesdə aparıcı rolunu xüsusi qeyd edib.



Onun sözlərinə görə, Azərbaycanın coğrafi mövqeyi, siyasi sabitliyi və həyata keçirdiyi irimiqyaslı infrastruktur layihələri ölkəni Orta dəhlizin əsas dayaqlarından birinə çevirir: "Azərbaycan həm enerji ixracatçısı, həm də tranzit mərkəzi kimi Avropa üçün strateji tərəfdaşdır. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və digər layihələr Orta dəhlizin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır".

Canip Nuray əlavə edib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın genişlənməsi də bu marağın əsas göstəricilərindən biridir. Xüsusilə qaz tədarükünün artırılması və bərpaolunan enerji layihələrinin inkişafı Avropanın uzunmüddətli strategiyasında mühüm yer tutur. Onun fikrincə, Xəzər regionunda "yaşıl enerji" potensialının reallaşdırılması gələcəkdə Avropa üçün yeni enerji istiqamətlərinin açılmasına səbəb olacaq. Ekspert bildirib ki, Avropanın Cənubi Qafqaza marağı təkcə iqtisadi amillərlə məhdudlaşmır. Bu maraq həm də regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasına yönəlmiş siyasi yanaşmanı əks etdirir. "Avropa anlayır ki, davamlı iqtisadi əməkdaşlıq yalnız sabit və təhlükəsiz mühitdə mümkündür. Bu baxımdan regionda sülh və əməkdaşlıq təşəbbüsləri də xüsusi əhəmiyyət kəsb edir", - deyə o vurğulayıb.

Onun sözlərinə görə, rəqəmsal nəqliyyat dəhlizlərinin formalaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi və logistika xidmətlərinin modernləşdirilməsi Orta dəhlizin rəqabət qabiliyyətini daha da artıracaq. Bu isə marşrutun qlobal ticarət xəritəsində mövqeyini möhkəmləndirəcək.

Canip Nuray qeyd edib ki, mövcud geosiyasi dəyişikliklər uzunmüddətli perspektivdə yeni iqtisadi mərkəzlərin formalaşmasına gətirib çıxaracaq: "Cənubi Qafqaz artıq periferiya deyil, qlobal iqtisadi və geosiyasi proseslərin mərkəzində yer alan regionlardan birinə çevrilir. Orta dəhliz isə bu transformasiyanın əsas sütunlarından biridir. Beləliklə, qlobal böhranların təsiri ilə Avropanın strateji baxışında baş verən dəyişikliklər Cənubi Qafqaz və Orta dəhlizin əhəmiyyətini daha da artırır və regionu beynəlxalq əməkdaşlığın yeni qovşaqlarından birinə çevirir".

# Heydər Əliyev Fondu Vatikanda tarixi abidələrin bərpası üzrə yeni layihələrin icrasına başlayır

Vatikan şəhər-dövlətinin qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında bərpa işlərinə dair daha bir müqavilə imzalanıb.









AZƏRTAC xəbər verir ki, Vatikanda keçirilən görüşdə sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini imzalayıblar.

Yeni layihə çərçivəsində Müqəddəs Pavel Bazilikasının daxilində yerləşən Müqəddəs Pavel və Müqəddəs Pyotr heykəllərinin, həmçinin Bazilikanın həyətində Müqəddəs Pavel və Müqəddəs Luka heykəllərinin bərpası nəzərdə tutulub.

Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvinin müşayiəti ilə bazilika kompleksinə baxış zamanı Heydər Əliyev Fondu tərəfindən aparılmış işlər və növbəti mərhələlərdə nəzərdə tutulan işlər barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Müqəddəs Pyotr Kilsəsindən sonra Vatikanın ikinci ən böyük kilsəsi olan Müqəddəs Pavel Bazilikası Roma şəhərində dörd əsas papalıq bazilikalarından biridir. Monumental ölçüləri, zəngin mozaikaları və uzun sütun sıraları ilə seçilən bazilika dini, mədəni abidə kimi böyük əhəmiyyət daşıyır və hər il minlərlə zəvvar və turist tərəfindən ziyarət olunur.

Bərpa işləri zamanı müasir texnologiyaların tətbiq olunması nəzərdə tutulur. Xüsusilə lazer texnologiyası vasitəsilə səthin təmizlənməsi və təbiətə zərər verməyən bioloji vasitələrlə konservasiya işlərinin aparılması planlaşdırılır. Bu metodlar əvvəllər Vatikan bağlarında da uğurla tətbiq olunub.

Bazilikada həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilmiş əvvəlki bərpa və tikinti işləri ilə tanışlıq olub.

Qeyd edək ki, 2024-cü il sentyabrın 11-də Müqəddəs Taxt-Tac tərəfindən 25 ildən bir qeyd edilən "Müqəddəs Yubiley İli" çərçivəsində Vatikan şəhər-dövlətinin qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasının mərmər örtüklərinin və dekorativ elementlərinin qorunmasını, təhlükəsizliyinin təmin olunmasını və bərpasını nəzərdə tutan sənəd imzalanmışdı. Həmin müqavilə çərçivəsində Bazilikada aparılan bərpa və konservasiya işləri artıq uğurla tamamlanıb.

# Xocavənd kəndində daha 32 ailəyə evlərinin açarları təqdim olunub









"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Xocavənd rayonunun Xocavənd kəndinə növbəti köç prosesi gerçəkləşib.

AZƏRTAC xəbər verir ki, Xocavənd rayonunun Xocavənd kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Xocavənd kəndinə 32 ailə - 135 nəfər köçürülüb. Kənd sakinlərinə evlərinin açarları təqdim olunub. Yeni köçən ailələr qarşılandıqdan sonra onlara Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə edilib.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni onlara bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edib, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Onlar vurğulayıblar ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin hakimi seçkilərinə hərtərəfli yanaşır

Aprelin 30-da xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının Beynəlxalq Ədalət Məhkəməsinin (BƏM) hakimi vəzifəsinə namizədi Cin-Hyon Paiki ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətlər, o cümlədən qarşıdan gələn Beynəlxalq Ədalət Məhkəməsinin hakimi seçkiləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Cin-Hyon Paik öz peşəkar fəaliyyəti, beynəlxalq hüquq sahəsində təcrübəsi və BƏM-də prioritet kimi irəli sürməyi planlaşdırdığı istiqamətlər barədə ətraflı məlumat verib.

Nazir Ceyhun Bayramov Azərbaycanın beynəlxalq hüququn aliliyinə, çoxtərəfli əməkdaşlığa və beynəlxalq məhkəmə institutlarının rolunun gücləndirilməsinə verdiyi önəmi vurğulayıb. Bu kontekstdə Azərbaycan tərəfindən BƏM hakimi seçkilərinə hərtərəfli yanaşıldığı və namizədlərin peşəkar keyfiyyətlərinin diqqətlə nəzərdən keçirildiyi bildirilib. Regional təhlükəsizlik məsələləri, o cümlədən Cənubi Qafqaz bölgəsində mövcud vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə davamlı sülh və sabitliyin təmin olunması istiqamətində Azərbaycanın həyata keçirdiyi tədbirlər barədə qarşı tərəfi məlumatlandırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# İndiyədək AYİB tərəfindən Azərbaycana 202 layihə üzrə 3,712 milyard avro investisiya yatırılıb

Aprelin 30-da maliyyə naziri Sahil Babayev ölkəmizdə səfərdə olan Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Türkiyə və Qafqaz üzrə İcraçı direktoru xanım Elizabetta Falçettinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.





Maliyyə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə AYİB arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri, mövcud layihələrin icra vəziyyəti və gələcək təşəbbüslər müzakirə olunub.

Nazir Sahil Babayev bildirib ki, AYİB ilə əməkdaşlıq ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafında mühüm rol oynayır və bankın 2025-2030-cu illəri əhatə edən Ölkə Strategiyası çərçivəsində iqtisadi şaxələndirmə, özəl sektorun inkişafı, "yaşıl keçid" və regional əlaqəliliyin gücləndirilməsi istiqamətlərində davam etdirilir.

Qeyd olunub ki, indiyədək AYİB tərəfindən Azərbaycanda 202 layihə üzrə 3,712 milyard avro investisiya yatırılıb. Hazırda bankın ölkəmiz üzrə portfeli 898 milyon avro təşkil edir və bunun əhəmiyyətli hissəsi özəl sektorun payına düşür. AYİB-nin dəstəyi ilə Gəncə şəhərində icra olunan infrastruktur layihələrinin icra vəziyyətinə toxunan nazir, xüsusilə su təchizatı və kanalizasiya layihəsinin strateji əhəmiyyətini qeyd edib, layihələrin mərhələli icrasının və maliyyələşmənin icra qrafikinə uyğun həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Eyni zamanda Azərbaycanın AYİB ilə əməkdaşlıq çərçivəsində donor tərəfdaş qismində bank tərəfindən idarə olunan müxtəlif fondlara töhfələr verdiyi qeyd edilib.

Öz növbəsində, E.Falcetti Azərbaycan ilə əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edərək, AYİB-nin ölkəmizdə özəl sektorun dəstəklənməsi, "yaşıl maliyyə" alətlərinin genişləndirilməsi və dayanıqlı infrastrukturun inkişafı istiqamətlərində birgə təşəbbüslərin davam etdirilməsinə hazır olduğunu bildirib.

Görüş zamanı həmçinin Şəki şəhəri üzrə su təchizatı və tullantı suları layihəsi, eləcə də Böyük Bakı-Abşeron Su Proqramı çərçivəsində nəzərdə tutulan təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər yeni layihələrin qiymətləndirilməsi zamanı borc dayanıqlığı, icra potensialı və risklərin balanslı bölgüsünün əsas meyarlar kimi nəzərə alınmasının vacibliyini, eləcə də kredit, qrant və texniki yardım alətlərinin birgə tətbiqinin əhəmiyyətini vurğulayıblar.

# Qubada WUF13 Festivalı keçirilib

Aprelin 30-da ölkə ictimaiyyətinin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) haqqında məlumatlandırılması məqsədilə Quba şəhərində WUF13 Festivalı keçirilib.



AZƏRTAC xəbər verir ki, günün birinci yarısında Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialında WUF13 ilə bağlı məlumatlandırma sessiyası təşkil edilib. Sessiyada universitetin müəllim və tələbə heyəti, Quba şəhərində yerləşən müxtəlif məktəblərin və liseylərin şagirdləri, eləcə də Özbəkistandan ADPU-ya gələn müəllimlərdən ibarət qonaqlar iştirak ediblər. Tədbirdə Quba Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər sektorunun müdiri Anar Məmmədov, ADPU-nun Quba filialının direktoru Yusif Alıyev, WUF13 Azərbaycan Əməliyyat Şirkətinin kommunikasiya meneceri Emin Hüseynzadə çıxış edərək, WUF13 barədə ətraflı məlumat veriblər. Çıxışlarda WUF13-ün ölkəmiz üçün əhəmiyyəti və onun çərçivəsində müzakirə olunacaq əsas mövzular diqqətə çatdırılıb.

Emin Hüseynzadə vurğulayıb ki, mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası hər kəs üçün açıqdır. O, iştirakçıları WUF13-də qeydiyyatdan keçməyə və fəal iştirak etməyə dəvət edib.

WUF13 Festivalı axşam saatlarında açıq havada ictimai proqramlarla davam edib. Axşam proqramı çərçivəsində interaktiv fəaliyyətlər, maarifləndirici oyunlar, təqdimatlar və ictimai müzakirələr vasitəsilə dayanıqlı şəhər inkişafı, inklüziv şəhər mühiti, innovativ şəhər həlləri və gələcəyin şəhərləri kimi mövzular geniş auditoriyaya çatdırılıb. Eyni zamanda WUF13-ün əsas mövzusu və ideyaları barədə ətraflı məlumat təqdim olunub.

# Quba sakinləri Ümumdünya Şəhərsalma Forumunun əsas ideyaları ilə tanış olublar






Quba şəhərində keçirilən WUF13 Festivalında iştirakçılara Ümumdünya Şəhərsalma Forumunun (WUF13) On Üçüncü Sessiyasının əsas mövzusu və ideyaları barədə ətraflı məlumat təqdim olunub.

AZƏRTAC xəbər verir ki, ölkə ictimaiyyətinin WUF13 haqqında məlumatlandırılması məqsədilə təşkil olunan festivalın axşam proqramı Qubadakı Nizami parkında davam edib.

Axşam proqramı çərçivəsində interaktiv fəaliyyətlər, maarifləndirici oyunlar, təqdimatlar və ictimai müzakirələr vasitəsilə dayanıqlı şəhər inkişafı, inklüziv şəhər mühiti, innovativ şəhər həlləri və gələcəyin şəhərləri kimi mövzular geniş auditoriyaya çatdırılıb.

WUF13 Festivalı Qubadan sonra ölkəmizin digər regionlarında, o cümlədən Sumqayıt və Bakı şəhərlərində də təşkil olunacaq.

1923 Azərbaycanın özü qədər əbədi 2026

# Heydər Əliyev siyasətinin təntənəsi

Tarixi təcrübə göstərir ki, hər bir xalqın taleyində mühüm dönüş nöqtələri - həlledici anlar və məqamlar var. Çoxəsrlik dövlətçilik tarixinə, zəngin milli-mənəvi dəyərlərə, ləyaqətli inkişaf yoluna malik olan Azərbaycan xalqı da bu baxımdan istisna deyil. Azərbaycan xalqının taleyində həlledici dönüş məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, qətiyyətli siyasi iradəsi və uzaqgörənliyi Azərbaycan xalqının və dövlətinin tarixində özünəməxsus yer tutan ölkəmizin gerçək müstəqilliyinin qorunub saxlanılmasını təmin etdi. İnkaredilməz reallıqdır ki, ictimai-siyasi sabitliyin yaranmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

Dahi siyasətçi həm keçmiş SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılmasında, respublikamızın tərəqqisinin təmin olunmasında və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görüb. Keçmiş SSRİ-nin tabeliyində olan Azərbaycan 1969-cu ilədək ciddi tənəzzül meyilləri ilə qarşı-qarşıya idi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçiləndən sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin edən strateji amil oldu. Milli şüurun inkişafı, müstəqilliyə gedən yolun başlanğıcı məhz bu dövrdən başlanır. 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması isə peşəkar milli hərbçilərimizin yetişməsində mühüm rol oynadı. Heydər Əliyevin bu uzaqgörən qərarı gələcəyə hesablanmışdı və müstəqil Azərbaycanın ordu quruculuğunda həmin lisey mühüm ciddi faktor oldu. Yeri gəlmişkən, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə vuruşan Azərbaycan zabitlərinin 70 faizdən çoxu həmin liseyin yetirmələridir. 1978-ci ildə isə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ittifaq respublikaları arasında ilk olaraq məhz Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bundan başqa, "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Siyasi-ideoloji müstəvidə görülən bütün işlər milli inkişaf və həmrəyliyimizin təmin olunması baxımından tarixi əhəmiyyət daşıyırdı.

Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs edərkən onun fəaliyyətinin Naxçıvan dövrünə də nəzər salmaq lazımdır. Çünki həmin dövrün prosesləri və reallıqları Azərbaycanın siyasi tarixinin mühüm səhifələrindən birini təşkil edir. Bəllidir ki, 1990-cı ildə Azərbaycan mürəkkəb situasiya qarşısında olduğu zaman muxtar respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun acınacaqlı hal alması, mərkəzi hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. 1991-ci ilin sentyabr ayında Ulu Öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Məclisinin sədri seçilməsindən sonra muxtar respublikada sabitlik təmin edildi, sosial və iqtisadi durum yaxşılaşdırıldı. Muxtar respublikanın ərazisinin düşmənin işğalı altına düşməsinin qarşısı alındı. Bundan başqa, milli dövlətçilik ənənələrinin bərpası istiqamətində ardıcıl və məqsədyönlü işlər görüldü. Muxtar respublikada dövlət rəmzləri bərpa edildi, milliləşdirmə siyasəti davam etdirildi. 17 noyabr 1990-cı ildə Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "sovet" və "sosialist" sözləri çıxarıldı, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və sovet ordusu Naxçıvan MR ərazisindən çıxarıldı. "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə qərarlar qəbul edildi. Ulu Öndər Naxçıvanda çalışarkən o zaman hakimiyyətdə olan AXC-Müsavat cütlüyü Heydər Əliyevi devirməyə cəhd etsə də, insanların ona olan sevgisi və inamı belə cəhdlərin qarşısını qətiyyətlə aldı.

1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu durumun daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Yeni Azərbaycan Partiyasının yaradılması və milli inkişafa xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfəsini verməsi Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindəndir. Yeni Azərbaycan Partiyası təşkilatlanaraq öz fəaliyyətini davam etdirdi və qısa zaman kəsiyində xalqın etimadını qazandı. 1993-cü ildə xalqın dəstəyi ilə Ulu Öndər hakimiyyətə gəldi. YAP hakim partiyaya cevrildi.

Bu proseslər kontekstində daha bir məqama nəzər salmaq vacibdir. Belə ki, 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslər aradan qaldırıldı. Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. Beləliklə, Dahi Lider Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı. Ulu Öndər illər sonra o günləri belə xatırlayırdı: "Eşidəndə ki, mənim doğma Vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, burada nələr etmişik və bu, dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm". 1993-cü ildə keçirilmiş prezident seçkilərində 98,84 faiz səslə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.



Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtması Azərbaycanın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Ən əsası, uğurlu dövlət quruculuğu prosesinin əsası qoyuldu. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusi əhəmiyyətə malikdir.

Dövlət quruculuğu prosesi fonunda müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları təmin edildi. Bununla yanaşı, məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar da xüsusi vurğulanmalıdır. Digər tərəfdən, ölkəmizdə milli həmrəyliyi yarada biləcək ideologiya yalnız 1993-cü ildən sonra müəyyənləşdirildi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən mühüm faktor oldu. Bir sözlə, Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi. Praqmatik xarici siyasət nəticəsində Azərbaycan nüfuzlu dövlətə çevrildi, ölkəmizin dostlarının və tərəfdaşlarının sayı artdı.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini, ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin formalaşmasını da təmin etdi. Ulu Öndərin həyata keçirdiyi praqmatik xarici siyasət kursunun mühüm istiqamətlərindən birini enerji resurslarından səmərəli istifadə olunması və bu kontekstdə Azərbaycanın etibarlı strateji tərəfdaşa çevrilməsi təşkil edirdi. İlk növbədə 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 13 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın iqtisadi müstəqilliyinin və dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu. Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində imzalanmış "Əsrin müqaviləsi"ndən başlanan enerji siyasəti Azərbaycanın regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatına müstəsna töhfələr bəxş etməsini şərtləndirməklə yanaşı, ölkəmizin gücünü və nüfuzunu artıran faktor kimi çıxış etdi. Bundan sonra milli maraqlarımıza müvafiq enerji layihələri gerçəkləşdirildi və bütün bunlar Azərbaycanın etibarlı strateji tərəfdaş kimi ikitərəfli və çoxtərəfli xarici əlaqələrinin səmərəlilik səviyyəsini artırdı. Ölkəmiz miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli strateji layihələrin mərkəzi oyunçusuna çevrildi. Eyni zamanda Heydər Əliyevin əsasını qoyduğu uğurlu xarici siyasət sayəsində Azərbaycan qısa zaman kəsiyində regionun güclü və nüfuzlu aktoruna çevrildi, qlobal miqyasda milli dövlətlərin etibarlı strateji tərəfdaşı kimi qəbul edildi. Bütün bu nailiyyətlər torpaqlarımızın beşdəbirinin işğal altında və bir milyondan çox vətəndaşımızın qaçqın və məcburi köçkün olduğu bir şəraitdə qazanıldı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional xarici siyasət strategiyasının mühüm prioritetlərindən birini də Ermənistan-Azərbaycan Qarabağ probleminin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması təşkil edirdi. Məhz Heydər Əliyevin əhəmiyyətli səyləri və gərgin əməyi sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmağa başlandı. Problemin ATƏT çərçivəsində həll edilməsi üçün təşkil edilən Minsk qrupunda, həmçinin qurumun bir sıra zirvə toplantılarında məsələnin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdıran Heydər Əliyev dünya dövlətlərini münaqişəyə yanaşmada diqqətli olmağa və məsələnin tezliklə beynəlxalq hüquq normalarına müvafiq surətdə həll edilməsi işində yaxından iştiraka dəvət etdi. Heydər Əliyevin əsasını qoyduğu praqmatik, çoxvektorlu və rasional xarici siyasət kursu ölkəmizin dostlarının və tərəfdaşlarının sayını artırdı, Azərbaycan nüfuzlu dövlətə çevrildi. Milli mənafelərin təmininə hesablanmış bu məqsədyönlü siyasət coğrafi ölçüləri baxımından kiçik Azərbaycanın dünyanın siyasi xəritəsində güclü dövlətlərlə müqayisəsinə şərait yaratdı.

Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən yaradıcı surətdə uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və dinamik inkişafa nail oldu. Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi həkk edilib. Dövlət başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunub. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyinə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib.

Hazırda Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan ölkə kimi tanınır. Təbii ki, bu inkişafın və sabitliyin əsasında uğurla reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların davamlı şəkildə həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin təmini və davamlı olması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Digər tərəfdən, çoxşaxəli, tarazlaşdırılmış, milli maraqlara əsaslanan xarici siyasət kursuna malik olan Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara müvafiq surətdə reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb.

Ən mühüm məqam isə budur ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən Prezident, Ali Baş Komandan İlham Əliyevin ötən illər ərzində bütün müstəvilərdə, o cümlədən iqtisadi inkişaf, ordu quruculuğu, diplomatiya və digər sahələrdə əldə etdiyi uğurlar onun rəhbərliyi ilə müzəffər ordumuzun yaratdığı və yazdığı qələbə salnaməsinin əsasını qoydu. 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi və 24 saatlıq antiterror tədbirləri ilə ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu. Son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan azad edən Müzəffər Sərkərdə oldu. Bu, həm də cənab İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsi demək idi. Artıq Ulu Öndərin ruhu şaddır, çünki onun ən böyük arzusu həyata keçib - Vətən torpaqlarımız erməni işğalından azad edilib, dövlət suverenliyimiz tam bərpa olunub. Hazırda azad olunan torpaqlarda əsl sahibləri tərəfindən sürətli quruculuq və bərpa işləri həyata keçirilir, məcburi köçkünlər öz yurd yerlərində məskunlaşırlar.

Əldə olunmuş qələbə təkcə Azərbaycanın deyil, bütün bölgənin inkişafı üçün yeni imkanlar açdı. Cənubi Qafqazda əsrlərdən sonra sülhün, əməkdaşlığın və təhlükəsizliyin bərqərar olunmasının bünövrəsi qoyuldu. Ulu Öndərin həyata keçirdiyi siyasətin ən mühüm istiqamətlərindən biri də məhz sülh və sabitliyin təmin olunması idi. O, daim vurğulayırdı ki, Azərbaycan sülhpərvər dövlətdir və regionda davamlı sülhün təmin edilməsi əsas prioritetlərdəndir. "Biz dünyada sülh istəyirik, Qafqazda sülh istəyirik, bölgəmizdə sülh istəyirik, ölkəmizdə sülh istəyirik və buna nail olmağa çalışırıq" fikri onun siyasi xəttinin əsas mahiyyətini ifadə edir.

*Bu gün həmin siyasət uğurla davam etdirilir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycanın milli maraqları ən yüksək səviyyədə təmin edilir. Artıq qüdrətli Azərbaycan, Qalib xalqın Qalib Lideri, Zəfər salnaməsinin müəllifi ən yüksək kürsülərdən dünya ictimaiyyətinə tarixi ədaləti və beynəlxalq hüququ savaş meydanında bərpa edərək sülhun əldə olunması təcrübəsini bölüşür. Bu, Heydər Əliyev siyasətinin təntənəsidir.*

**Sevinc HÜSEYNOVA,**
**Milli Məclisin deputatı,**
**YAP Təftiş Komissiyasının sədri**

# Liderlik nümunəsi

**Zaman sürətlə keçsə də, nəsillər dəyişsə də doğum gününü böyük coşqu, sevgi və dərin qədirbilənlik hissi ilə yad etdiyimiz Heydər Əliyevə olan ümumxalq məhəbbəti heç vaxt tükənməyəcək. Xalqımız yaşadıqca onun adı və əziz xatirəsi qəlblərimizdə əbədi yaşayacaq. Əgər xalqın içindən bir dahi çıxırsa, deməli, o xalqın yüksəlişə çatmaq potensialı var. Belə şəxsiyyətlər yalnız özləri üçün yaşamırlar, onların əsas məqsədi xalqa xidmət etmək olur və onlar başladığı heç bir işi yarımçıq qoymurlar. Tarix sübut edib ki, dönüş nöqtələri çox vaxt dahilərin adı ilə bağlı olur və onların hadisələrin mərkəzində olması milli xoşbəxtliyə gətirib çıxarır. Xalqımızın böyük oğlu Heydər Əliyev də belə şəxsiyyətlərdən idi və onun fəaliyyəti Azərbaycanın inkişafı və dövlətçiliyinin möhkəmlənməsinə xidmət etmişdir.**

Ulu Öndərin həyat yolu bütün dünyaya göstərdi ki, liderlik və böyüklük təkcə idarəçilik deyil, daha çox qurmaq və yaratmaq bacarığıdır. Dahi azərbaycanlı Heydər Əliyev xalqın tələbi ilə məhz ölkənin ən ağır dövründə hakimiyyətə qayıtdı. Həmin vaxt ölkədə siyasi anarxiya, hərc-mərclik, ziddiyyətli qərarlar və dərin sosial problemlər geniş narazılıq yaratmış, vətəndaş müharibəsi təhlükəsini qaçılmaz həddə çatdırmışdı. Hərbi qruplaşmaların milli maraqlarımıza deyil, ayrı-ayrı qüvvələrə xidmət etməsi nəticəsində torpaqlarımız işğal olunur, ölkə isə iflic vəziyyətinə düşmüşdü. Müstəqilliyin itirilməsi real təhlükəyə çevrildiyi bir zamanda Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəyə nəfəs verdi.

İlk növbədə sabitliyi bərpa edən Ümummilli Lider qısa müddətdə atılan qətiyyətli addımlarla müstəqilliyimizin qorunmasına və ölkənin gələcək inkişafı üçün möhkəm təməllərin formalaşmasına şərait yaratdı və Azərbaycanın inkişaf istiqamətlərini müəyyənləşdirdi. İqtisadi sabitliyin təmin olunması, hüquqi dövlət quruculuğu və milli birliyin möhkəmləndirilməsi Ulu Öndərin fəaliyyətinin əsas prioritetlərinə çevrildi. Düzgün strategiya və uzaqgörən qərarlar nəticəsində ölkəmiz qısa müddətdə böhrandan çıxaraq inkişaf yoluna qədəm qoydu.

Heydər Əliyevin iradəsi ilə ölkəmizdə dövlət quruculuğu prosesinə başlanıldı. Ozamankı iqtidarın uğursuz daxili və xarici siyasət kursu köklü şəkildə dəyişdirilərək müasir və güclü dövlətin formalaşdırılması istiqamətində mühüm addımlar atıldı. Xarici siyasətdə mehriban qonşuluq prinsiplərinə sadiqlik qorundu, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xüsusi önəm verildi.

Eyni zamanda ordu quruculuğu prosesi sürətləndirildi, ayrı-ayrı silahlı birləşmələr ləğv edilərək vahid komandanlıq sistemi yaradıldı. Dünya standartlarına uyğun, peşəkar və müasir Azərbaycan Ordusunun formalaşdırılması istiqamətində ciddi islahatlar həyata keçirildi. Xarici və daxili düşmənləri məyus edərək müstəqil Azərbaycanı ayağa qaldıran Ulu Öndər ölkənin əsas qanunu olan Konstitusiyanın qəbul olunmasını təmin etdi. Qurtuluşçu lider kimi xalqın mənafeyinə yönəlmiş mühüm qərarlar qəbul edərək qısa müddətdə ümumxalq sevgisini qazandı və xalqın fenomeninə çevrildi. Eyni zamanda ölkədə dərin iqtisadi tənəzzülün aradan qaldırılması və dövlət institutlarının möhkəmləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü islahatlar həyata keçirildi. Demokratik dəyərlərin inkişafı, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm addımlar atıldı. Bunun nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu sürətlə artdı və ölkə etibarlı tərəfdaş kimi tanınmağa başladı.

Bunun ardınca Azərbaycan tarixində mühüm dönüş nöqtələrindən biri baş verdi. Bütün çətinliklərə və təzyiqlərə baxmayaraq, Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində "Əsrin müqaviləsi" imzalandı. 1994-cü il 20 sentyabr tarixində Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi ilə bağlı dünyanın aparıcı 13 neft şirkəti ilə razılaşma əldə olundu. Bu müqavilə bütövlükdə ölkənin gələcək inkişaf kursunun müəyyənləşməsində həlledici rol oynadı. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın iqtisadi müstəqilliyini gücləndirdi, ölkəyə iri həcmdə xarici sərmayələrin cəlb olunmasına şərait yaratdı və beynəlxalq iqtisadi sistemdə mövqelərini daha da möhkəmləndirdi. Azərbaycan öz təbii sərvətlərinə sahib çıxmaqla yanaşı, onları milli maraqlara xidmət edən strateji amilə çevirdi və bununla da iqtisadi müstəqilliyini real məzmunla möhkəmləndirdi. Bu reallıq Heydər Əliyevin dövlətçilik kursunun ən mühüm nəticələrindən biri kimi tarixə qovuşdu. Onun rəhbərliyi ilə həyata keçirilən neft strategiyası təkcə iqtisadi gəlir mənbəyi yaratmadı, həm də Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirdi, ölkəni beynəlxalq investisiya mühitində etibarlı tərəfdaş kimi tanıtdı. Bu proses dövlətin uzunmüddətli inkişaf modelinin formalaşmasına zəmin yaratdı. Eyni zamanda bu siyasət nəticəsində Azərbaycanın siyasi dayanıqlığı daha da gücləndi, ölkənin müstəqilliyi iqtisadi əsaslarla möhkəmləndi və dövlət idarəçiliyində sabitlik təmin olundu. Regionların inkişafı, sosial infrastrukturun yenilənməsi və insan kapitalının gücləndirilməsi istiqamətində atılan addımlar ümumi tərəqqiyə təkan verdi. Beləliklə, Heydər Əliyevin dövlətçilik fəlsəfəsi Azərbaycanın müasir inkişaf tarixində dönüş nöqtəsi olmaqla yanaşı, milli inkişaf modelinin əsasını təşkil etdi və ölkənin gələcək strateji istiqamətlərini müəyyənləşdirdi.

Ümummilli Lider Heydər Əliyevin şərəfli ömür yolu və Vətən qarşısında göstərdiyi tarixi xidmətlər hər birimiz üçün örnək və yol xəritəsidir. Bu yol milli dövlətçiliyimizin formalaşmasında və qorunmasında həlledici mərhələ kimi tarixə düşdü. 20 Yanvar hadisələri zamanı xalqımız ağır sınaqla üz-üzə qaldığı bir dövrdə onun prinsipial mövqeyi və həqiqəti dünya ictimaiyyətinə çatdırması bir daha sübut etdi ki, Heydər Əliyev xalqın səsidir. Həmin faciəli günlərdə Azərbaycanın səsinin eşidilməsi informasiya blokadasının yarılmasında mühüm rol oynadı. O dövrdə Heydər Əliyev siyasi hakimiyyətdə olsaydı, xalqımız heç bir ağır faciə yaşamazdı. Bu mənada Heydər Əliyev Azərbaycan tarixində dövlətçilik təfəkkürünü formalaşdıran, sabitlik və inkişafı təmin edən böyük lider kimi müqəddəslik simvoludur.

Ulu Öndərin rəhbərliyi ilə müəyyənləşən siyasi xətt müstəqil Azərbaycanın inkişafı üçün möhkəm təməl olmuşdur. Bu gün də Heydər Əliyevin dövlətçilik irsi Azərbaycanın inkişaf strategiyasında mühüm istinad nöqtəsi olaraq qalır və siyasi məktəb kimi gələcək nəsillərə ötürülür.

Azərbaycan hazırda tarixinin ən qüdrətli dövrünü yaşayır, ölkələr içində ölkəmiz seçilir, adı ehtiramla çəkilir. Azərbaycan Avropanın enerji xəritəsində mühüm rol oynayır. Bakı qlobal problemlərin həll olunduğu sabit məkandır. İşğal altında olan torpaqlarımızda bayrağımız dalğalanır. Bölgənin lider ölkəsi olan Azərbaycanın təşəbbüsləri dünyada qəbul olunur, fikirləri əsas götürülür. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın iştirakı olmadan Cənubi Qafqazda heç bir layihə həyata keçirilə bilməz. Çünki mədəni müxtəlifliyin, tolerantlığın ünvanı olan ölkəmiz çox güclüdür. Bu dövləti, bu ölkəni isə Heydər Əliyev qurdu. Ümummmilli Lider çökmüş, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmış, vətəndaş müharibəsinin astanasında olan, dağıdılmış bir məmləkət üzərində güclü Azərbaycan quraraq onu öz strategiyası ilə yaşatmağı və inkişaf etdirməyi bizə miras qoydu. Məhz bu üstün keyfiyyətlərinə görə, Heydər Əliyev xalq qarşısında fövqəlxidmətlər göstərərək əbədiyyət qazanmış bənzərsiz siyasətçidir. Tarixdə heç bir lider Heydər Əliyev qədər xalqı üçün fayda verməyib. Qürurla qeyd edək ki, Heydər Əliyev dünya üçün liderlik nümunəsidir.

*Onun xalqı xilas missiyası yalnız qurtuluşçu rəhbər obrazı formalaşdırmaqla kifayətlənmədi, həm də bütövlükdə dünya siyasi tarixi üçün mükəmməl bir lider örnəyi yaratdı. Heydər Əliyev özünəqədərki ənənəvi lider və siyasətçi stereotipini dağıtmaqla yanaşı, tarix var olduqca alternativi olmayan xalq sevgisi və mükəmməl siyasi gedişlərə imza atdı. Bu böyüklüyün adı Heydər Əliyev oldu.*

**Amin İSMAYILOV,**
**YAP İdarə Heyətinin üzvü,**
**AMEA-nın müxbir üzvü, professor**



# Azərbaycanın sülh strategiyasının alternativi yoxdur

## Prezident İlham Əliyevin iradəsi və prinsipiallığı sayəsində Ermənistan birbaşa dialoqa cəlb olundu

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi rəsmi dövlət strukturları səviyyəsində birbaşa dialoq müstəvisində də irəliləyir. Uzunmüddətli münaqişə və hərbi qarşıdurmanın tədricən institusional əməkdaşlıqla əvəzlənməsi regionda dayanıqlı sülhün və yeni təhlükəsizlik arxitekturasının təşəkkülü yolunda həlledici mərhələ hesab olunur.

Tərəflər arasında təmaslar vətəndaş cəmiyyəti nümayəndələrinin ilkin etimad quruculuğu tədbirləri ilə başlayıb. Azərbaycan və Ermənistan qeyri-hökumət təşkilatlarının nümayəndələrinin birbaşa dialoqunu təmin edən "Sülh körpüsü" təşəbbüsü çərçivəsində indiyədək 4 görüş keçirilib. 2025-ci ilin oktyabr ayında başlayan təmaslarda konkret layihələr və cəmiyyətlərin sülhə hazırlanması mexanizmləri müzakirə olunub. QHT nümayəndələri ilə yanaşı, media təmsilçiləri və ekspertlərin də iştirak etdiyi görüşlərdə ən mühüm məqam bu şəxslərin ilk dəfə sərhədin delimitasiya olunmuş sahəsindən qarşı tərəfə keçmələri idi.

Vətəndaş cəmiyyəti səviyyəsində həyata keçirilən humanitar təmasların ardından rəsmi qurumların birbaşa dialoqu da yeni mərhələyə qədəm qoyub. Aprelin 29-da Ermənistanda Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə tərəflər arasında dövlət sərhədinin delimitasiya və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların on üçüncü iclası keçirilib. Görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar. Tərəflər sərhədin delimitasiyası üzrə ekspertlərin iş qaydasını, xəritələrin hazırlanmasını və sənədlərin tərtibatını tənzimləyən təlimatlarını razılaşdıraraq öz hökumətlərinə müraciət etmək barədə razılığa gəliblər. İclasın yekunlarına dair müvafiq protokol imzalanıbdır. Eyni zamanda rəsmilər komissiyaların növbəti iclasının Azərbaycanda keçirilməsi barədə razılıq əldə ediblər. Həmçinin qeyd olunub ki, Azərbaycan ərazisi ilə Ermənistana yüklərin tranziti uğurla həyata keçirilir. O da vurğulanıb ki, Azərbaycanın Ermənistana neft məhsulları tədarük etməsi iki ölkə arasında iqtisadi-ticari əlaqələrin formalaşmasının göstəricisidir.

Azərbaycan nümayəndə heyətinin Ermənistana səfəri tərəflər arasında işçi etimadın yarandığını göstərir. Bakı və İrəvanın münaqişə və qarşıdurma mərhələsini geridə qoyaraq birbaşa dialoqa üstünlük verməsi dayanıqlı sülh və regional inteqrasiya modelinə sadiqliyin nümunəsidir. İmzalanan protokollar da sülhün nəzəriyyədən reallığa çevrilməsidir. Ümumən, siyasi iradənin iqtisadi maraqlarla, ictimai diplomatiyanın rəsmi təmaslarla kəsişməsi Cənubi Qafqazda tamamilə yeni səhifənin açılması, normallaşma prosesinin dönməz xarakter almasıdır.

Diqqətçəkən məqam Azərbaycan rəsmilərinin münaqişə dövründən sonra Ermənistana ilk dəfə səfər etməsidir. Xatırladaq ki, ötən il noyabrın 28-də Qəbələ şəhərində sərhəd komissiyalarının 12-ci görüşü keçirilmişdi. Adətən, bu tipli görüşlər sərhəd xəttində keçirilirdi. Növbəti 14-cü görüşün də yenidən Azərbaycanda keçirilməsi barədə razılıq bu formatın sabit ənənəyə çevriləcəyinə işarədir.

Müzakirələrdə razılaşdırılan üç məsələ delimitasiya prosesinin təməlini təşkil edir. Bu sənədlərin razılaşdırılması o deməkdir ki, tərəflər artıq hansı xəritələrdən istifadə olunacağı, hansı miqyasın əsas götürüləcəyi və sərhəd xəttinin demarkasiyası barədə vahid metodologiyaya sahibdirlər. Ekspert qruplarının iş qaydasının müəyyənləşməsi siyasətçilərin ümumi çərçivəni cızaraq meydanı mütəxəssislərə verdiklərini, razılaşmaların rəsmi-hüquqi öhdəlik xarakteri daşıdığını təsdiqləyir. Qarşıdakı dönəmdə texniki sənədlərin daxili qanunvericilik səviyyəsində təsdiqlənəcəyi və icrasına başlanılacağı gözlənilir. Sərhəd xətti dəqiqləşdikcə, qoşunların təmas nöqtələrindən uzaqlaşması və sərhəd xidməti ilə əvəzlənməsi prosesi sürətlənəcək.

Görüşdə tranzit daşımaları və neft məhsulları tədarükü kimi məsələlərin ön plana çıxması rəsmi səfərlərin iqtisadi inteqrasiya məqsədi güddüyünün təzahürüdür. Tərəflərin vurğuladığı kimi, Azərbaycanın Ermənistana neft məhsulları tədarük etməsi tarixi hadisədir. İrəvanın Azərbaycan yanacağına ehtiyac duyması Ermənistanın iqtisadi asılılığını təmin edir ki, bu da gələcəkdə hərbi gərginlik riskini azaldan ən güclü faktorlardan biridir. Ermənistan üçün Azərbaycan yanacağı logistik baxımdan daha ucuz və əlçatandır, Azərbaycan üçün isə yeni ixrac bazarıdır. İş adamlarının iqtisadi təmaslara cəlb olunması prosesin "biznes diplomatiyası" mərhələsinə keçdiyini ortaya qoyur. Bu, sülhün cəmiyyətlər tərəfindən qəbul edilməsini sürətləndirən effektiv vasitədir. Qısacası, vətəndaş cəmiyyətinin açdığı cığırla dövlət rəsmiləri irəliləyir və prosesi hüquqi-iqtisadi öhdəliklərə çevirirlər.

Hazırkı prosesin bu nöqtəyə gəlib çıxması, Ermənistanın destruktiv ritorikadan uzaqlaşaraq konstruktiv masa arxasına əyləşməsi birbaşa Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi strateji kursun və qətiyyətli siyasi iradənin nəticəsidir. Dövlətimizin başçısının ən böyük uğurlarından biri hərbi zəfərimizi diplomatik müstəvidə qəbul və davam etdirməsidir. Azərbaycan lideri postmünaqişə dövründə yeni reallıqları, sadəcə, bəyan etmədi, həm də beynəlxalq birliyin və Ermənistanın bu reallıqlarla hesablaşmasını təmin edən bir yol xəritəsi cızdı. Prezident İlham Əliyev hər zaman sülhün kənar paytaxtlarda deyil, bilavasitə tərəflər arasında əldə olunmalı olduğunu vurğulayırdı. Məhz bu qətiyyətli və prinsipial mövqe nəticəsində İrəvan üçüncü tərəflərin vasitəçiliyindən imtina edərək Bakının cızdığı sülh yolu ilə getmək məcburiyyətində qaldı.

İrəvanın prosesə sövq edilməsi Azərbaycanın məqsədyönlü təzyiq və konstruktiv təklif balansını mükəmməl şəkildə idarə etməsinin məntiqi yekunudur. Diplomatiyamızın ən böyük qələbələrindən biri budur. Bakının diplomatik zəfəri hərbi qələbənin siyasi və iqtisadi müstəvidəki məntiqi davamı kimi regionda yeni, sabit və təhlükəsiz bir dövrün rəsmən başladığını təsdiq edir.

Prezident İlham Əliyevin sülh gündəliyinə verdiyi dəstək həm də iqtisadi praqmatizmə əsaslanır. Neft məhsullarının tədarükü və tranzit yollarının açılması kimi məsələlər "iqtisadiyyat sülhün ən güclü zəmanətidir" fəlsəfəsinin təzahürüdür. Bu, Ermənistan cəmiyyətinə və rəhbərliyinə sülhün gətirəcəyi real dividendləri göstərən ən təsirli vasitədir.

Nəticə etibarı ilə Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan bölgədə siyasi-iqtisadi, hərbi-diplomatik və mənəvi üstünlüyünü qoruyur. Bu üstünlük Cənubi Qafqazın gələcək sülh memarlığının təməlini təşkil edir və regionun uzunmüddətli tərəqqisinə yol açır.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Sülh müharibədən daha yaxşıdır

## Azərbaycan nümayəndə heyətinin Ermənistana səfəri barışa xidmət edən növbəti mühüm hadisədir

Aprelin 29-da baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Ermənistana səfər edib. Bu, unikal bir səfərdir, çünki indiyədək Azərbaycanın hökumət nümayəndələrinin bu səviyyədə Ermənistana səfərləri baş tutmamışdı. Bundan əvvəl 2025-ci ilin noyabrında Ermənistan Baş nazirinin müavini Mher Qriqoryan Azərbaycana səfər etmişdi ki, bu da öz növbəsində unikal hadisə idi. Həmin vaxt Qəbələdə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyanın 12-ci iclası keçirilmişdi. Xatırladaq ki, hər iki baş nazir müavini Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasına rəhbərlik edir. Ş.Mustafayevin İrəvana səfəri də məhz sərhədlərin delimitasiyası mövzusuna həsr olunub.



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, bu cür səfər və görüşlər, konkret əməli fəaliyyətlər iki ölkə və xalq arasında sülhün bərqərar olunması yolunda atılan praktiki addımlardır: "Bu xüsusda hər iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərin və mühüm məsələlərin müzakirəsi üçün görüşlər təşkil etdiyi "Sülh körpüsü" təşəbbüsünü də qeyd etmək lazımdır. Bununla belə, əgər "Sülh körpüsü" təşəbbüsü humanitar ölçülü, praktiki əhəmiyyəti zamanla üzə çıxacaq bir layihədirsə, baş nazir müavinlərinin və nümayəndə heyətlərinin görüşləri sırf tətbiqi xarakter daşıyır. Hələ 2022-ci ilin mayında Şahin Mustafayevin və Mher Qriqoryanın rəhbərliyi ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası formalaşdırılmışdı və həmin il mayın 24-də iki ölkənin sərhədində bu komissiyanın ilk görüşü keçirilmişdi. 2024-cü il aprelin 23-də isə iki ölkə arasındakı sərhəddə, ərazidəki geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində ilk sərhəd dirəyi quraşdırılmışdı".

Deputat qeyd edib ki, hazırda sərhədlərin delimitasiyası və demarkasiyası məsələləri ilə yanaşı, iki ölkə arasında nəqliyyat qovşaqları, TRIPP layihəsi, elektrik ötürücü xətləri və perspektivdə mümkün qaz marşrutları müzakirə olunur. Azərbaycan Ermənistanın enerji təhlükəsizliyinə öz töhfəsini verir - ənənəvi ixracatçılar olan İran və Rusiyadan qaz tədarükündə gözlənilən çətinliklər fonunda bu məsələ getdikcə daha aktual xarakter alır. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan və Ermənistan sülh quruculuğu ilə məşğul olduğu, onilliklər boyu davam edən münaqişədən sonra qarşılıqlı etimad və əməkdaşlıq yollarını aradığı bir vaxtda Avropadakı bəzi dairələr sülh gündəliyinə zidd addımlar atırlar. Artıq ikinci həftədir ki, biz "Qoca qitə" tərəfindən həyata keçirilən anti-Azərbaycan təşəbbüslərinin şahidi oluruq. Belə ki, Belçika və Niderland parlamentləri Bakıya qarşı əsassız ittihamlar səsləndirir, o cümlədən Azərbaycanın Qarabağ bölgəsi üzərindəki suverenliyini şübhə altına alan bəndlərin yer aldığı açıq-aşkar düşmənçilik xarakterli təşəbbüslərlə çıxış ediblər. "Daha sonra Avropa Parlamentinə "Ermənistanın demokratik dayanıqlılığının dəstəklənməsi" adlı qətnamə layihəsi təqdim olunub. Müttəfiqə yardım proqramı kimi qələmə verilən bu "sənəd" mahiyyət etibarilə Bakı və İrəvan arasındakı sülh prosesinə qarşı hibrid təzyiq aktı rolunu oynayır. Burada Robert Köçəryan, Samvel Karapetyan və digər revanşistlərin simasında Ermənistan müxalifətinin istifadə etdiyi eyni narrativlərdən - ermənilərin Qarabağdan guya məcburi köçürülməsi, "Qarabağdakı erməni irsinin məhv edilməsi", "erməni girovların saxlanılması", hətta gülünc görünsə də, guya Ermənistanla sülh müqaviləsinin imzalanmasına maneçilik törədilməsi barədə iddialardan istifadə olunur", - deyə o əlavə edib.

K.Bayramov bildirib ki, Avropanın müəyyən siyasi dairələrinin bu hərəkətləri, əslində, Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması və revanşist ritorikadan imtina yolunu seçmiş Ermənistanın maraqlarına ziddir. Bu, həmin dairələrin Ermənistanın öz maraqlarına laqeyd qaldığının, bu ölkə və xalqdan sadəcə öz anti-Azərbaycan fəaliyyətlərini pərdələmək və geosiyasi məqsədlərini güdmək üçün sipər kimi istifadə etdiklərinin sübutudur. Bu gün böyük əminliklə demək olar ki, dünya erməniliyinin iki müstəvisi mövcuddur. Onlardan biri müxtəlif ölkələrin siyasi mərkəzləri tərəfindən dəstəklənən erməni diasporu ilə bağlıdır. Ermənistan reallıqlarından uzaq yaşayan bu qüvvələr sülh prosesinə düşmən kəsiliblər və Azərbaycana qarşı ərazi iddiaları siyasətinin dirçəldilməsinin tərəfdarıdırlar.

Dünya erməniliyinin digər qrupunun bilavasitə Ermənistana aid olduğunu deyən deputat vurğulayıb ki, burada daha mürəkkəb prosesin şahidi oluruq: "Bəli, erməni cəmiyyətinin bir hissəsində revanşist ideyalar hələ də qalmaqdadır, lakin bununla yanaşı, Paşinyan hökumətinin qonşularla sülhə və ərazi iddialarından imtinaya yönəlmiş siyasətinə cəmiyyətdə aşkar bir tələbat da hiss olunur. Biz bu hökumətlə, həm də erməni cəmiyyətinin bu hissəsi ilə işləyirik. Bu əməkdaşlıq göstərməlidir ki, Azərbaycanla sülh müharibədən daha yaxşıdır. Şahin Mustafayevin səfəri isə bu çətin yolda növbəti bir mərhələ oldu".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Din adı altında sülh təhdid olunur

## İslamofob Ümumdünya Kilsələr Şurası erməni kilsəsinin revanşist ideyalarının əsirinə çevrilib

Azərbaycan min illik multikultural və tolerantlıq ənənələrinə malik ölkə olaraq bu gün də bütün dinlərə, konfessiyalara dözümlü yanaşması ilə dünyada unikal nümunədir. Lakin bu gerçəyi görməzdən gələn Ümumdünya Kilsələr Şurasının (ÜKŞ) ölkəmizə qarşı birtərəfli və qərəzli mövqe nümayiş etdirməsinin şahidi oluruq.

ÜKŞ-nin son dövrlərdəki fəaliyyəti və bəyanatları, bu qurumun erməni kilsəsinin revanşist ideyalarının əsirinə çevrildiyini göstərir. Ölkəmizə qarşı davamlı olaraq qərəz nümayiş etdirən ÜKŞ bu il 23 aprel tarixli bəyanatında da bölgədə baş vermiş son hadisələri ciddi şəkildə təhrif edərək analoji anti-Azərbaycan ritorikasını davam etdirib. Bu bəyanatla adıçəkilən qurum təkcə islamofob xətt tutduğunu deyil, həm də bölgədə məhz Azərbaycanın səyləri ilə bərqərar olan sülhü açıq hədəf aldığını ortaya qoyur.

### İşğal dövründə Azərbaycanın tarixi, dini, mədəni irsi soyqırımına məruz qalıb

ABŞ Dövlət Departamentinin dünyada dini etiqad azadlığının vəziyyəti ilə bağlı 2021-ci il üçün illik hesabatında göstərilib ki, Azərbaycanda Rus pravoslav kilsəsi, Gürcü pravoslav kilsəsi, Erməni apostol kilsəsi, Yeddinci günün adventistləri, Molokan kilsəsi, Roma katolik kilsəsi, yevangelistlər, baptistlər və Yehovanın şahidləri, yəhudilərin və bəhailərin sinaqoqları, məbədləri və digər dini evləri fəaliyyət göstərir. Həmçinin eyni sənəd Ermənistanın işğal dövründə törətdiyi vandalizmi də ifşa edir. Qeyd olunur ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmiş diplomatların, vətəndaş cəmiyyəti nümayəndələrinin və jurnalistlərin sözlərinə görə, Ermənistanın nəzarəti altında olarkən bu ərazilərdə yüzlərlə abidələr, o cümlədən etnik azərbaycanlıların istifadə etdiyi məscidlər, ziyarətgahlar talan edilib, vandalizmə, təhqirlərə məruz qalıb və ya tamamilə dağıdılıb. Məsələn, Füzuli rayonundakı 19-cu əsrə aid olan Hacı Ələkbər məscidinin ermənilər tərəfindən dağıdılmasını, Ağdamdakı Cümə məscidinin üzərində erməni dilində qraffiti yazılmasını və mehrabının güllələnməsini qeyd etmək olar. Ağdam rayonundakı qəbiristanlıqlar, o cümlədən şəhərin Şəhidlər xiyabanı və İmarət Qərvənd qəbiristanlığının 18-ci əsrə aid müqəddəs və tarixi məqbərələri təhqir edilib, talan edilib və ya dağıdılıb.

Ümumiyyətlə, erməni barbarları mədəni irsimizə qənim kəsiliblər, tarixi Azərbaycan ərazisi olan İrəvan quberniyası ərazisində 300 məscidi Yer üzündən siliblər. 30 il ərzində işğalda saxladıqları Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan xalqına qarşı mədəni soyqırımı törədiblər. Həmin dövrdə bu ərazilərdəki islam mədəniyyətinə aid olan bütün məscidlər, abidələr dağıdılıb. Bu ərazilərdə olan alban məbədlərindən isə məkrli planlarını həyata keçirmək üçün istifadə ediblər. Bu abidələri özününküləşdirmək üçün tarixi faktları saxtalaşdırıblar. Araşdırmaçıların bildirdiyinə görə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində 200-ə yaxın alban məbədi, monastrı mövcuddur. Ermənilər işğal dövründə Qafqaz Albaniyasına məxsus irsi dağıdıblar və onların bir çoxunu dəyişdiriblər. Alban irsinin bölgənin tarixi baxımından əhəmiyyətini dərk edən ermənilər həm işğal illərində, həm də ondan əvvəl bu irsə sahib çıxmaq və elə bu yolla da Azərbaycan torpaqlarına iddialarını gücləndirmək üçün ciddi saxtakarlıqlara əl atıblar. Alban irsinə aid olan bir çox abidə mənimsənilib, həmçinin ermənilərin səyləri ilə beynəlxalq səviyyədə erməni irsi kimi tanınıb.

Bütün bu faktlara rəğmən Ümumdünya Kilsələr Şurası birtərəfli mövqeyini davam etdirərək Qarabağda heç zaman mövcud olmamış "erməni dini irsi"ndən bəhs edir. Bununla islamofob qurum hazırda bölgədə mövcud olan kövrək sülh mühitini pozmaq üçün nifaq toxumları səpir.

Hər kəs bilir ki, sonradan köçdükləri ərazilərin tarixini saxtalaşdırmaq, dini və digər abidələri məhv etmək, orada kilsə tikərək bir müddətdən sonra həmin yerin onlara məxsus olduğunu iddia etmək ermənilərin köhnə xəstəliyidir.

İşğal edilmiş ərazilərdə hər hansı tikintinin aparılması qeyri-qanuni sayılır və beynəlxalq hüquqla da qadağan olunur. Buna görə də ermənilərin işğal zamanı Qarabağ və Şərqi Zəngəzurda "kilsə" və sair adlar altında tikdikləri hərbi və digər obyektlər heç bir halda "Qarabağdakı erməni dini irsi" kimi təqdim edilə bilməz. Yumşaq ifadə etsək, bu gülüncdür. Ümumdünya Kilsələr Şurası kimi beynəlxalq din qurumunun bu cür böhtan xarakterli iddiaları isə həqiqətən dünya üçün faciəvi və ikrahdoğurucu haldır.

### ÜKŞ sülh prosesini pozan qızışdırıcı təbliğat aparır

Ümumdünya Kilsələr Şurasının bu ilin 23 aprelində verdiyi bəyanatda səsləndirdiyi anti-Azərbaycan fikirləri təşkilatın obyektivliyini itirdiyini bir daha sübut edir. Şeyxülislam Allahşükür Paşazadə qurumun baş katibi Jerri Pillaya ünvanladığı 29 aprel tarixli məktubunda bu qərəzli yanaşmanı kəskin tənqid edərək bildirib: "Təəssüf ki, bəyanatda ölkəmizə münasibətdə regionda baş vermiş son hadisələr ciddi şəkildə təhrif olunur və belə yanaşma sərgilənməsi qəbuledilməzdir. Təmaslarımız zamanı etiraf etmişdiniz ki, erməni kilsələri mütəmadi olaraq sizə təsir etməyə cəhd göstərir. Təəssüf ki, görünür bu cəhdlər öz "bəhrəsini" verməkdədir və ÜKŞ həqiqətə uyğun olmayan və sülh prosesini pozan qızışdırıcı təbliğatın aparılmasında və məsələyə süni şəkildə dini çalarlar gətirmək cəhdlərində alət kimi istifadə olunmaqdadır".

Şeyxülislam öz məktubunda beynəlxalq hüququn təməl prinsiplərini xatırladaraq vurğulayıb: "Azərbaycanın tarixi torpaqlarını erməni ərazisi kimi təqdim etmək beynəlxalq hüququn pozulması və tarixi reallıqlara məhəl qoymamaqdır... ...Ötən ilin avqust ayında Vaşinqton Sammiti zamanı Azərbaycanla Ermənistan arasında paraflanmış sülh sazişində birmənalı olaraq hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmət ifadə olunur. Buna baxmayaraq, erməni kilsəsi hər zaman olduğu kimi, Qarabağın Azərbaycanın suveren ərazisi olması faktını qəbul etmir, erməniləri işğalçılıq siyasətinə, aqressiv separatizmə və revanşizmə çağırır, bu da, öz növbəsində iki ölkə arasında sülh prosesinə ciddi maneələr yaradır".

ÜKŞ-nin ermənilərin Qarabağdan "zorla qovulması" barədə iddiaları tamamilə əsassızdır. BMT missiyaları da ərazidə heç bir mülki zorakılığın olmadığını rəsmən təsdiqləyib. Allahşükür Paşazadə məktubunda bu məqama toxunaraq qeyd edib ki, erməni əhali ərazini könüllü tərk edib və onlara qarşı heç bir təzyiq göstərilməyib.

Məktubda vurğulanan bu və digər məqamlar həm də iki ölkə arasındakı mədəni və mənəvi fərqi ortaya qoyan ən böyük faktlardır.

Məktubun sonunda Şeyxülislam Allahşükür Paşazadə ÜKŞ-ni siyasi təxribatlara uymamağa və obyektiv olmağa çağırıb: "Ümumdünya Kilsələr Şurası kimi nüfuzlu beynəlxalq dini qurumu regionla bağlı mövqelərini formalaşdırarkən balanslı, obyektiv və təsdiqlənmiş məlumatlara əsaslanmağa çağırırıq. Dini platformaların siyasiləşdirilməsi və selektiv yanaşmalar sülh və barışıq prosesinə töhfə vermir.

Ümid etmək istəyirəm ki, ÜKŞ keçmişdən qalan siyasi təxribatlara uymayaraq, erməni kilsəsinin ixtilafları qızışdırmaq cəhdlərinə ədalətli yanaşma nümayiş etdirəcək, bölgəmizdə davamlı sülhün bərqərar olmasına maneə olan cəhdlərə yol verməyəcəkdir".

Azərbaycan dövləti bu gün işğaldan azad olunmuş ərazilərdə həm islam, həm də xristian irsini (alban abidələri) bərpa edərək tarixi ədaləti yoluna qoyur. ÜKŞ-nin isə bu prosesə kölgə salmaq cəhdləri yalnız regionda sülhün əngəllənməsinə xidmət edən uğursuz addımdır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 30 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları (bundan sonra - dövlət qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət qurumları tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin (bundan sonra - tənzimləyici pilot layihə) həyata keçirilməsi ilə bağlı tələbləri və qaydaları tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **çıxış strategiyası** - tənzimləyici pilot layihənin dayandırılması zamanı həmin layihənin həyata keçirilməsinə təşəbbüs göstərən dövlət qurumu tərəfindən görüləcək tədbirləri ehtiva edən plan;

1.2.2. **istifadəçi** - tənzimləyici pilot layihə çərçivəsində tətbiq edilən rəqəmsal həllərdən və ya təşkil olunan elektron xidmətlərdən istifadə edən, habelə layihənin gedişatının və nəticələrinin qiymətləndirilməsi üçün rəy və təklifləri alınan hüquqi və ya fiziki şəxs;

1.2.3. **iştirakçı** - tənzimləyici pilot layihə çərçivəsində rəqəmsal həllin və ya elektron xidmətin formalaşdırılması, sınaqdan keçirilməsi və ya tətbiqi (göstərilməsi) prosesinə cəlb edilən aidiyyəti dövlət qurumu, digər hüquqi və ya fiziki şəxs (o cümlədən startapçı);

1.2.4. **rəqəmsal həll** - fəaliyyətin şəffaflığının, effektivliyinin, səmərəliliyinin artırılması, həmçinin göstərilən xidmətlərin keyfiyyətinin və istifadəçi məmnunluğunun yüksəldilməsi məqsədilə tətbiq edilən proqram təminatı və texnoloji avadanlığın məcmusu;

1.2.5. **tənzimləyici pilot layihə** - rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsinin, habelə elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyənləşdirilməsinin məhdud çərçivədə (ərazi, müddət, əməliyyatların sayı, həcmi, iştirakçıların və istifadəçilərin sayı (dairəsi) ilə bağlı və ya digər məhdudiyyətlər) Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - tənzimləyici orqan) tənzimləməsi ilə həyata keçirilməsinə imkan verən alət.

1.3. Bu Qaydalarda istifadə olunan digər anlayışlar"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Tənzimləyici pilot layihələrin həyata keçirilməsinin məqsədləri aşağıdakılardır:

1.4.1. dövlət qurumlarının səlahiyyətlərinin həyata keçirilməsinin, o cümlədən dövlət xidmətləri göstərilməsinin rəqəmsal texnologiyalar tətbiq edilməklə təşkili;

1.4.2. dövlət idarəetməsində səmərəliliyin, effektivliyin, şəffaflığın gücləndirilməsi, eləcə də dövlət xidmətlərinin keyfiyyətinin və vətəndaş məmnunluğunun yüksəldilməsi.

1.5. Dövlət qurumu tərəfindən eyni dövr ərzində iki və daha artıq tənzimləyici pilot layihə, habelə iki və daha çox dövlət qurumu tərəfindən, bu Qaydaların 2.1.3-cü yarımbəndinin tələbi nəzərə alınmaqla, eyni məsələ üzrə oxşar tənzimləyici pilot layihə həyata keçirilə bilər.

1.6. Bu Qaydalar Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarından irəli gələn tapşırıqların icrası ilə əlaqədar hazırlanması nəzərdə tutulan rəqəmsal inkişafla bağlı layihələrə (o cümlədən rəqəmsal həllərə və elektron xidmətlərə), həmçinin ali kateqoriya dövlət orqanlarına, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarına, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə, habelə onların həyata keçirdiyi tənzimləyici pilot layihələrə şamil edilmir.

1.7. Bu Qaydalar kritik informasiya infrastrukturu obyektlərinə həmin sahəni tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.8. Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasına səbəb olan, həmçinin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, istehlakçıların hüquqlarının müdafiəsi, dövlət sirrinin, fərdi məlumatların mühafizəsi və informasiya təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərindən kənara çıxılmaqla tənzimləyici pilot layihələrin həyata keçirilməsinə yol verilmir.

1.9. Tənzimləyici pilot layihələrin həyata keçirilməsi zamanı normativ hüquqi aktların tələblərindən kənara çıxan hərəkətlər hər hansı hüquqi nəticə yaratmır.

## 2. Tənzimləyici pilot layihələrin əhatə dairəsi

2.1. Bu Qaydalar aşağıdakı bütün tələblərə cavab verən tənzimləyici pilot layihələrin həyata keçirilməsinə şamil olunur:

2.1.1. tənzimləyici pilot layihələrin aşağıdakı rəqəmsal texnologiyaların tətbiqi əsasında həyata keçirilməsi:

2.1.1.1. "süni intellekt" texnologiyaları (maşın öyrənməsi, təbii dil emalı, böyükhəcmli məlumatların emalı, analitik təhlili və s.);

2.1.1.2. "bulud" texnologiyaları və yüksək səviyyəli hesablama texnologiyaları;

2.1.1.3. sahəvi (maliyyə, aqrar, təhsil, tibbi və s.) tətbiqyönümlü rəqəmsal texnologiyalar;

2.1.1.4. "ağıllı şəhər" texnologiyaları ("əşyaların interneti", yaşıl texnologiyalar, telesəhiyyə, nəqliyyatın intellektual idarə edilməsi və s.);

2.1.1.5. rəqəmsal mühitdə istifadəçilərdə real mövcudluq və iştirak hissi yaradan texnologiyalar (artırılmış reallıq, virtual reallıq, metakainat və s.);

2.1.2. tənzimləyici pilot layihələrin həyata keçirilməsinin bu Qaydaların 1.4-cü bəndində nəzərdə tutulmuş məqsədlərdən azı birinə nail olmağa yönəlməsi;

2.1.3. tənzimləyici pilot layihələrin həyata keçirilməsi zamanı digər dövlət qurumlarının səlahiyyətlərinə müdaxilə etmədən mövcud hüquqi tənzimləmədən kənara çıxılması zərurəti olduğu təqdirdə (bu Qaydaların 1.8-ci bəndi nəzərə alınmaqla).

## 3. Tənzimləyici pilot layihənin təsdiq edilməsi

3.1. Tənzimləyici pilot layihənin həyata keçirilməsi üçün dövlət qurumu tənzimləyici orqana müraciət edir. Müraciəti dövlət qurumunun rəhbəri və ya onun müavini imzalayır.

3.2. Müraciətə aşağıdakı sənədlər və məlumatlar əlavə olunur:

3.2.1. tənzimləyici pilot layihənin həyata keçirilməsinin məqsədləri, proqnozlaşdırılan nəticəsi, onun mövcud hüquqi tənzimləmədən kənara çıxması zərurəti və həcmi, eləcə də istifadə olunacaq rəqəmsal texnologiyalar barədə məlumatlar;

3.2.2. tənzimləyici pilot layihənin tətbiq olunacağı ərazi, proqnozlaşdırılan müddət, həmçinin həyata keçirilməsi zamanı hədəflənən (iştirakı nəzərdə tutulan) iştirakçı və istifadəçi sayı (dairəsi) barədə məlumatlar;

3.2.3. tətbiq ediləcək rəqəmsal həllin funksiyası və (və ya) təşkil olunacaq elektron xidmətin həyata keçirilməsi proseduru barədə məlumatlar;

3.2.4. rəqəmsal həllin tətbiqi və (və ya) elektron xidmətin təşkili ilə bağlı ehtimal olunan risklərin təsviri barədə məlumatlar, onların aradan qaldırılması və ya minimuma endirilməsi üçün fəaliyyətin davamlılığı planı (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

3.2.5. rəqəmsal həllin tətbiqi və (və ya) elektron xidmətin təşkili ilə bağlı tələb olunan maliyyə və insan resursları, habelə texniki-texnoloji infrastrukturun (o cümlədən böyükhəcmli məlumatların emalı zamanı yüksək hesablama gücü olan superkompüterin və ya "bulud" infrastrukturunun) mövcudluğu barədə məlumatlar;

3.2.6. rəqəmsal həllin tətbiqi və (və ya) elektron xidmətin təşkili ilə bağlı layihə sənədi, arxitektura sənədi (mövcud olduğu halda), habelə layihənin həyata keçirilməsi üçün tərtib olunmuş tədbirlər planı (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

3.2.7. tənzimləyici pilot layihənin həyata keçirilməsi nəticəsində test rejimindən real mühitə keçid planı (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

3.2.8. tənzimləyici pilot layihənin həyata keçirilməsi ilə bağlı istifadəçilərin hüquqlarının və qanuni mənafelərinin qorunması üçün görüləcək tədbirlər, o cümlədən onların məlumatlandırılması qaydası və vasitələri;

3.2.9. bu Qaydaların 4.8-ci bəndində nəzərdə tutulmuş məlumatları özündə əks etdirən çıxış strategiyası.

3.3. Tənzimləyici orqan dövlət qurumunun bu Qaydaların 3.2-ci bəndinə uyğun təqdim etdiyi sənədləri və məlumatları 5 (beş) iş günü müddətində yoxlayır. Həmin sənədlərdə və məlumatlarda aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, müraciətin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə məlumat dövlət qurumuna təqdim edilir, habelə formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir. Bütün çatışmazlıqlar dövlət qurumuna eyni zamanda bildirilməlidir.

3.4. Dövlət qurumu həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 15 (on beş) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman tənzimləyici pilot layihənin təsdiq edilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət həmin layihənin təsdiqi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə dövlət qurumunun müraciətindən sonra müddətin axımı bərpa olunur.

3.5. Dövlət qurumu müraciətə əlavə edilmiş sənədlərdə və məlumatlarda aşkar olunmuş çatışmazlıqları bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulmuş müddətdə aradan qaldırmadıqda tənzimləyici orqan müraciətə baxmaqdan imtina edir və bu barədə məlumatı 2 (iki) iş günü müddətində dövlət qurumuna təqdim edir.

3.6. Müraciətə əlavə edilmiş sənədlərdə və məlumatlarda aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra dövlət qurumu tənzimləyici pilot layihənin təsdiqi üçün tənzimləyici orqana təkrar müraciət edə bilər.

3.7. Tənzimləyici pilot layihənin təsdiq edilməsinin ümumi müddəti 60 (altmış) iş günündən çox ola bilməz. Tənzimləyici pilot layihənin təsdiq edilməsi və həyata keçirilməsi, o cümlədən bu Qaydaların 3.8-ci bəndində nəzərdə tutulmuş meyarlar üzrə təhlili, layihənin gedişatı barədə dövlət qurumuna sorğular verilməsi və yerində baxış keçirilməsi, istifadəçilər və iştirakçılar arasında rəy sorğusu aparılması, habelə rəqəmsal həlldən və elektron xidmətdən test məqsədilə istifadəsi üçün tənzimləyici orqan tərəfindən işçi qrup yaradılır. İşçi qrup tənzimləyici orqanın müəyyən etdiyi reqlament əsasında fəaliyyət göstərir və onun qərarları (o cümlədən bu Qaydaların 3.9-cu bəndində nəzərdə tutulmuş balların verilməsi üzrə) üzvlərinin yekdil razılığı əsasında qəbul olunur. Həmin işçi qrupun fəaliyyətinə digər aidiyyəti dövlət qurumlarının nümayəndələri (o cümlədən maliyyə, iqtisadi təhlil və normativ hüquqi aktların hüquqi ekspertizası sahələri üzrə), müstəqil ekspertlər və mütəxəssislər cəlb edilir.

3.8. Müraciətə əlavə edilmiş sənədlərdə və məlumatlarda çatışmazlıqlar aşkarlanmadıqda, yaxud bu Qaydaların 3.4-cü bəndinə uyğun olaraq çatışmazlıqlar aradan qaldırıldıqdan sonra işçi qrup tənzimləyici pilot layihəni 30 (otuz) iş günü müddətində (uyğunluğun yoxlanılması və təhlillərin aparılması üçün əlavə vaxt tələb olunduqda, dövlət qurumuna məlumat verməklə, müddət əlavə 20 (iyirmi) iş günü uzadıla bilər) aşağıdakı meyarlar əsasında təhlil edir:

3.8.1. innovativlik və texnoloji yenilik - layihənin rəqəmsal texnologiyaların tətbiqi nəticəsində yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsul, xidmət və ya proses təqdim etməsi;

3.8.2. xüsusi tənzimləmə rejiminin tətbiqi - normativ hüquqi aktlarda və normativ xarakterli aktlarda olan məhdudiyyətlər, habelə mövcud hüquqi tənzimləmədə olan boşluqlar səbəbindən layihənin yalnız tənzimləyici pilot layihə çərçivəsində həyata keçirilə bilməsi;

3.8.3. dövlət qurumunun hazırlıq səviyyəsi - layihənin həyata keçirilməsinə dair maliyyə və insan resurslarına, texniki-texnoloji infrastruktura malik olması;

3.8.4. sosial-iqtisadi faydalılığı - layihənin həyata keçirilməsi nəticəsində sosial və (və ya) iqtisadi faydalılığa nail olunması, həmçinin üstünlüklər əldə edilməsi;

3.8.5. risk idarəetməsinin adekvatlığı - layihənin həyata keçirilməsini ləngidəcək və ya maneə yaratması ehtimal olunan risklərin aradan qaldırılması və ya minimuma endirilməsi üçün fəaliyyətin davamlılığı planında (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə) effektiv tədbirlərin mövcudluğu.

3.9. Bu Qaydaların 3.8-ci bəndində qeyd olunan hər bir meyar üzrə 0-1 arası bal verilir. Tənzimləyici pilot layihənin təsdiqi üçün meyarlar üzrə minimal bal ümumi 5 bal üzərindən 3 bal təşkil edir (bu Qaydaların 3.8.1-3.8.3-cü yarımbəndləri nəzərə alınmaqla).

3.10. Tənzimləyici pilot layihənin bu Qaydaların 2-ci hissəsi və 3.8-ci bəndi ilə müəyyən edilmiş tələblərə və meyarlara uyğunluğu, habelə bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş sənədlər və məlumatlar təhlil olunduqdan sonra tənzimləyici orqan aşağıdakılardan biri barədə qərar qəbul edir (sahibkarlıq subyektlərinə tətbiq edilən rəqəmsal həllərə və göstərilən elektron xidmətlərə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla):

3.10.1. layihənin həyata keçirilməsinin məqsədəuyğun hesab edilməsi (layihə bu Qaydaların 2-ci hissəsi ilə müəyyən edilmiş tələblərə uyğundur və bu Qaydaların 3.8-ci bəndi ilə müəyyən edilmiş meyarlar üzrə 3 və daha çox bal almışdır (bu Qaydaların 3.8.1-3.8.3-cü yarımbəndləri nəzərə alınmaqla);

3.10.2. layihənin həyata keçirilməsindən imtina edilməsi (layihə bu Qaydaların 2-ci hissəsi ilə müəyyən edilmiş tələblərə tam və ya qismən uyğun deyildir, bu Qaydaların 3.8-ci bəndi ilə müəyyən edilmiş meyarlar üzrə 3-dən aşağı bal almışdır və ya bu Qaydaların 3.8.1-3.8.3-cü yarımbəndləri ilə müəyyən edilmiş meyarlardan azı biri üzrə bal almamışdır, eləcə də bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş sənədlərdə və məlumatlarda səhv və (və ya) təhrif olunmuş məlumatlar mövcuddur).

3.11. Tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsini məqsədəuyğun hesab etdikdə bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş sənədləri və məlumatları maliyyə ekspertizasının aparılması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi maliyyə ekspertizasını 20 (iyirmi) iş günü müddətində apararaq nəticəsini tənzimləyici orqana təqdim edir.

3.12. Tənzimləyici pilot layihənin həyata keçirilməsi barədə maliyyə ekspertizasının nəticəsi müsbət olduqda, tənzimləyici orqan layihənin təsdiqi barədə qərar qəbul edir.

3.13. Tənzimləyici pilot layihənin təsdiqindən imtina edilməsi və ya layihənin təsdiqi ilə bağlı qəbul edilmiş qərar barədə məlumatı tənzimləyici orqan 2 (iki) iş günü müddətində dövlət qurumuna təqdim edir.

3.14. Dövlət qurumu təsdiqindən imtina edilən tənzimləyici pilot layihə üzrə çatışmazlıqları (imtina barədə qərarda, o cümlədən maliyyə ekspertizasının nəticəsində qeyd olunan) aradan qaldırdıqdan sonra tənzimləyici pilot layihənin təsdiq edilməsi üçün tənzimləyici orqana yenidən müraciət edə bilər.

## 4. Tənzimləyici pilot layihənin həyata keçirilməsi və nəticəsinin rəsmiləşdirilməsi

4.1. Tənzimləyici pilot layihənin təsdiqi barədə tənzimləyici orqan tərəfindən qəbul edilən qərar təqdim olunduqdan sonra dövlət qurumu bu Qaydaların 3.2.6-cı yarımbəndində nəzərdə tutulmuş tədbirlər planı üzrə tədbirlərin icrasına başlayır. Dövlət qurumu tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı iştirakçıları və istifadəçiləri bu barədə xəbərdar etməli, onların iştirakını, eləcə də istifadəçi testlərinin təşkilini və istifadəçi rəylərinin toplanılmasını təmin etməlidir.

4.2. Tənzimləyici pilot layihə ən çoxu 2 (iki) il müddətində həyata keçirilir. Həmin müddətdə bu Qaydaların 3.2.6-cı yarımbəndində nəzərdə tutulmuş layihə sənədində və tədbirlər planında dəyişiklik edilməsi zərurəti yarandıqda, dövlət qurumu tənzimləyici orqanla bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq razılaşdırmaqla layihə sənədində və tədbirlər planında dəyişiklik edir.

4.3. Tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsi müddətində layihənin uğurla icrası üçün dövlət qurumuna əməli və metodiki dəstək göstərir.

4.4. Tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsi müddətində dövlət qurumuna həmin layihənin icrasının gedişatı barədə məlumatları və sənədləri əldə etmək üçün sorğular verə, layihənin icrasının gedişatına yerində baxış keçirə, istifadəçilər və iştirakçılar arasında rəy sorğusu apara, habelə rəqəmsal həll və elektron xidmətdən test məqsədilə istifadə edə bilər. Tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı bu Qaydalarda və ya layihə sənədlərində nəzərdə tutulmuş tələblərlə bağlı yol verilən pozuntuların və ya pozuntulara səbəb ola biləcək halların aradan qaldırılması barədə göstərişlər verir.

4.5. Tənzimləyici pilot layihənin sınaq mərhələsi dövlət qurumu tərəfindən müəyyən edilir və bu barədə tənzimləyici orqana 2 (iki) iş günü müddətində məlumat verilir. Sınaq mərhələsi 18 (on səkkiz) aydan çox ola bilməz. Həmin layihənin həyata keçirilməsi zamanı sınaq mərhələsində dövlət qurumu Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən (bundan sonra - XRİTDX) rəy (kritik informasiya infrastrukturuna münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətindən (bundan sonra - DTX) və XRİTDX-dən informasiya təhlükəsizliyi üzrə birgə rəy) alır. Həmin dövlət orqanları 5 (beş) iş günü müddətində informasiya təhlükəsizliyi üzrə əsaslandırılmış rəyi dövlət qurumuna təqdim edirlər və bu rəy dövlət qurumu tərəfindən 5 (beş) iş günü müddətində tənzimləyici orqana təqdim olunur. XRİTDX tənzimləyici pilot layihəni mühafizə olunan telekommunikasiya kanalları ilə təmin edir. Dövlət qurumu bu Qaydaların 4.2-ci bəndində nəzərdə tutulmuş dəyişiklik barədə 2 (iki) iş günü müddətində XRİTDX-yə, kritik informasiya infrastrukturuna münasibətdə isə həmçinin DTX-yə məlumat verir.

4.6. Tənzimləyici pilot layihənin həyata keçirilməsi tənzimləyici orqanın qərarı ilə aşağıdakı hallarda dayandırılır:

4.6.1. dövlət qurumunun əsaslandırılmış müraciəti əsasında;

4.6.2. tənzimləyici orqanın bu Qaydaların 4.4-cü bəndində nəzərdə tutulmuş göstərişlərinə tam və göstərişdə qeyd olunan müddətdə əməl edilmədikdə;

4.6.3. normativ hüquqi aktlarda edilən dəyişikliklər əsasında tənzimləyici pilot layihənin həyata keçirilməsi zərurəti aradan qalxdıqda;

4.6.4. layihə bu Qaydaların və ya layihə sənədlərinin tələbləri pozulmaqla həyata keçirildikdə;

4.6.5. layihənin həyata keçirilməsi üzrə informasiya təhlükəsizliyinə dair mənfi rəy olduqda;

4.6.6. dövlət qurumu hüquqi varislik müəyyən olunmadan ləğv edildikdə.

4.7. Tənzimləyici pilot layihənin dayandırılmasına dair qərar barədə məlumatı tənzimləyici orqan 2 (iki) iş günü müddətində dövlət qurumuna təqdim edir. Dövlət qurumu həmin qərar əsasında tənzimləyici pilot layihənin həyata keçirilməsini dərhal dayandırır və çıxış strategiyasının icrasına başlayır. Tənzimləyici pilot layihənin həyata keçirilməsinin dayandırılması dövlət qurumunu istifadəçilər və digər şəxslər qarşısında həmin ana qədər yaranmış öhdəliklərindən azad etmir.

4.8. Çıxış strategiyasında aşağıdakılar əks olunur:

4.8.1. tənzimləyici pilot layihənin dayandırılması barədə iştirakçıların və istifadəçilərin məlumatlandırılması qaydası və vasitələri;

4.8.2. tənzimləyici pilot layihənin dayandırılması ilə bağlı istifadəçilər qarşısında mövcud olan hər hansı öhdəliklərin icrası, o cümlədən ödənişlərin geri qaytarılması müddəti və prosesi;

4.8.3. tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı toplanılmış məlumatların (o cümlədən fərdi məlumatların) təhlükəsiz şəkildə arxivləşdirilməsi və ya məhv edilməsi ilə bağlı görüləcək tədbirlər (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

4.8.4. tənzimləyici pilot layihənin dayandırılması ilə bağlı dövlət qurumu tərəfindən görülməsi zəruri hesab olunan digər tədbirlər (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə).

4.9. Tənzimləyici pilot layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsi başa çatdıqdan və ya həyata keçirilməsi dayandırıldıqdan sonra 20 (iyirmi) iş günü müddətində dövlət qurumu tənzimləyici orqana aşağıdakı məlumatları nəzərdə tutan ilkin hesabat təqdim edir:

4.9.1. rəqəmsal həllin tətbiq olunduğu və (və ya) təşkil edilən elektron xidmətin göstərildiyi ərazini, müddətini, istifadəçi dairəsini (dövlət qurumu, bələdiyyə, fiziki və hüquqi şəxs), sayını (hər bir istifadəçi dairəsi üzrə) və həyata keçirilən əməliyyatların sayını (aylar üzrə);

4.9.2. layihənin həyata keçirilməsi müddətində istifadəçi şikayətlərinin, digər problemlərin (o cümlədən kiberinsidentlərin) və risklərin təsvirini, sayını, eləcə də onların həlli üçün görülmüş tədbirləri;

4.9.3. layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsinin sonunda əldə edilən nəticə və həmin nəticə əsasında görülməsi planlaşdırılan tədbirləri (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

4.9.4. layihənin həyata keçirilməsi ilə məqsədlərinə və (və ya) proqnozlaşdırılan nəticəsinə nail olunduğunu (olunmadığını);

4.9.5. layihənin həyata keçirilməsi ilə əldə edilən nəticəyə uyğun olaraq normativ hüquqi aktlarda dəyişiklik təklifini;

4.9.6. tənzimləyici pilot layihənin informasiya təhlükəsizliyi üzrə rəyi.

4.10. Bu Qaydaların 4.9-cu bəndində nəzərdə tutulmuş ilkin hesabat təqdim edildikdən sonra tənzimləyici orqan 20 (iyirmi) iş günü müddətində tənzimləyici pilot layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsinin nəticəsi barədə yekun hesabat hazırlayaraq həmin hesabat əsasında qərar (sınaq mərhələsinin uğurlu və ya uğursuz olması haqqında) qəbul edir (sahibkarlıq subyektlərinə tətbiq edilən rəqəmsal həllərə və göstərilən elektron xidmətlərə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla). Qəbul edilmiş qərar barədə məlumatı tənzimləyici orqan 2 (iki) iş günü müddətində dövlət qurumuna təqdim edir.

4.11. Aşağıdakı hallarda tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsinin nəticəsinin uğursuz olması barədə yekun hesabata əsasən qərar qəbul edir:

4.11.1. layihənin həyata keçirilməsi məqsədlərinə və (və ya) proqnozlaşdırılan nəticəsinə nail olunmadıqda;

4.11.2. layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsi başa çatdıqdan sonra qalan risklərin idarə edilməsi mümkün olmadıqda.

4.12. Tənzimləyici pilot layihənin nəticəsi uğurlu olduqda tənzimləyici orqan layihənin test rejimindən real mühitə keçid edərək fəaliyyətə başlaması üçün dövlət qurumu ilə birlikdə tədbirlər görür, həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə mövcud hüquqi tənzimləmədə aşkarlanan boşluqların aradan qaldırılması və ya fərqli qaydaların müəyyən edilməsi zərurəti ilə əlaqədar təkliflər verir.

4.13. Tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı toplanılmış məlumatların (o cümlədən fərdi məlumatların) təhlükəsiz şəkildə arxivləşdirilməsi və ya məhv edilməsi üzrə tədbirlər "Fərdi məlumatlar haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun həyata keçirilir.

4.14. Tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı aparılan əməliyyatlar və istifadəçilər haqqında məlumatlar dövlət qurumunda azı 5 (beş) il müddətində saxlanılır. Tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı tənzimləyici orqan Elektron Hökumət İnformasiya Sistemi üzərindən həyata keçirilən bütün əməliyyatların texniki protokollaşdırılmasını və əməliyyat tarixçələrinin azı 5 (beş) il müddətində saxlanılmasını təmin edir.

4.15. Tənzimləyici orqan özünün rəsmi internet informasiya ehtiyatında tənzimləyici pilot layihələri həyata keçirən dövlət qurumlarının adı, internet informasiya ehtiyatı (olduğu təqdirdə), əlaqə məlumatları (telefon, elektron poçt ünvanı və s.), həyata keçirilən layihə, əhatə etdiyi ərazi və keçirilmə müddəti, layihənin nəticələri və vaxtından əvvəl dayandırılması halında bu barədə məlumatları 5 (beş) iş günü müddətində yerləşdirir.

# "AzerGold" QSC-nin birinci rübdə ümumi satış gəlirləri 18 faiz artıb













**Azərbaycanın qeyri-neft-qaz sektoru üzrə əsas ixracatçı dövlət şirkətlərindən biri olan "AzerGold" QSC cari ilin birinci rübündə 12 284 unsiya qızıl, 22 053 unsiya gümüşün beynəlxalq və yerli bazarlarda satışı nəticəsində ölkə iqtisadiyyatına 102,4 milyon manat vəsait cəlb edib.**

Qeyd edilən dövr ərzində əldə edilən gəlirlərin 91,1 milyon manatdan çoxu ixrac əməliyyatlarının, 11,3 milyon manatdan çox hissəsi isə yerli bazarda pərakəndə satışın payına düşür. Ötən ilin eyni dövrü ilə müqayisədə ixrac gəlirləri (72,5 milyon manat) 26 faiz, pərakəndə satış gəlirləri isə (5,6 milyon manat) 102 faiz artıb.

Beləliklə, dövlət şirkəti fəaliyyət dövrü ərzində ümumilikdə 572,3 min unsiya qızıl və 1,1 milyon unsiya gümüş satışını həyata keçirərək ölkə iqtisadiyyatına 2,04 milyard manat vəsait cəlb edib.

Fəaliyyət dövrü ərzində "AzerGold" QSC tərəfindən dövlət büdcəsinə ümumilikdə 281 milyon manat vəsait ödənilib. Bunun 242 milyon manatı vergi, 39 milyon manatı isə sosial ödənişlərin payına düşür. Milli dağ-mədən şirkəti 2025-ci il üzrə dolayı vergilər (ƏDV, aksiz) istisna olmaqla hesablaması ən çox olan 100 vergi ödəyicisi arasında 20-ci yerdə qərarlaşıb.

"AzerGold" QSC əhəmiyyətli vergi ödənişləri ilə yanaşı, fəaliyyət göstərdiyi regionda məşğulluğun genişləndirilməsində də mühüm rol oynayıb. Ötən rübdə cəmiyyət və onun törəmə müəssisələrində çalışan əməkdaşların sayı 1152 nəfərə çatıb. Hazırda dövlət şirkətinin fəaliyyəti nəticəsində Gəncə-Daşkəsən iqtisadi rayonunda podratçı təşkilatlar da daxil olmaqla, 2595 nəfər daimi işlə təmin edilib.

"AzerGold" QSC cari ilin birinci rübündə əldə etdiyi maliyyə göstəriciləri, ixrac və satış həcmlərində müşahidə olunan artım, dövlət büdcəsinə ödənişlər, məşğulluğun genişləndirilməsi, o cümlədən yerli icmalara yönəlmiş təşəbbüslərin icrası istiqamətindəki fəaliyyəti ilə ölkəmizin sosial-iqtisadi inkişafına töhfə verməyə davam edir.

# Azərbaycan Ümumdünya Ətraf Mühit Gününə evsahibliyi edəcək

Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) ilə tərəfdaşlıq çərçivəsində cari il iyunun 5-də Bakıda Ümumdünya Ətraf Mühit Gününə (WED) evsahibliyi edəcək. Tədbir "Təbiətdən ilham alaraq. İqlim naminə. Gələcəyimiz naminə." mövzusu altında keçiriləcək.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Ümumdünya Ətraf Mühit Günü ilə bağlı estafeti 2024-cü ildə Koreya Respublikasında keçirilən tədbirdə qəbul edib.

1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən təsis edilən Ümumdünya Ətraf Mühit Günü milyonlarla insanı bir araya gətirən ətraf mühit sahəsində qlobal platformadır.

Qeyd edək ki, Azərbaycan qorunan təbiət ərazilərinin genişləndirilməsi, biomüxtəlifliyin qorunması, ekosistemlərin bərpası və iqlim dəyişmələri ilə mübarizə istiqamətində fəaliyyətini davam etdirir. Ölkə, həmçinin Paris Sazişi tərəfi kimi emissiyaların azaldılması öhdəliyini götürüb və bərpaolunan enerji sahəsini genişləndirir.

COP29-a evsahibliyinin yaratdığı dinamikanı davam etdirən Azərbaycan bu tədbir vasitəsilə beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsinə və ekoloji öhdəliklərin praktik fəaliyyətə çevrilməsinə töhfə verməyi hədəfləyir.

Azərbaycan və BMT-nin Ətraf Mühit Proqramı bütün tərəfləri Ümumdünya Ətraf Mühit Gününə qoşulmağa və ətraf mühitin qorunması naminə birgə fəaliyyət göstərməyə dəvət edir.

# Təbiətin sınağı, dövlətin qayğısı

## Prezident İlham Əliyev bu dəfə də sel sularından ziyan çəkmiş vətəndaşları taleyin hökmünə buraxmadı

Planetimizin iqlim sistemində müşahidə olunan kəskin dəyişikliklər artıq alimlərin müzakirə mövzusunu keçərək gündəlik həyatımızın reallığına çevrilib. Qlobal istiləşmənin təsiri ilə atmosferdə rütubətin artması, okeanlarda temperaturun yüksəlməsi və hava axınlarının dəyişməsi dünyanın müxtəlif yerlərində normadan artıq yağıntılara səbəb olur.

Təbiətdə baş verən kataklizmlərin, sel və daşqınların sayının və miqyasının artması birmənalı olaraq bu və ya digər formada təbii fəlakətlərlə nəticələnir. Asiyadan Avropaya, Amerikadan Afrikaya qədər geniş coğrafiyada baş verən təbii fəlakətlər insanların həyatına, iqtisadiyyata və infrastruktur sistemlərinə ciddi zərbə vurur. Bir vaxtlar nadir hallarda rast gəlinən ekstremal hava hadisələri artıq mütəmadi xarakter alaraq dövlətlərin qarşısına yeni vəzifələr qoyur.

Bu qlobal proseslər fonunda Azərbaycan da zaman-zaman iqlim dəyişikliklərinin fəsadlarını yaşayır. Xüsusən son dövrlər ölkəmizin müxtəlif bölgələrində müşahidə olunan intensiv və uzunmüddətli yağışlar çaylarda suyun səviyyəsinin artmasına, bəzi ərazilərdə isə sel və daşqınlara səbəb olur. Dağlıq və dağətəyi rayonlarda torpaq sürüşmələri, əkin sahələrinə dəyən ziyan, yaşayış məntəqələrində infrastrukturun zədələnməsi bu proseslərin görünən və yaşanan təzahürlərindəndir. Bütün bunlar göstərir ki, təbii hadisələrə hazır olmaq və onların fəsadlarını minimuma endirmək hökumətin fəaliyyətinin əsas istiqamətlərindən biri olmalıdır.

Vətəndaş üçün hökumət anlayışı yalnız idarəetmə mexanizmi deyil, həm də güvən, dayaq və arxalanacaq bir qüvvədir. İnsan o zaman dövlətini və hökumətini doğma və özününkü hesab edir ki, təkcə uğurlu, xoşbəxt günlərdə deyil, çətin məqamlarda da onu yanında görür. Məhz belə anlarda dövlətin göstərdiyi diqqət və qayğı cəmiyyətin mənəvi sütunlarını möhkəmləndirir, xalq-dövlət birliyini sarsılmaz edir, vətəndaş məqamı gələndə vətəni və dövləti üçün əlindən gələni əsirgəmir. Azərbaycan reallığında bu bağlılıq konkret faktlarla öz təsdiqini tapır. Sel və daşqınların yaratdığı çətinliklər zamanı dövlət qurumlarının operativ müdaxiləsi, zərərçəkmiş vətəndaşlara göstərilən maddi və mənəvi dəstək bir daha sübut edir ki, ölkəmizdə insan amili dövlət siyasətinin mərkəzində dayanır. Bu baxımdan, Prezident İlham Əliyevin imzaladığı məlum sərəncam yalnız texniki və inzibati qərar deyil, eyni zamanda vətəndaşa ünvanlanmış növbəti mesajdır: "Dövlət hər zaman sizin yanınızdadır".

Bu yanaşma cəmiyyətin daxilində qarşılıqlı etimadı daha da gücləndirir. Çünki diqqət və qayğı görən vətəndaş heç zaman borclu qalmır, dövlətinə daha sıx bağlanır. Tarix dəfələrlə göstərib ki, xalq öz dövlətinin yanında olduğunu hiss etdikdə vətəni və dövləti uğrunda ən böyük fədakarlığa belə, hazır olur. Bu, emosional bağlılıqdan savayı, həm də real və sınaqdan çıxmış vətəndaş mövqeyidir.

Bu gün işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri də dövlət-vətəndaş münasibətlərinin ən parlaq nümunələrindən biridir. Uzun illər ərzində dağıdılmış, xarabalığa çevrilmiş şəhər və kəndlərimizdə həyat yenidən canlanır. Müasir infrastruktur qurulur, o cümlədən yollar çəkilir, elektrik, su və kommunikasiya xətləri yenilənir. Sözsüz ki, geniş miqyasda görülən bu işlər, böyük maliyyə vəsaiti tələb edən bu proses dövlətin xalq qarşısında götürdüyü öhdəliyinə məsuliyyət ilə yanaşmasının göstəricisidir.

Belə bir zamanda qlobal iqlim dəyişikliklərinin yaratdığı təbii fəlakətlərlə mübarizənin aktuallaşdığı bir şəraitdə Prezident İlham Əliyevin sel və daşqınların nəticələrinin aradan qaldırılması ilə bağlı sərəncam imzalaması xüsusi qeyd olunmalıdır. Bu sərəncam bir daha təsdiq edir ki, dövlət siyasəti yalnız strateji inkişaf planları ilə məhdudlaşmır, eyni zamanda vətəndaşın gündəlik problemlərinə operativ reaksiya verilməsini əhatə edir.

Sərəncamın icrası çərçivəsində həyata keçiriləcək tədbirlər - zərərçəkmiş ərazilərin bərpası, infrastrukturun yenilənməsi, vətəndaşlara maddi yardımın göstərilməsi - dövlətin sosialyönümlü siyasətinin növbəti təsdiqidir. Bu siyasətin əsasında olduqca sadə, lakin güclü bir prinsip dayanır: vətəndaşın rifahı dövlətin əsas prioritetidir.

Bu sənədin icrası çərçivəsində görüləcək işlər təkcə mövcud problemlərin həlli ilə məhdudlaşmayacaq, həm də gələcəkdə belə halların təsirini minimuma endirmək üçün qabaqlayıcı tədbirlərin görülməsi, o cümlədən su təsərrüfatı və meliorasiya sistemlərinin müasirləşdirilməsi, risklərin düzgün idarə olunması istiqamətində addımlar atılacaq. Bu isə dövlət siyasətinin yalnız bu günü deyil, sabahını da düşündüyünü göstərir.

Bütün bunların fonunda formalaşan əsas həqiqət ondan ibarətdir ki, güclü dövlət yalnız iqtisadi göstəricilərlə deyil, vətəndaşına göstərdiyi münasibətlə də ölçülür. Azərbaycan nümunəsində bu münasibət özünü qayğıda, diqqətdə və operativ qərarlarda göstərir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



# İKT cəmiyyətə nə verir

## İqtisadi inkişaf, yoxsa sosial gərginlik

Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) insan fəaliyyətinin bütün sferalarında, iqtisadiyyatın hərtərəfli inkişafında geniş tətbiq olunur. Bu gün İKT dövrün ən başlıca tələblərindən biri və elə birincisidir. İnformasiya axını, rəqəmsal rabitə vasitələri, onlayn təhsil və iş imkanları İKT-nin gündəlik həyatda əhəmiyyətini artırır. Dövlət strukturları, vətəndaş cəmiyyəti institutları, iqtisadiyyat, sosial sahələr, elm, təhsil, mədəniyyət və digər strukturlar İKT-nin təsir dairəsindədir.



Azərbaycanda informasiyalaşdırma, kommunikasiyalaşdırma, kompüterləşdirmə, şəbəkələşdirmə o qədər sürətlə gedir ki, İKT-dən kənarda heç nə qalmayıb. Cəmiyyətin inkişafı, insanların öz fəaliyyətini yüksək səviyyədə həyata keçirmələri üçün innovasiyalardan geniş istifadə edilir. Təkcə bir faktı deyək ki, ölkəmizin kosmosda bir neçə peyki var. Bu da o deməkdir ki, Azərbaycan İKT-dən səmərəli istifadə edərək yüksək texnoloji səviyyəyə çatıb və ölkənin inkişafı üçün müasir infrastruktura sahibdir.

Yeri gəlmişkən: 2008-ci ildə Azərbaycanda elektron hökumətin əsası qoyulsa da, 2025-ci ildə Elektron Hökumət İnformasiya Sisteminin (EHİS) Əsasnaməsi yenilənib və bununla rəqəmsal hökumətə keçid möhkəmləndirilib. Elektron hökumət mövcud dövlət xidmətlərini sadəcə onlayn təqdim etməkdirsə, rəqəmsal hökumət dövlət idarəçiliyini məlumat və texnologiya əsasında tam yenidən dizayn etməkdir.

İKT-nin tətbiqi insanların gündəlik həyatını dəyişir - bu, qaçılmazdır. Amma bir iş var ki, onlayn işləmək və təhsil imkanlarının genişlənməsi rahatlıq gətirsə də, sosial əlaqələrin zəifləməsinə səbəb olur. İnsanlar virtual mühitdə fəaliyyət göstərdikcə, ailə və icma münasibətləri passivləşir. Ən ağrılı məqam isə odur ki, texnologiya bacarığı olmayanlar gələcək perspektivlərdən məhrum olurlar. Qeyd etdiyimiz rəqəmsal transformasiya əmək bazarının strukturunu da dəyişir - bəzi peşələrə tələbat azalır, bəzilərinə isə çoxalır. Məsələn, Avropada 2015-2025-ci illərdə İKT-nin tətbiqi nəticəsində sənaye sahələrində orta hesabla 10-15 faiz işçi sayının azalması müşahidə olunub.

Azərbaycanda da oxşar tendensiyalar mövcuddur, baxmayaraq ki, rəqəmsal transformasiya bizdə hələ inkişaf mərhələsindədir. 2023-cü ilin rəsmi statistikasına görə, sənaye və xidmət sahələrində işçi sayı təxminən 5-8 faiz azalıb. Azalma sadə əməliyyatlarla məşğul olan işçilər arasında daha çox olub. Rəqəmsal texnologiyalara yönəlmiş peşələr isə iş bazarında artmaqda davam edir. Texnoloji peşələr, yəni data analitik, proqramçı, kibertəhlükəsizlik mütəxəssisi əhəmiyyətli dərəcədə artıb. Beləliklə, həm beynəlxalq, həm də yerli təcrübə göstərir ki, İKT-nin tətbiqi əmək bazarında struktur dəyişikliklərinə səbəb olur.

Əslində, bu ziqzaq görüntünün qarşısı tamamilə alınmasa da, onun təsirini yüngülləşdirmək mümkündür. Bunun üçün işçilərin təhsili və peşə bacarıqlarının artırılması, life-long learning (ömür boyu təhsil) proqramlarının tətbiqi, işsiz qalan, yaxud da ixtisasını dəyişdirənlərə sosial dəstək verilməsi və texnologiyanın insan resurslarını nəzərə alaraq planlı tətbiqi vacibdir. Belə tədbirlər həm iş bazarının adaptasiyasını təmin edir, həm də texnologiyanın gətirdiyi mənfi təsirləri minimuma endirir. Qədim yunan filosofu Heraklit "hər şey axır və eyni çaya iki dəfə girmək olmaz" deyəndə ona əsaslanırdı ki, çay da, insan da dəyişir. Müasir dövrdə dəyişikliklərin sürəti Heraklitin yaşadığı vaxtla müqayisədə inanılmaz dərəcədə artdığı üçün texnologiyanın hərtərəfli inkişafı sosial və demoqrafik strukturda dəyişikliklərə səbəb olur.

Proses iş yerlərinin strukturunu dəyişdirərək əmək bazarında yeni problemlər yaradır. Avtomatlaşdırma, robotlaşdırma və süni intellektin sürətli tətbiqi işsizliyin artmasına səbəb olur ki, bu da bir sıra sosial və iqtisadi nəticələr doğurur. Fərdlər arasında depressiya, stres və motivasiya itkisi kimi psixoloji problemlər yaranır, həmçinin urbanizasiya və miqrasiya sürətlənir. İşini itirənlər ailələrinin ehtiyaclarını təmin etməkdə çətinlik çəkir, iqtisadi bərabərsizlik artır və istehlak səviyyəsi zəifləyir.

Bütün bunlar insanların həyatını kökündən dəyişir. Ailələr gələcək barədə qərar verərkən övlad sahibi olmağı ertələyirlər. Doğum səviyyəsi tədricən azalır, həyatın ritmi səngiyir, zamanın axarı yavaşıyır. Şəhərlərin parlaq işıqları altında urbanizasiya və texnologiyanın mərkəzləşməsi çox kiçik ailə modeli formalaşdırır. Gənclərin həyat ritmi başqalaşır, onlar sevgini, ailəni, nikahı və övlad arzularını bir növ "gözləmə otağı"na qoyurlar. Təbii ki, bu proses tədricən cəmiyyətin yaşlanmasına, toplumun enerjisinin və dinamikasının zəifləməsinə gətirib çıxarır. Deyilənləri rəsmi statistika belə təsdiqləyir: Dövlət Statistika Komitəsinin 2025-ci il məlumatına görə, ölkədə 2024-cü illə müqayisədə hər 1000 nəfərinə doğumun səviyyəsi 10-dan 9,4-ə düşüb, urbanizasiya isə sürətlə artıb. Bu ilin yanvar ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 7788 doğulan körpə qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 9,9-dan 8,9-a düşüb. Ölkədə doğum səviyyəsində azalma tendensiyası (2025-ci ildə uşaq doğumu sayının 100 minin altına düşməsi) gələcəkdə təhsil və əmək bazarında ixtisar riskləri yarada bilər.

Məcburi ixtisarlar yalnız fərdi işçilərə deyil, bütövlükdə cəmiyyətə ciddi təsir göstərir. Bu proses insanlarda gələcəyə inamsızlıq və ümidsizlik hisslərinin formalaşmasına səbəb olur. İşsiz qalan şəxslərin alıcılıq qabiliyyətinin azalması öz növbəsində daxili bazarın zəifləməsinə, nəticə etibarilə istehsal və xidmət sektorlarında tənəzzülün yaranmasına gətirib çıxarır. Psixoloji səviyyədə ixtisarlar depressiya, stres və ailə daxilində gərginlikləri artırır, ictimai etimad və həmrəylik hissini sarsıdır. Uzunmüddətli nəticədə isə ixtisarlar cəmiyyətin sosial və iqtisadi dayanıqlığını zəiflədərək inkişaf perspektivlərini məhdudlaşdırır.

Bu amillərdən dolayı dünya təcrübəsi də oxşar faktları ortaya qoyur. Araşdırmalar göstərir ki, yüksək texnologiyaya sahib ölkələrdə doğum səviyyəsi, adətən, aşağı olur. Məsələn, Cənubi Koreyada 8 il ardıcıl olaraq doğumun azalması qeydə alınıb. 2023-cü ildə isə bu göstərici rekord dərəcədə aşağı olub: bir qadına 0,72 uşaq düşüb. Bu, təbii ki, texnoloji inkişafın yaratdığı yüksək rəqabət, işsizlik qorxusu, mənzil bahalığı və karyera prioritetləri ilə birbaşa bağlıdır.

Eyni demoqrafik tendensiyalar bu gün digər inkişaf etmiş və sürətlə sənayeləşən ölkələrdə də müşahidə olunur: Yaponiya, Tayvan, Sinqapur, Çində doğum səviyyəsi aşağı düşüb. Çində, üstəlik, əhali də azalmağa başlayıb. Bu ölkədə tək uşaq siyasətinin fəsadları və texnoloji tərəqqi ilə işsizlik riski əhalini övlad sahibi olmaqdan çəkindirir. Avropanın İspaniya, İtaliya, Almaniya kimi ölkələri də təxminən eyni vəziyyətlə üz-üzədir. Ona görə də texnologiyanın gətirdiyi rahatlıqlarla işsizlik riski arasında balans yaratmaq sosial siyasətin əsas məqsədlərindən olmalıdır. Bu mənada gələcəkdə texnologiya və sosial siyasət arasında tarazlığı qorumaq iqtisadi və sosial sabitliyi təmin etmək üçün vacibdir.

İKT-nin inkişafı həyatı yeni ritmə, işıqlı və sürətli axara qovuşdurur. Amma bu parıltılı sürət cəmiyyətin hazır olmadığı sürprizlər də gətirir - işsizlik və maliyyə çətinlikləri, gənclərin arzularını sabaha saxlaması, ailələrin kiçilməsi. Bütün bunlar göstərir ki, texnologiyanın inkişaf tempinə insanlar ruhən və sosial baxımdan hazırlıqsız ola bilərlər. Ona görə də inkişaf yalnız texnologiyada deyil, həm də sosial və demoqrafik sabitlikdə də olmalıdır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İşğaldan azad edilmiş ərazilərdə iqtisadi aktivlik ABDF-nin maliyyə mexanizmləri ilə dəstəklənir

**İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Biznesinin İnkişafı Fondu (ABDF) işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası və davamlı inkişafın təmin edilməsini əsas prioritetlərdən biri kimi müəyyən edib.**

Fond bu ərazilərdə iqtisadi fəallığın artırılması, yeni biznes subyektlərinin formalaşması və mövcud təşəbbüslərin genişləndirilməsi üçün üç əsas maliyyə mexanizmi - birbaşa investisiya, zəmanət və subsidiya, eləcə də güzəştli kreditlər vasitəsilə kompleks dəstək göstərir. Bu mexanizmlər regionda həm real sektorun inkişafına, həm də məşğulluğun artırılmasına töhfə verməyə hədəflənib.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən investisiya layihələri regionun iqtisadi potensialının reallaşdırılması, sənaye və enerji infrastrukturunun formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu layihələr yerli istehsalı və ixrac imkanlarını genişləndirməklə yanaşı, yeni iş yerlərinin yaradılması və dayanıqlı iqtisadi mühitin formalaşmasına birbaşa xidmət edir.

### Kəlbəcər-Laçın Su-Elektrik Stansiyaları

ABDF və Türkiyənin "Demirören Yatırım Holding A.Ş." Şirkətlər Qrupu arasında bağlanmış Birgə İştirak Müqaviləsinə əsasən, Kəlbəcər və Laçın rayonlarında dövlət-özəl tərəfdaşlığı prinsipi ilə 4 kiçik su-elektrik stansiyasının bərpası və istismarı nəzərdə tutulur. İldə təxminən 7000 ev təsərrüfatının fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi planlaşdırılır. Layihənin ümumi dəyəri 27,5 milyon ABŞ dolları təşkil edir.




### "Şəfəq" Günəş-Elektrik Stansiyası

İşğaldan azad edilmiş ərazilərdə ilk sənaye miqyaslı günəş enerjisi layihəsi və ən böyük xarici investisiya təşəbbüsü olan "Şəfəq" Günəş-Elektrik Stansiyası da ABDF-nin dəstəyi ilə icra olunan layihələrdən biridir. Şəfəq" Günəş-Elektrik Stansiyası vasitəsilə Cəbrayıl rayonunun elektrik şəbəkəsinə enerji ötürülməsi, eyni zamanda Səngəçal terminalının enerji ehtiyaclarını bərpa olunan enerji hesabına təmin edilməsi nəzərdə tutulub. Ümumi dəyəri 204 milyon ABŞ dollar olan bu layihənin əsas hədəfi Azərbaycanın "yaşıl enerji" sektorunu inkişaf etdirmək və ekoloji davamlılığı artırmaqdır.

### "Bafco Invest" MMC

Fond bu ərazilərdə sənaye istehsalı istiqamətində fəaliyyət göstərən irimiqyaslı layihələrdə də iştirak edərək iqtisadi aktivliyin bərpasına dəstək olur. Ağdam Sənaye Parkında fəaliyyət göstərən "Bafco Invest" MMC zavodunun işçi ayaqqabıları istehsalı layihəsi bu iştirakın nümunəvi nəticəsidir. Müasir keyfiyyət standartlarına cavab verən istehsal prosesinə əsaslanan layihənin ümumi dəyəri 15,1 milyon manatdır.

### "Şahbulag Mining" MMC

"Şahbulag Mining" MMC tərəfindən Ağdam rayonunun Şahbulaq əhəngdaşı yatağının istismarı və Xocalı şəhərində sement istehsalı layihəsi icra olunmaqdadır. Layihə çərçivəsində mişar daşı və sement istehsalı həyata keçirilir ki, bu da Qarabağda aparılan tikinti və bərpa işlərinə birbaşa töhfə verir. Sözügedən layihənin ümumi dəyəri 5,17 milyon manat təşkil edir

### Zəmanət və subsidiya dəstəyi ilə yaradılan real imkanlar

ABDF tərəfindən tətbiq edilən zəmanət və subsidiya mexanizmi sahibkarların maliyyə resurslarına çıxışını daha da asanlaşdırır və kredit risklərini minimuma endirir. Mexanizmə əsasən, sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərin 90%-dək hissəsinə dövlət zəmanəti verilir. Eyni zamanda kreditlər üzrə illik faiz dərəcəsinin 10 faiz bəndi 36 aya qədər olan müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır və kreditlər üçün əlavə güzəşt müddəti tətbiq olunur.

Hazırda fond tərəfindən sahibkarların 52 layihəsi üzrə banklardan əldə etdiyi 66,8 milyon manat kreditə 56,5 milyon manat həcmində dövlət zəmanəti verilib. Eyni zamanda bu layihələr üzrə 17,3 milyon manat məbləğində subsidiya təsdiqlənib.

### Güzəştli kreditlərlə dəstəklənən yerli bizneslər

Fond tərəfindən sahibkarlığın dəstəklənməsinə yönəlmiş güzəştli kredit mexanizmi işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən biznes subyektlərinin daha əlverişli şərtlərlə maliyyə resurslarına çıxışını təmin edir. Bu kreditlər aşağı faiz dərəcələri, uzunmüddətli qaytarılma qrafiki və güzəşt müddətləri ilə seçilərək sahibkarların maliyyə yükünü əhəmiyyətli dərəcədə azaldır və bizneslərin davamlı inkişafını stimullaşdırır.

İndiyədək azad edilmiş ərazilərimizdə ümumilikdə 28 layihə üzrə sahibkarlara 45,8 milyon manat həcmində güzəştli kredit təqdim edilib.

ABDF tərəfindən təqdim olunan maliyyə mexanizmləri işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəallığın artırılmasına, yeni iş yerlərinin yaradılmasına və regionun dayanıqlı inkişafına mühüm töhfə verməklə yanaşı, sahibkarlığın genişlənməsi üçün uzunmüddətli maliyyə əlçatanlığının formalaşdırılmasına xidmət edir. Bu yanaşma həm biznes təşəbbüslərinin reallaşdırılmasını sürətləndirir, həm də regionun iqtisadi potensialının daha səmərəli şəkildə səfərbər olunmasına şərait yaradır.

## Dövlətinə və özünə güvən - irəlilə

### "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda keçirilən tədbirdən çıxan nəticə bu oldu

**Dünya iqtisadiyyatında sahibkarlığın rolu ildən-ilə artır. Yeni iş yerləri yaratmaq, innovasiyaları tətbiq etmək və iqtisadi inkişafı sürətləndirmək sahibkarların gündəlik fəaliyyətinin təməlini təşkil edir. Lakin niyə bəziləri yeni ideyalarla uğur qazanır, bəziləri isə mübarizədə geri qalır?**



Cavab aydındır. Çünki sahibkarlıq sadəcə biznes qurmaqla kifayətlənmir. Bu, uzun və məşəqqətli bir məsafə qət etməyə bənzəyir. Yolda uğur əldə etmək isə yaradıcılıq və qərarvermə bacarığı tələb edir. Və həmin uğurun təməlində risk alma bacarığı dayanır. Uğurlu sahibkarlar riskləri düzgün qiymətləndirərək, bazar şəraitinə uyğun addımlar atırlar. Məsələn, yeni məhsulu və ya xidməti bazara çıxaran zaman rəqabət və maliyyə risklərini nəzərə almaq, həmçinin planlı strategiya qurmaq vacibdir. Texnologiya və xidmət sahələrində uğur qazanmış şirkətlərin çoxu məhz yeni və orijinal ideyalarını reallaşdırmaqla bazarda lider mövqe qazanıblar. Beləliklə, riskli addım atan, yaradıcılıq və qərarvermə bacarıqlarını birləşdirən sahibkar şəxsi və iqtisadi uğura nail ola bilir. Çünki sahibkarlıq sadəcə fərdi uğurdan başqa iqtisadi və sosial dəyişiklik yarada bilən qüvvədir.

Bu mənada Azərbaycanda sahibkarlıq iqtisadi inkişafın və yeni iş yerlərinin yaradılmasının vacib təməl daşıdır. Son illər ölkədə kiçik və orta sahibkarlığın dəstəklənməsi üçün müxtəlif proqramlar və təşviq mexanizmləri həyata keçirilir. Dövlət tərəfindən vergi güzəştləri, kreditlərə çıxış imkanları və biznes mərkəzlərinin yaradılması sahibkarlığın inkişafını sürətləndirir. Dövlətin ən mühüm dəstək mexanizmlərindən biri sahibkarlara maliyyə dəstəyidir.

İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Biznesin İnkişafı Fondu (BİF) bu dəstəyi həyata keçirən əsas qurumdur. Oeyd edək ki, fondun məqsədi Azəbaycanda sahibkarlığı inkişaf etdirmək, biznes fəaliyyətini stimullaşdırmaq və yeni iş yerləri yaratmaqda biznesmenlərə yardım etməkdir. Fond vasitəsilə sahibkarlara aşağı faizli, uzunmüddətli və güzəştli kreditlər təqdim olunur. Bu kreditlər kənd təsərrüfatı, sənaye, turizm, xidmət sektoru, innovativ və startap layihələrə yönəldilir. BİF regionların inkişafına xüsusi önəm verir. Məhz buna görə də regionlarda fəaliyyət göstərən sahibkarlar üçün xüsusi güzəştli kredit proqramları mövcuddur.

Azərbaycanda mikro, kiçik və orta biznesin inkişafı da ölkənin iqtisadiyyatında mühüm yer tutur. Bu biznes subyektləri ümumi sahibkarlıq strukturunun böyük bir hissəsini təşkil edir və regionların sosial-iqtisadi inkişafında xüsusi rol oynayır. Kiçik və orta biznesin (KOB) də dövlətin güzəştli maliyyə mexanizmləri ilə dəstəklənməsi diqqətdən kənarda qalmır. Həmin subyektlərə dəstək verən qurumlardan olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) sahibkarlara təşkilati, hüquqi və məsləhət xidməti göstərən mühüm qurumlardandır. KOBİA-nın təşəbbüsü ilə keçirilən təlimlər və seminarlar biznes biliklərinin artırılmasına yönəldilir. Agentlik sahibkarlara geniş spektrli xidmət təqdim etməklə yanaşı, onların dövlətlə əlaqələrini asanlaşdırır və biznes mühitinin şəffaf şəkildə inkişafına təkan verir.

Bu çərçivədə sahibkarlığın inkişafına verilən önəmi nümayiş etdirmək və biznes mühitinin gücləndirilməsini təşviq etmək məqsədilə, İqtisadiyyat Nazirliyinin dəstəyi ilə KOBİA və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "Sahibkarlar günü"nə həsr olunmuş "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda tədbir keçirilib. Xatırladaq ki, Azərbaycanda hər il aprelin 25-i Sahibkarlar günü kimi qeyd olunur. Bu əlamətdar gün ölkədə özəl sektorun inkişafına göstərilən dövlət qayğısını və sahibkarların iqtisadiyyatdakı rolunu yüksək qiymətləndirmənin bariz nümunəsidir. Sahibkarlar günü Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı sərəncamla həmin il təsis edilib. Tədbirdə ölkə iqtisadiyyatının davamlı inkişafında və məşğulluğun təmin edilməsində özəl sektorun aparıcı rolu vurğulanıb. Qeyd edilib ki, sahibkarlığın inkişafı üçün qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir, inzibati prosedurlar sadələşdirilir, biznes mühiti bir qədər də yaxşılaşdırılır. Sahibkarlara göstərilən maliyyə və institusional dəstək mexanizmləri genişləndirilir, müxtəlif güzəşt və stimullaşdırıcı tədbirlər tətbiq olunur. Xüsusilə kiçik və orta biznesin inkişafı iqtisadi siyasətin prioritetləri sırasındadır və dövlət-özəl sektor əməkdaşlığı davamlı olaraq gücləndirilir.

Tədbirdə çıxış edən KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov fikirlərini rəqəmlərin dili ilə belə çatdırıb: "Agentliyin faktiki fəaliyyətə başladığı 2018-ci ildən ötən müddət ərzində KOB subyektlərinin sayı 74 faizədək artaraq 424 mini ötüb. Bu dövrdə KOB sektorunun məşğulluq göstəricisi də 47 faiz yüksəlib. Ümumilikdə 70 minədək KOB subyekti və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslər bu dəstəklərdən faydalanıb. İndiyə qədər KOB evlərində 1,5 milyondan artıq xidmət göstərilib. KOB evinin rəqəmsal modeli olan e-KOB evi portalından da artıq istifadə etmək mümkündür".

Tədbirdə sahibkarlığın inkişafının iqtisadiyyatın dayanıqlı artımında və məşğulluğun təmin edilməsindəki rolu xüsusi vurğulanıb. O da diqqətə çatdırılıb ki, mikro, kiçik və orta biznesin genişləndirilməsi, investisiya mühitinin formalaşdırılması, ixracın təşviqi və şəhərsalma sahəsində aparılan islahatlar dövlət siyasətinin prioritet istiqamətlərini təşkil edir. Özəl sektor iqtisadiyyatın şaxələndirilməsi, sosial rifahın yüksəldilməsi və davamlı inkişafın təmin olunmasında həlledici rol oynayır. Qeyri-neft-qaz sektorunun artan rolu iqtisadi artımın hərəkətverici qüvvəsinə çevrilib və sahibkarlar iqtisadiyyatın inkişafına vacib töhfə verirlər. Sahibkarlardan məhsuldarlığın artırılması, bilikli və bacarıqlı kadrların hazırlanması, müəssisələrin texnoloji səviyyəsinin yüksəldilməsi və uzunmüddətli investisiyalara diqqət yetirməsi gözlənilir.

Sahibkarlığın inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, maliyyə və institusional dəstək mexanizmlərinin genişləndirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü sahələrin inkişafının stimullaşdırılması istiqamətində görülən işlərdən də söz açıb. İştirakçıların nəzərinə çatdırılıb ki, ölkədə tətbiq edilən yeni iqtisadi inkişaf modeli özəl sektorun rolunu bir qədər də gücləndirir, sahibkarların dayanıqlı və rəqabətqabiliyyətli fəaliyyətini təmin edir. Tədbir çərçivəsində sahibkarların uğurlarının və təşəbbüslərinin, həmçinin dövlət və özəl sektor əməkdaşlığının önəmi bir daha ön plana çıxarılıb.

Göründüyü kimi, sahibkarlıq yalnız iqtisadiyyatın deyil, həm də cəmiyyətin inkişafının təməl daşlarındandır. Kiçik və orta biznesin dəstəklənməsi ilə Azərbaycanda yeni iş yerlərinin yaradılması, yerli istehsalın artırılması və innovasiyaların təbliği iqtisadiyyatın davamlı inkişafına müsbət təsir göstərir. Dövlət və özəl sektor arasında güclənən əməkdaşlıq, sahibkarların qarşısına çıxan riskləri minimuma endirərək onlara uğurlu fəaliyyət göstərmək imkanı yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## BP-nin Azərbaycan təhsilinə növbəti dəstəyi

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) keçirilmiş bərpaolunan enerji mənbələri üzrə magistr proqramının ilk buraxılış tədbirinə BP də qoşuldu. Bu da təsadüfi deyil, çünki BP ikili diplom verən həmin proqramın təsis edildiyi vaxtdan - 2023-cü ildən ona dəstək göstərir.**

Proqram Azərbaycanda tamamilə yeni bir təhsil istiqamətidir və bərpaolunan enerji mənbələri üzrə ixtisaslaşan yeni nəsil yerli mühəndislərin yetişdirilməsinə imkan yaradır. BP bu proqrama ölkədə bacarıq və potensialın inkişafına uzunmüddətli dəstək öhdəliyinin bir hissəsi kimi iki milyon dollarlıq sosial sərmayə layihəsi ilə qoşulub.

Bu yeni təhsil proqramında əlamətdar bir hadisə olan buraxılış tədbirində ilk 27 məzunun ikili diplom təhsilinin uğurla başa çatması qeyd edildi.

Xatırladaq ki, bu proqram Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə təsis edilib və ADNSU tərəfindən Uorik (Warwick) Universiteti ilə tərəfdaşlıqda həyata keçirilir. Təşəbbüsdə məqsəd beynəlxalq akademik təcrübəni yerli tədris metodologiyaları ilə bir araya gətirməklə Azərbaycanda bərpaolunan enerji üzrə təhsil potensialını gücləndirməkdir. BP-nin bu proqrama dəstəyi bərpaolunan enerji laboratoriyasının yaradılmasını, lazımi infrastruktur və avadanlığın təminatını, həmçinin akademik potensialın gücləndirilməsinə və akademik heyətin inkişafına yönəlmiş fəaliyyətləri əhatə edir.



BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli tədbirdə çıxış edərək deyib: "Bu yeni ikili diplom proqramının ilk məzun buraxılışını qeyd etməkdən çox məmnunuq. Təhsil və bacarıqların inkişafına sərmayə Azərbaycanın enerji keçidinə dəstəyimizin əhəmiyyətli bir hissəsidir. İnanırıq ki, bu proqram ölkənin sürətlə inkişaf edən enerji sektorunun tələb etdiyi praktik bilikli və səriştəli, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına böyük dəstək olacaq. Bu uğurlu başlanğıc həmçinin ölkədə bərpaolunan enerji sahəsində təhsil potensialının artırılması istiqamətində Elm və Təhsil Nazirliyi və universitetlərlə qurduğumuz güclü əməkdaşlığın əhəmiyyətini əks etdirir".

Qeyd edildiyi kimi, BP şirkəti ADNSU-da günəş, külək və hidrogen enerjisi üzrə praktiki öyrənmə və tətbiqi tədqiqatların aparılmasına imkan verən müasir laboratoriyanın yaradılmasına dəstək verir. Laboratoriya qabaqcıl eksperimental və simulyasiya avadanlıqları ilə təchiz ediləcək. Bu, tələbə və tədqiqatçılara real şəraitdə ölçmələr aparmağa, enerji çevrilməsi proseslərini müşahidə etməyə və sistemlərin fəaliyyət göstəricilərini sənaye üzrə uyğun proqram təminatlarından istifadə ilə təhlilləri həyata keçirməyə imkan yaradacaq.

Şirkət laboratoriyanın səmərəli fəaliyyəti üçün lazım olan infrastruktur, avadanlıq və əməliyyat dəstəyi göstərir. Burada İT avadanlıqları, proqram təminatı və lisenziyalar, mebel təchizatı, ilk tibbi yardım vasitələri və qoruyucu geyimlər, həmçinin laboratoriya sahəsi üzrə tikinti və təmir işləri də nəzərdə tutulub.

Dəstəyə həmçinin yerli akademik potensialın gücləndirilməsi üçün bacarıqların artırılması və akademik heyətin inkişafı daxildir. Proqramın tədris heyəti üçün ingilis dili təlimləri, eləcə də bərpaolunan enerji sahəsində ixtisaslaşan yerli müəllimlərin, mütəxəssislərin və proqram inzibatçılarının bilik mübadiləsi məqsədilə Uorik (Warwick) Universitetinə (Böyük Britaniya) tədris səfərləri də təşkil edilir.

İkili diplom proqramının ikinci tədris qrupuna məqsədli dəstək, o cümlədən Bakıda dərs deyən Böyük britaniyalı müəllimlərin səfər və təlim xərcləri, həmçinin ADNSU tələbələrinin beynəlxalq akademik mühitlə tanışlığı və praktiki öyrənmə təcrübəsi qazanmaları üçün sözügedən ölkədə yay məktəbində iştirakı ilə bağlı xərclər daxildir.

Onu da qeyd edək ki, BP şirkəti Azərbaycanda 34 ildir neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin operatorudur. Əməliyyatçı şirkət bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Bu vaxtadək BP öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə 89 milyard dollardan çox sərmayə qoyub. Bəyan edib ki, Azərbaycanda ən çox töhfə verə biləcəyinə inandığı sahələrə yönəltməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürüb.

BP-nin indiyədək ölkəmizdə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirib. Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib.

Fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından Azərbaycandakı sosial sərmayə layihələrinə ümumilikdə 115 milyon dollardan çox vəsait xərcləyib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



# Mədəniyyət



● Maarifpərvər ziyalılarımız

# Xalqının fədakar övladı

**XX yüzillikdə Azərbaycan ədəbiyyatı, mətbuatı, teatrı və ictimai fikir tarixində böyük xidmətləri olan Eynəli bəy Sultanov 160 il öncə - 1866-cı il mayın 5-də Naxçıvanda dünyaya göz açıb. O, təhsil almağa Naxçıvan qəza məktəbində başlayıb, sonra İrəvan gimnaziyasında oxuyub. Gimnaziyada dərs aldığı unudulmaz müəllimlərindən biri də böyük maarifçi, görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli olub.**

Gimnaziyada rus, latın, yunan dillərini, riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat və başqa fənləri dərindən mənimsəyib. Təhsilini başa vurduqdan sonra o, bir müddət Naxçıvanda işləyib. Eynəli bəy savadlı, dünyagörüşlü, millətpərvər, fəal gənc kimi tanınıb. Onun öz evində 1882-ci ildə təşkil etdiyi "Ziyalılar cəmiyyəti"nə Əsəd ağa Kəngərli, Paşa ağa Sultanov, Mirzə Cəlil Mirzəyev (Şürbi), Mirzə Ələkbər Xəlilov, Qurbanəli Şərifov, Baxşəli ağa Şahtaxtlı, Nəsrulla Şeyxov və başqa açıqfikirli, tərəqqipərvər insanlar toplaşaraq soydaşlarının inkişafı naminə çalışıblar. Onların müzakirə etdikləri mövzular sırasında ictimai, siyasi, sosial, mədəni və digər vacib məsələlər olub. Cəmiyyətin üzvləri yeni üsullu məktəblərin, kitabxanaların açılmasını vacib hesab ediblər. Puşkin, Tolstoy, Belinski, Dobrolyubov kimi görkəmli rus yazıçı və şairlərinin əsərləri oxunub, tərcümə olunub, elmi-ədəbi mübahisələr keçirilib. Görkəmli dramaturq Cəlil Məmmədquluzadə yazırdı: "Mən darülmüəllimini qurtaran zaman Naxçıvanda özümdən artıq huşyar dostlarıma rast gəldim. Mənim səsimə səs verən sindaşlarımdan qabaqca əzizim Eynəli Sultan oldu".

Naxçıvanda ilk dəfə 1883-cü ildə Eynəli bəy Sultanov, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şahtaxtlı, Qurbanəli Şərifov, Mirzə Əlməmməd Xəlilov, Mirzə Ələkbər Bəyalı oğlu Süleymanov, Mirzə Məmməd Zamanbəyov və başqaları "Müsəlman incəsənəti və dram cəmiyyəti" adlı ədəbi cəmiyyət yaradıblar.

Eynəli bəy Sultanov zəngin və çoxşaxəli yaradıcılıq yolu keçib. Onun adı Azərbaycan teatr tarixində bu sənətin inkişafında göstərdiyi xidmətlərə görə qalıb. Naxçıvan teatrının yaranmasında və təşəkkülündə əməyi böyük olan Eynəli bəy Sultanov özü kimi teatrsevərləri ətrafında toplayıb.

1883-cü ildə Naxçıvanda fəaliyyət göstərən "Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti"nin nümayəndələri Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərini səhnələşdiriblər. Onlar İrəvana, xalq məktəbləri inspektoru Tselovalnikova göndərdikləri teleqramda bildiriblər: "Naxçıvan müsəlman (şiə) dram sənəti həvəskarları tərəfindən may ayında acların xeyrinə, 1848-ci ildə nəşr edilmiş "Çadust" kitabından teatr tamaşası göstərməyə icazə vermək haqqında səadətli qubernator yanında vəsatət etməniz rica olunur". Cəmiyyət nümayəndələri məqsədlərinə çatıblar. Razılıq alınıb. Həmin ilin mayında tamaşa Hacı Nəcəf Zeynalovun evində nümayiş olunub.

Doğma şəhərində maarifçi mühitin formalaşması onun adı ilə bağlıdır. Naxçıvanda mədəni-maarif tədbirlərinin təşkilatçısı, mütərəqqi ziyalılar dəstəsinin ilk müəllimi və tərbiyəçisi kimi də Eynəli bəy Sultanovun adı ehtiramla anılıb. Eyni zamanda Eynəli bəy Naxçıvanda kitabxana açdırmaq üçün böyük əmək sərf edib.

O, həm də istedadlı qələm sahibi olub. Onu düşündürən, narahat edən mövzulardan, problemlərdən qəzetlərə məqalələr yazıb. Məqalə-



lərinə rus dilində çıxan "Novoye obozreniye" qəzetinin səhifələrində müntəzəm yer verilib. Eynəli bəy 1905-1908-ci illərdə "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri kimi də fəaliyyət göstərib. "Kaspi"də onun dövrünün ictimai-siyasi hadisələrini əks etdirən, maraqlı məqalələri, hekayələri və şeirləri dərc edilib.

Tərcüməçilik sahəsində də Eynəli bəy Sultanovun fəaliyyəti diqqətçəkən olub. O, bir müddət İrəvan dairə məhkəməsində tərcüməçi işləyib, 1906-cı ildən İrəvan dairə məhkəməsinin prokurorunun Naxçıvan mahalı üzrə köməkçisi vəzifəsində çalışıb.

E.Sultanov bəy oğlu idi. Ata-babalarının kəndləri, geniş torpaq sahələri, tarlaları, kəhrizləri vardı. Amma Eynəli bəy nə öz biliyini, savadını, nə də mal-mülkünü həmvətənlərindən əsirgəyib. Xeyriyyəçi kimi tanınan E.Sultanov 1907-ci ildə Naxçıvan ətrafındakı Göynük, Sürməlik və Sirab kəndlərindəki şəxsi torpaq sahələrini kəndlilərə paylayıb.

Eynəli bəy bədii əsərlər də yazıb, əsasən dram və nəsr əsərləri qələmə alıb. Qadın azadlığı məsələsindən bəhs edən "Tatarka" pyesi ilk dəfə Naxçıvanda tamaşaya qoyulub. Əsər 1904-cü ildə İrəvanda kitab kimi çap olunub.

Naxçıvanda, daha sonra İrəvanda yaşamış Eynəli bəy Sultanov sonra Tiflisə köçərək fəaliyyətini orada davam etdirib. O, uzun müddət yaşadığı Tiflisin teatr mühitinin inkişafı uğrunda çalışıb, şəhərin mətbuat orqanlarında, xüsusilə "Molla Nəsrəddin" jurnalının səhifələrində maraqlı yazılarla çıxış edib.

O, Tiflisdə yaşadığı illərdə səhnəciklər qələmə alıb. Mirzə Fətəli Axundovun "Molla İbrahim Xəlil kimyagər" və "Hacı Qara" komediyalarını rus dilinə tərcümə edib. Tiflis teatrında göstərilən müxtəlif tamaşalar barəsində resenziyalar, ayrı-ayrı aktyorların oyunları haqqında məqalələr yazıb.

Maarifpərvər ziyalı pedaqoq kimi də çalışan Eynəli bəy 1912-1916-cı illərdə Tiflisdə fəaliyyət göstərən qadın gimnaziyasında rus dilini tədris edib. Sonralar ana dili müəllimi və sinif nəzarətçisi kimi fəaliyyət göstərib. Əlifba islahatı uğrunda ardıcıl mübarizə aparan Eynəli bəy 1924-cü ildə yeni əlifba komitəsinin Tiflis şöbəsinin katibi olub.

Yazıçı, publisist, maarifçi-pedaqoq, dramaturq, teatr xadimi, teatr tənqidçisi, tərcüməçi, ictimai xadim kimi zəngin ömür yolu keçən Eynəli bəy Sultanov 1935-ci ilin iyununda Tiflisdə dünyasını dəyişib.

Xalqına bağlılığı və sədaqəti, teatr, ədəbiyyat və mətbuat sahələrində göstərdiyi xidmətləri ilə o, tariximizin unudulmaz şəxsiyyətləri sırasında əbədi yer tutur. Eynəli bəy Sultanovun həyatı və çoxşaxəli fəaliyyəti Azərbaycan ziyalısının xalqa xidmət nümunəsi kimi bu gün də hörmətlə anılır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Zərif naxışdar

# Adı ədəbiyyat tariximizə əbədi həkk olunmuş şair



Xalqımız üçün özündən sonra zəngin bədii irs qoymuş, bir-birindən maraqlı, dəyərli əsərlər yazmış Abdulla Şaiq Talıbzadənin adı Azərbaycanın ədəbiyyat və düşüncə tarixinə romantik şair, nasir, dramaturq, ədəbiyyatşünas-alim, tərcüməçi və müəllim kimi əbədi həkk olunmuşdur. Abdulla Şaiqin anadan olmasının 145 illiyi tamam olur. Bu münasibətlə təhsil ocaqlarında, yaradıcı təşkilatlarda müvafiq tədbirlər keçirilir.

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda da Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Şaiqin yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbir Azərbaycan Yazıçılar Birliyi və Abdulla Şaiqin Mənzil-Muzeyinin birgə təşkilatçılığı ilə baş tutub. Görkəmli ədibin 145 illiyinə həsr olunmuş yubiley tədbirində Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları və Bakıdakı Ev Muzeylərinin nümayəndələri iştirak ediblər.

Görkəmli ədibin 145 illik yubileyinə həsr olunmuş tədbiri Azərbaycan Yazıçılar Birliyi sədrinin müavini Rəşad Məcid açaraq Abdulla Şaiqin ədəbiyyat qarşısındakı misilsiz xidmətlərindən danışıb. Sonra tədbirin idarə olunması AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Əsəd Cahangirə həvalə edilib.

Tənqidçi Əsəd Cahangir çıxış üçün ilk sözü AYB-nin sədri, Xalq yazıçısı Anara verib. Anar Abdulla Şaiqin Azərbaycan ədəbiyyatındakı xidmətlərindən söz açıb.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov A.Şaiqi turançı şair kimi təqdim edib. O, Abdulla Şaiqi əsərlərində Qızıl almanı - mənəvi Turan idealını vəsf edən yeganə Azərbaycan şairi adlandırıb.

AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Asif Rüstəmli çıxışında A.Şaiqin ədəbi fəaliyyətindən ətraflı danışıb. Böyük ədibin cümhuriyyət dövrü yaradıcılığı üzərində xüsusi olaraq dayanıb. Fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlı A.Şaiqin incə ruhlu lirik şeirlərindən, mərhum akademik Kamal Talıbzadə ilə səmimi münasibətlərindən söz açıb. Filologiya elmləri doktoru, şair Zahid Xəlil A.Şaiqin uşaq şeirlərini səsləndirib. Görkəmli ədibin uşaq şeirlərini yüksək sənət nümunələri kimi dəyərləndirib.

AMEA Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı Abdulla Şaiqin uşaq yazıçısı kimi fəaliyyətindən ətraflı söz açıb. Filologiya üzrə fəlsəfə doktoru Arzu Əhməd Hacıyeva çıxışında Abdulla Şaiqin çoxcəhətli fəaliyyətinin digər bir sahəsindən - ədəbiyyatşünas alim kimi fəaliyyətindən danışıb. Ədibin bu mövzuda yazdığı əsərləri yüksək dəyərləndirib. Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru Fərrux Rüstəmov iştirakçılara Abdulla Şaiq məktəbinin yaranma tarixindən söz açıb. Onun sonrakı taleyi barədə geniş məlumat verib.

Çıxışlar başa çatdıqdan sonra tədbir bədii hissə ilə davam edib. Abdulla Şaiqin Mənzil-Muzeyinin nəzdində fəaliyyət göstərən "Vətən" uşaq-yaradıcılıq dərnəyinin və Bakı şəhəri 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Çiçəyim" uşaq teatrının üzvləri Abdulla Şaiqin şeirlərini səsləndiriblər.

Sonda görkəmli ədibin nəvəsi, Abdulla Şaiq mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar başda olmaqla tədbirin keçirilməsində əməyi olan hər kəsə və iştirakçılara dərin minnətdarlığını bildirib.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Milli-mədəni irsimiz

# Beynəlxalq Xalça Festivalı sərgilərlə zəngin olacaq



**Ölkəmizin paytaxtı mayın 1-3-də Beynəlxalq Xalça Festivalına evsahibliyi edəcək. "Azərxalça" ASC-nin Mətbuat xidmətindən aldığımız məlumata görə, festivalın zəngin və maraqlı proqramına bu il də müxtəlif, həm yerli, həm də xarici müəlliflərin sərgiləri daxil olacaq.**

Məlumatda bildirilir ki, onlardan biri - "Elysium" sadəcə, bir sərgi deyil, həm də sənətin müxtəlif sahələrinin birləşməsidir: "Rəssam Aida Mahmudovanın fırçasından çıxan abstrakt rəng qatları "Azərxalça" ASC-nın toxucuları tərəfindən ilmələrə köçürülüb. Bu, rəsm əsərinin "toxunulmaz" kətan halından çıxıb, daha fiziki və strukturlu bir formaya çevrilməsidir. Xalçaların Nardaran, Şəmkir və Qubada toxunması layihənin həm də sosial tərəfini - yerli sənətkarlığın və qadın əməyinin müasir incəsənətlə dəstəklənməsini vurğulayır. "Azərxalça" ASC-nin tarixi təcrübəsi ilə Aida Mahmudovanın müasir baxışı 1-3 may tarixlərində İçərişəhər kimi tarixi məkanda (Böyük Qala 15) bir araya gəlir". Fərid Rəsulov və "Azərxalça" ASC-nin tərəfdaşlığından ortaya çıxan "Nağılları yaşadan ilmələr. Qarabağ xalçaları" xalça kolleksiyası isə ənənəvi Qarabağ xalçaçılıq sənətini sadəcə keçmişin qalığı kimi deyil, müasir sənət dilinin canlı bir parçası kimi təqdim edir.

İçərişəhərdə yerləşən Qgallery sərgi salonunda nümayiş olunacaq sərginin əsas qayəsi irs ilə müasirlik arasında ciddi bir dialoq yaratmaq, toxunmuş hər ilmədə nağılları və tariximizi bugünkü bədii təfəkkürlə birləşdirməkdir. Beynəlxalq Xalça Festivalı üçün xüsusi hazırlanan kolleksiyaya "Ağ at və quşların nağılı", "Qarabağ atının əfsanəsi", "Zəriflik naxışı", "Qızılı lələklərin əks-sədası", "İlmələrdəki pələng" və "Gecənin tacı nar" adlı fərqli 6 xalça daxildir. Yun və ipək qarışığından ibarət, 3D texnikası ilə hazırlanan "Nağılları yaşadan ilmələr. Qarabağ xalçaları" sərgisinin əsas ideyası belədir - təkcə qorumaq kifayət deyil. Mədəni irs aktual qalmaq üçün dinamik olmalıdır.

Festival günlərində Bakı Fotoqrafiya Evində tamaşaçıların ixtiyarında olacaq növbəti sərgi "Hərəkətdə olan ruhlar ("SOULS IN MOTION")" adlanır. Qeyd edək ki, müasir tekstil sənətində ənənəvi sənətkarlıqla innovativ texnikaları birləşdirən önəmli simalardan biri - Laurin Malanqronun yaradıcılığının mərkəzində dayanan "Nuno Silk" (Nuno ipəyi) texnikası, ipək və yun liflərinin bir-birinə keçərək vahid, axıcı və rəngkar bir tekstur yaratmasına əsaslanır. Onun beynəlxalq səviyyədə tanınan əsərləri şəxsi kolleksiyalarda və dizayn layihələrində yer alır. Bu işlər həm ənənəvi sənətkarlığa dərin hörməti, həm də davamlılığa olan güclü bağlılığı əks etdirir. Hazırda Fransanın məşhur qobelen mərkəzi olan Obüsson şəhərində yaşayan sənətkar - əsərləri Latviyadakı Rotko Muzeyinin daimi kolleksiyasına qəbul edilən ilk rəssam da hesab olunur.

Festivalın digər sərgisində isə alban-amerikalı rəssam Cəvahir Kolqininin yaradıcılığı təqdim ediləcək. İçərişəhərdəki Zaman Qalereyasında təqdim olunacaq sərgi "Hörülmə" adlanır. Əsərlər əllə toxunma (düyünləmə) texnikası ilə yaradılıb. Yaşanmış təcrübələr xətlərin, düyünlərin, torların və piksellərin dili ilə toxunmuş struktura çevrilir. Bu, rəssa-



mın mədəniyyətlərin kəsişməsi və sivilizasiyaların toqquşması mövzularına uzunmüddətli marağını əks etdirir. "Azərxalça" ASC-nin Mətbuat xidmətindən bildirilib ki, sərgi tekstili həm bir təsvir, həm də bir düşüncə forması kimi təqdim edir. Burada duyğusal, zehni və mədəni anlayışlar bir-birinə keçərək birgəyaşayış və özünüifadə haqqında dərin bir meditasiya məkanı yaradır.

Beynəlxalq Xalça Festivalında iştirak etmək üçün Qazaxıstandan gələcək Assol Alimova (Asolya) xalçalar üzərində hiperrealizm üslubunda işləyir. Sənətkar ənənəvi xalçaları müasir incəsənət nümunəsinə çevirərək onların üzərində portretlər yaradır. Böyük Çölün qadınları, türk tarixi və milli ornamentləri əsərlərinin əsas mövzusudur. O, həm kurator kimi ənənəvi irsi müasir sənətlə birləşdirir, həm də bir rəssam kimi xalçanı kətan kimi istifadə edərək yeni bir janr yaradır. Yaradıcılığı geniş ictimaiyyət tərəfindən qəbul edilib. Festival iştirakçıları onun əsərləri ilə "Azərxalça" ASC-nin yeni sərgi salonunda, Bakı Xanlarının Saray Kompleksi (Böyük Qala 44) ünvanında nümayiş olunacaq "Türk çölünün qadınları" adlı sərgisində tanış ola biləcəklər.

"DanceAbility Azərbaycan" Beynəlxalq Xalça Festivalı çərçivəsində İnklüziv Multidissiplinar Sərgini təqdim edir. Şəxsi hekayələrdən və "Azərxalça" ASC-nin toxucularının təcrübəsindən ilhamlanan "Nənəmin xalçası" adlı bu tədbir xalçanı yalnız ənənəvi obyekt kimi deyil, canlı və paylaşılmış təcrübə kimi təqdim edir. Müasir üslubda rəqəmsal performans, hekayə təqdimatı, praktiki məşğələ və panel müzakirələrini bir araya gətirən proqram çərçivəsində bütün fəaliyyətlər əlilliyi olan və olmayan şəxslərin birgə iştirakı ilə hazırlanır. Tədbir Azərbaycan və ingilis dillərində keçirilir, insan mərkəzli dizayn prinsipləri əsasında qurulub. İçərişəhərdə yerləşən Müasir İncəsənət Mərkəzində baş tutacaq tədbirin əsas tərəfdaşı BP şirkətidir.

"Azərxalça" ASC-nin Mətbuat xidmətindən o da bildirilib ki, festivalın əhatə dairəsi təkcə qalereya və qapalı məkanlarla məhdudlaşmır, həm də İçərişəhərin tarixi küçə və meydanları geniş sənət platformasına çevriləcək. Qoşa Qala meydanı və Bakı Xanları parkı festival boyu mərkəzi sərgi-satış yarmarkalarına evsahibliyi edəcək. Burada şəhər sakinləri və turistlər unikal sənət nümunələrini yaxından görmək və əldə etmək imkanı qazanacaqlar.

İçərişəhər Festival Zonaları və Açıq Səma Altında Sərgilər eyni zamanda Vahid bağı boyunca uzanan yarmarka zonası qonaqlara müxtəlif sənətkarlıq məhsullarının nümayişini təqdim edəcək. Əsrlərin yaddaşını yaşadan Multani və Buxara karvansaraları isə öz qapılarını eksklüziv sərgilər və yeni sənət məhsullarının təqdimatları üçün açaraq tarixlə müasirliyin kəsişməsini vizual bir bayrama çevirəcək.

Şirvanşahlar Sarayı Kompleksinin muzey məkanında təqdim olunacaq AtəşHub: bədii-maarifləndirici proqram xalçanın mənəvi irs və sakral funksiyalarına həsr edilir. Proqram çərçivəsində kurator və sənətşünas M.Məmmədəliyevanın "Naxışdan alqoritmə: Azərbaycan xalçasının ənənədən müasirliyə təkamülü" mövzusunda mühazirə-prezentasiyası da dinləniləcək. Təqdimatda Azərbaycan xalçasının mədəni şüurdan rəqəmsal incəsənətə keçid aspektləri və video-instalyasiyalar nümayiş olunacaq.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Əlincəqala - Azərbaycanın mübarizlik simvolu və dünyanın ikinci "Machu Picchu"su

**Əlincəqala Naxçıvanın Culfa rayonunda yerləşən və Azərbaycanın ən möhtəşəm tarixi abidələrindən biri hesab edilən mühüm qala-kompleksdir.**



Yazılı mənbələrdə qalanın adına ilk dəfə "Kitabi-Dədə Qorqud" dastanında rast gəlinir. Azərbaycan xalqının mübarizlik və vətənpərvərlik simvoluna çevrilən bu qala uzun əsrlər boyu müdafiə istehkamı və yaşayış məntəqəsi kimi istifadə edilib. Əlincəqala 14 il ərzində Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərməsi ilə də tarixə düşüb.

Əlincəqala yalnız milli deyil, həm də beynəlxalq əhəmiyyət daşıyan tarixi abidələrdən biri kimi qiymətləndirilir. 2007-ci ildə dünya əhəmiyyətli abidələr sırasına daxil edilib. 2014-2016-cı illərdə aparılan geniş bərpa və konservasiya işlərindən sonra qala açıq səma altında muzeyə və regionun ən mühüm turizm məkanlarından birinə çevrilib. Zirvəyə doğru uzanan pilləkənlər, eləcə də qalanın yüksək mövqeyindən açılan mənzərə - xüsusilə Haçadağ və Araz çayı vadisi ziyarətçilərdə unudulmaz təəssürat yaradır. Möhtəşəm coğrafi yerləşməsinə görə Əlincəqala turistlər tərəfindən dünyanın ikinci "Machu Picchu"su adlandırılır.

Bütün bu və digər amillər göstərir ki, Əlincəqala həm tarixi dəyəri, həm də turizm potensialı ilə Azərbaycanın mədəni irsinin qorunması və xalqımızın vətənpərvərliyinin, mübariz ruhunun dünyaya tanıdılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu abidə Naxçıvanın qədim tarixini yaşadan və gələcək nəsillərə ötürən bir mədəniyyət simvoludur.

BEYNƏLXALQ HƏYAT

# Donald TRAMP: "Nüvə proqramından imtina etməsə, İranla razılaşma mümkün deyil"

## Mohsen REZAİ: "İran ABŞ-nin dəniz blokadasını uzatmasına dözüm göstərməyəcək"



**ABŞ Prezidenti Donald Tramp bildirib ki, bu mərhələdə Tehran nüvə silahı proqramından tamamilə imtina etməyə razılaşmadığı halda İranla razılaşma mümkün deyil. Bu barədə İsrailin Mignews.com portalı xəbər verib.**

Bildirilir ki, jurnalistlərin suallarını cavablandıran Tramp İrana təzyiqin davam edəcəyini vurğulayıb. O, İran tərəfi ilə əlaqələrin davam etdiyini, lakin nüvə məsələsi ilə bağlı fundamental razılaşma əldə olunana qədər heç bir razılaşma olmayacağını deyib. Prezident həmçinin iqtisadi çətinliklər və məhdud hərbi imkanlar səbəbindən İranın ağır vəziyyətdə olduğunu bildirib. O, sanksiyaların və təzyiqlərin artıq ölkəyə əhəmiyyətli dərəcədə təsir etdiyini qeyd edib.

Müxtəlif mənbələrə və beynəlxalq mediaya görə, hazırda İran hökumətində əhəmiyyətli dəyişikliklər baş verir. Ali lider Əli Xameneinin ölümündən sonra ölkəyə nəzarət faktiki olaraq təhlükəsizlik qüvvələrinə keçib. Onun oğlu Müctəba Xamenei formal olaraq əsas rolu saxlayır, lakin iddialara görə, faktiki olaraq qərarlar hərbi rəhbərlik və İslam İnqilabı Keşikçiləri Korpusunun nümayəndələri tərəfindən qəbul edilir. Qərar qəbuletmə mərkəzi təhlükəsizlik qurumlarına və Milli Təhlükəsizlik Şurasına keçib.

Eyni zamanda bildirildiyinə görə, İran elitasında fikir ayrılıqları davam edir. Bəzi liderlər ABŞ ilə razılığa gəlməyə çalışmağı dəstəkləyir, digərləri isə daha sərt mövqedə israr edir və gələcək qarşıdurma üçün variantları nəzərdən keçirirlər. Bu arada Ali rəhbər Müctəba Xameneinin baş hərbi müşaviri general Mohsen Rezai bildirib ki, İran ABŞ-nin dəniz blokadasının uzadılmasına "dözüm göstərməyəcək".

Onun açıqlaması Vaşinqtonda İran limanlarına məhdudiyyətlərin mümkün genişləndirilməsi ilə bağlı müzakirələr zamanı verilib. Mənbələrə görə, qərar Tehrana təzyiqin daha da artması ilə əlaqələndirilə bilər.

Rezai həmçinin Ali rəhbərin vəziyyəti ilə bağlı şayiələri rədd edərək bildirib ki, o, "gənc, sağlamdır və ölkə işlərini idarə edir". Bu açıqlamalar liderin uzun müddət ictimaiyyət qarşısında çıxış etməməsi ilə bağlı xəbərlərdən sonra verilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ABŞ viza qaydalarını sərtləşdirir




ABŞ viza qaydalarını sərtləşdirir. "BBC" xəbər verir ki, yeni qaydalara əsasən, viza üçün müraciət edən şəxslər öz ölkələrində təqib və ya təhlükə ilə üzləşmədiklərini təsdiqləməlidirlər.

Bu dəyişiklik ABŞ səfirlikləri və konsulluqlarına göndərilən rəsmi təlimat əsasında tətbiq olunur. Məqsəd turist və ya tələbə vizası ilə ölkəyə daxil olub sonradan sığınacaq almağın qarşısını almaqdır. Yeni qayda turist, tələbə və müvəqqəti iş vizaları da daxil olmaqla bütün qeyri-immiqrasiya vizalarına şamil edilir. Bununla yanaşı, bəzi ölkələr üzrə immiqrasiya vizalarının verilməsi də müvəqqəti olaraq dayandırılıb.

ABŞ rəsmiləri bildiriblər ki, bu addım milli təhlükəsizliyin gücləndirilməsinə xidmət edir.

# Dünyada neft bahalaşıb

Qlobal neft bazarlarında ciddi bahalaşma müşahidə olunub.




"BBC" xəbər verir ki, beynəlxalq bazarlarda "Brent" markalı neftin qiyməti təxminən 7 faiz artaraq bir barel üçün 126 dolları keçib. Bu göstərici 2022-ci ildən bəri qeydə alınan ən yüksək səviyyə hesab olunub. ABŞ-nin "West Texas Intermediate" markalı nefti də bahalaşaraq 109 ABŞ dollarına yüksəlib.

Qiymət artımının əsas səbəbi kimi Yaxın Şərqdəki gərginliyin və strateji əhəmiyyətə malik Hörmüz boğazında mümkün risklərin qalması göstərilir. Qeyd edək ki, dünya üzrə neft daşımalarının təxminən beşdəbiri məhz bu boğazdan keçir.

Ekspertlər bildiriblər ki, bölgədə gərginliyin qalması qlobal enerji təchizatına ciddi təsir göstərə bilər. Hətta kiçik bir eskalasiya ehtimalı belə bazarlarda qiymətlərin sürətlə yüksəlməsinə səbəb olur. Eyni zamanda ABŞ rəhbərliyinin mümkün münaqişənin ölkə iqtisadiyyatına təsirini minimuma endirmək üçün enerji sektorunun nümayəndələri ilə müzakirələr apardığı da bildirilir.

# Avropa İttifaqı üzvləri təhlükəsizlik üçün alternativlər axtarırlar

Avropa İttifaqı liderləri regionun təhlükəsizliyi və daxili müdafiə imkanlarını gücləndirmək üçün ciddi addımlar atmağa başlayıblar.

"Əl-Cəzirə" telekanalı xəbər verir ki, bu prosesin mərkəzində ittifaqın təsis müqaviləsində yer alan, lakin indiyədək geniş istifadə olunmayan 42.7-ci maddə dayanır. "Qarşılıqlı yardım şərti" adlanan bu bənd, hər hansı bir üzv dövlət silahlı təcavüzə məruz qaldıqda, digər üzv ölkələrin ona bütün mümkün vasitələrlə kömək etməsini qanuni bir öhdəlik kimi müəyyən edir.

Hazırda Avropada bu maddənin kağız üzərindəki siyasi vəddən real hərbi sistemə çevrilməsi üçün "yol xəritəsi" hazırlanır. Avropa Komissiyası maddənin praktiki tətbiqi üçün xüsusi təlimat hazırlayır, Avropa İttifaqının aparıcı dövlətlərin rəhbərləri isə bu öhdəliyin məcburi xarakter daşıdığını vurğulayırlar. Xüsusilə son dövrlərdə baş verən regional gərginliklər və hərbi bazalara qarşı törədilən təxribatlar Avropanın öz müdafiə resurslarına daha çox arxalanması zərurətini ortaya qoyub.

Lakin Aİ-nin bu müdafiə bəndini güclü bir mexanizmə çevirmək yolunda müəyyən çətinliklər mövcuddur. Çünki 42.7-ci maddənin arxasında hələlik vahid bir hərbi komandanlıq və ya daimi hazır vəziyyətdə olan bir ordu dayanmır. Buna baxmayaraq, Avropanın böyük dövlətləri hərbi büdcələrini kəskin şəkildə artırır və özünü müdafiə qabiliyyətini yüksəltmək üçün ortaq strategiyalar hazırlayırlar. Bu, Avropanın gələcəkdə kənar dəstək olmadan öz təhlükəsizliyini təmin edə bilən müstəqil bir güc mərkəzinə çevrilmək istəyindən irəli gəlir.

# Ciddədə liderlər görüşüb

Ciddədə keçirilən Körfəz liderlərinin sammiti regionda həm birlik, həm də daxili rəqabət mesajları ilə yadda qaldı.

"Euronews" telekanalı xəbər verir ki, sammitdə tərəflər hər hansı konkret qərar qəbul etməyiblər.

Görüşdə Səudiyyə Ərəbistanı və Qətər liderlərinin səmimi görüşü regionda illərdir davam edən küsülülüyün bitdiyini rəsmən təsdiqləyib. Bu, xarici təhdidlərə qarşı birlik nümayiş etdirmək məqsədi daşıyıb.

Bundan əlavə, sammitdə Körfəz ölkələri arasında hələ də ciddi fikir ayrılıqlarının olduğu üzə çıxıb. Liderlər regionda baş verən hadisələrlə bağlı hələlik ehtiyatlı diplomatiya yolunu seçməyi üstün tutublar.

# Avropa nə qədər yanacaq ehtiyatına malikdir?

Avropa İttifaqı (Aİ) enerji böhranı ilə üz-üzə qaldığı bir vaxtda ciddi bir problemlə qarşılaşıb. Belə ki, qitədə mövcud olan yanacaq ehtiyatlarının dəqiq həcmi məlum deyil. Yaxın Şərqdəki proseslərin riskləri və Hörmüz boğazında mümkün təchizat kəsintiləri səbəbindən bu qeyri-müəyyənlik daha da narahatedici xarakter alır.



"Politico"nun yaydığı məlumata görə, son hadisələr nəticəsində enerji qiymətləri kəskin artıb və Aİ üçün əlavə xərclərin gündə təxminən 500 milyon avroya çatdığı bildirilir. Aviaşirkətlər uçuşları azaldır, hökumətlər isə vətəndaşları daha az səyahət etməyə çağırır. Lakin ən böyük problem bu vəziyyətin nə qədər davam edəcəyini proqnozlaşdırmağın çətinliyidir.

Rəsmilər etiraf edirlər ki, dövlət ehtiyatları barədə məlumatlar nisbətən şəffaf olsa da, real vəziyyət tam aydın deyil. Xüsusilə dizel, benzin və reaktiv yanacaq kimi emal olunmuş məhsulların böyük hissəsi özəl şirkətlərin əlindədir. Özəl sektorun məlumat paylaşmaq istəməməsi isə vəziyyəti daha da çətinləşdirir. Nəticədə Avropa enerji baxımından kritik bir mərhələdədir, ehtiyatların nə qədər olduğu tam bilinmir, risklər isə sürətlə artır. Bu da gələcək aylarda daha ciddi qərarların qəbul olunmasını qaçılmaz edir.

***Hazırladı:***
***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Ürək sağlamlığı hər yaşda qorunmalıdır

Ürək sağlamlığı insan yaşamı üçün ən vacib şərtdir. Müasir tibb ürək-damar xəstəliklərinin birdən-birə yaranmadığını, illər ərzində səssiz şəkildə inkişaf etdiyini göstərir. Son illərdə aparılan genişmiqyaslı tədqiqatlar risk faktorlarının düşündüyümüzdən daha erkən yaşlarda formalaşmağa başladığını sübut edir. Ürək-damar xəstəlikləri riskinin 30 yaşların ortalarından etibarən artmağa başlaması bu sahədə profilaktikanın daha erkən dövrdə aparılmasının vacibliyini ön plana çıxarır.



Ürək hər gün təxminən 7500 litr qanı bədən boyunca dövr etdirərək oksigen və qida maddələrini daşıyır, tullantıları xaric edir və bədən temperaturunu tənzimləyir. Bu qədər mühüm funksiyalara baxmayaraq, ürək müxtəlif risk faktorlarına qarşı həssasdır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, ürək-damar xəstəlikləri dünya üzrə ölümün əsas səbəbidir və bütün ölümlərin təxminən üçdəbirini təşkil edir. Bu ölümlərin böyük hissəsinin vaxtında profilaktika və risk faktorlarının idarə edilməsi ilə qarşısını almaq mümkündür.

ABŞ-də aparılmış uzunmüddətli bir araşdırma 18-30 yaşarası 5112 sağlam insanın tibbi göstəricilərini orta hesabla 34 il ərzində izləyərək mühüm nəticələr ortaya qoyub. Müşahidələr zamanı ürək-damar xəstəlikləri, insult və ürək çatışmazlığı halları qiymətləndirilib. Nəticələr göstərib ki, kişilərdə ürək-damar xəstəlikləri riski təxminən 35 yaşdan etibarən sürətlənir. Qadınlarda isə risk daha gec yaşlarda özünü göstərir. Statistikaya görə, ürək-damar xəstəliklərinin 5 faizlik yayılma həddi kişilərdə qadınlardan təxminən yeddi il əvvəl baş verir. Bu fərqin əsas səbəblərindən biri ürək tutmalarının ən çox yayılmış səbəbi sayılan koronar ürək xəstəliyidir. Bu xəstəlik zamanı damarların divarında yağ yığıntıları əmələ gəlir və qan axını məhdudlaşır. Nəticədə ürək əzələsi kifayət qədər oksigen ala bilmir və infarkt riski artır.

Uzun illər ərzində ürək xəstəliyi riskini qiymətləndirmək üçün qan xolesterolunun ölçülməsi "qızıl standart" hesab edilirdi. Lakin müasir elmi yanaşmalar göstərir ki, bu göstərici hər zaman riskləri tam əks etdirmir. Standart lipid profilləri bəzən normal görünsə də, damar daxilində təhlükəli proseslər davam edə bilər.

Yeni tədqiqatlar göstərir ki, ürək-damar riskini qiymətləndirərkən yalnız xolesterolun miqdarı deyil, onu daşıyan hissəciklərin sayı daha vacib göstəricidir. Apolipoprotein B (ApoB) və lipoprotein(a) kimi biomarkerlərin ölçülməsi risklərin daha dəqiq müəyyənləşdirilməsinə kömək edir. Çalmers Texnologiya Universiteti və Harvard Universitetinin rəhbərliyi ilə 200 mindən çox insan üzərində aparılan araşdırma xolesterolu daşıyan hissəciklərin sayının, xolesterolun ümumi miqdarından daha əhəmiyyətli olduğunu ortaya qoyub. Bu yanaşmaya görə, damar divarlarında ilişib qala bilən hissəciklərin sayı artdıqca ateroskleroz riski yüksəlir.

Xolesterol orqanizm üçün zəruri maddədir. O, hüceyrə quruluşunun formalaşmasında və hormonların sintezində mühüm rol oynayır. Lakin həddindən artıq olduqda damar divarlarında toplanaraq aterosklerotik lövhələr yaradır. Bu lövhələr parçalandıqda infarkt və ya insult baş verə bilər. Problemin əsas tərəfi isə ondan ibarətdir ki, mövcud testlər çox vaxt xolesterolun miqdarını ölçür, lakin onu daşıyan hissəciklərin sayını müəyyən etmir.

Ürək-damar xəstəliklərinin geniş yayılması həyat tərzi ilə sıx əlaqəlidir. Fiziki hərəkətsizlik, qeyri-sağlam qidalanma, artıq çəki və xroniki stres ürək sağlamlığına mənfi təsir göstərən əsas amillər sırasındadır. Müasir həyat tərzi insanların uzun saatlar masa arxasında, avtomobildə və ya ekran qarşısında hərəkətsiz qalmasına səbəb olur. Uzunmüddətli hərəkətsizlik ürək-damar xəstəlikləri və ümumi ölüm riskini artırır.

Bu kontekstdə biokinetika sahəsi profilaktika və reabilitasiyada mühüm rol oynayır. Biokinetika hərəkət elminin prinsiplərinə əsaslanaraq fərdi qiymətləndirmələr əsasında məşq proqramları hazırlayır. Məqsəd funksional qabiliyyəti artırmaq, əzələ-skelet sistemini gücləndirmək və ümumi fizioloji sağlamlığı yaxşılaşdırmaqdır. Biokinetik mütəxəssislər idmanı terapevtik vasitə kimi istifadə edərək fərdlərin ehtiyaclarına uyğun təhlükəsiz və klinik baxımdan uyğun məşq proqramları hazırlayırlar.

Tədqiqatlar müntəzəm fiziki aktivliyin qan təzyiqini aşağı saldığını, lipid profilini yaxşılaşdırdığını, qan şəkərini tənzimlədiyini və ürəyin daha səmərəli işləməsini təmin etdiyini göstərir. Bu səbəbdən idman ürək-damar xəstəliklərinin qarşısının alınmasında və idarə edilməsində əsas vasitələrdən biri hesab olunur.

Mövcud sağlamlıq tövsiyələrinə görə, həftədə ən azı 150 dəqiqə orta intensivlikli aerob fiziki fəaliyyət ürək sağlamlığını qorumaq üçün minimum standart sayılır. Sürətli gəzinti, velosipedsürmə və rəqs kimi fəaliyyətlər bu kateqoriyaya daxildir. Vaxt məhdud olduqda, məşqləri gündə üç dəfə 10 dəqiqə olmaqla bölmək də effektiv hesab olunur. Bundan əlavə, əzələləri gücləndirən fəaliyyətlərin həftədə ən azı iki gün yerinə yetirilməsi metabolik sağlamlığı yaxşılaşdırır və ürək-damar riskini azaldır.

Bir çox ürək-damar xəstəlikləri uzun müddət simptom vermədən inkişaf edir. Yüksək qan təzyiqi, qan şəkərinin artması və lipid pozuntuları çox vaxt ciddi hadisə baş verənə qədər aşkar olunmur. Bu səbəbdən xüsusilə 35 yaşdan yuxarı şəxslərin və ailəsində ürək xəstəliyi olanların ildə ən azı bir dəfə tibbi müayinədən keçməsi tövsiyə edilir. Hərəkətsizliklə yanaşı, düzgün duruşun qorunması, oynaq hərəkətliliyinin saxlanması və əzələ funksiyasının gücləndirilməsi də vacibdir. Müntəzəm dartınma, müqavimət və tarazlıq məşqləri əzələ-skelet sistemini dəstəkləyərək hərəkətsizliklə bağlı problemlərin qarşısını alır.

Xroniki stres də ürək sağlamlığı üçün ciddi risk faktorudur. Stres iltihabi prosesləri gücləndirir, qan təzyiqini artırır və zərərli vərdişlərin yaranmasına səbəb olur. İdman stresin idarə olunmasında təsirli vasitələrdən biridir. Fiziki fəaliyyət zamanı ifraz olunan endorfinlər əhvali-ruhiyyəni yaxşılaşdırır, ağrını azaldır və ümumi həyat keyfiyyətini artırır. Araşdırmalar aerobika və müqavimət məşqlərinin depressiya və narahatlıq simptomlarını azaltdığını göstərir.

Ürək sağlamlığını qorumaq yalnız xəstəlikləri müalicə etməklə deyil, onların qarşısını almaqla mümkündür. Risk faktorlarının erkən müəyyən edilməsi, müntəzəm tibbi nəzarət, sağlam qidalanma, fiziki aktivlik və stresin idarə olunması uzunömürlülüyün əsas şərtləridir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz olacaq

Azərbaycanda mayın 1-nə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-12, gündüz 15-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 7-12, gündüz 20-25, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti təşkil edəcək.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3784
Sifariş 540

Qiyməti 60 qəpik